# Rəhbərlik illəri

- ✓ Azərbaycan KP MK-nın birinci katibi (1969-1982)
- ✓ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini (1982-1987)
- ✓ Naxçıvan dövrü (1990-1993)
- ✓ Azərbaycan Respublikasının Prezidenti (1993-2003)

# Azərbaycan KP MK-nın birinci katibi
# (1969-1982)

XX əsrin son otuz ili və XXI əsrin başlanğıcında Azərbaycana rəhbərlik bilavasitə görkəmli dövlət və siyasi xadim Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. O, kiçik fasilələrlə XX əsrin son otuz ilində Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik etmiş, 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasının dövlət başçısı olmuşdur. Tarixdə nadir hadisələrdəndir ki, Heydər Əliyev iki ictimai-siyasi quruluşda Azərbaycana rəhbərlik etmişdir. Hər iki sistemdə görkəmli dövlət və siyasi xadim kimi Azərbaycanın iqtisadiyyatını möhkəmlətmiş, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırmış, milli mənafeyini, milli mentalitetini, mədəniyyət və mənəviyyatını qorumuş və inkişaf etdirmişdir. Birinci dövrdə - Sovet hakimiyyəti dövründə respublikamızı keçmiş SSRİ-də bütün sahələrdə öncül yerlərdən birinə çıxartmış, sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirilən tədbirlər və uzaqgörən siyasət nəticəsində qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynamışdır. İstər Sovetlər Birliyi, istərsə də müstəqil Azərbaycan Respublikası dövründə Vətəninə, xalqına sədaqətlə, ləyaqətlə xidmət Heydər Əliyevin mübarizə devizi və həyat idealı olmuşdur. O, əmək və ictimai fəaliyyətinin ilk dövrlərindən özünün şəxsi keyfiyyətləri ilə fərqlənmiş, ən yüksək rəhbərlik səviyyəsinə qalxmışdır.

1969-cu il iyulun 14-də keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirildi. Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi və büro üzvü seçilməsi məsələsi səsverməyə qoyulur. Onun eyni zamanda Azərbaycan KP MK üzvlüyünə namizədlikdən MK-nın üzvü seçilmək məsələsinə də baxılır.

Plenum yekdilliklə Heydər Əliyevə səs verir və o, AKP MK-nın birinci katibi vəzifəsinə seçilir. Plenumda çıxış edən Heydər Əliyev göstərir ki, o, tam məsuliyyətlə qarşıda duran çətin və mürəkkəb vəzifələri anlayır və öz əməli işində bunların həlli üçün əlindən gələni əsirgəməyəcək.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçilən vaxt respublika iqtisadiyyatı dərin iqtisadi böhran mərhələsinə qədəm qoymuşdu. 60-cı illərdə iqtisadiyyatın inkişafında mənfi meyllər özünü göstərirdi. Bir sıra obyektiv və subyektiv səbəblərə görə Azərbaycanın sosial-iqtisadi inkişafdan geridə qalması artıq nəzərə çarpırdı. Bir çox sahələrdə - milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə görə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinə görə, ictimai əməyin məhsuldarlığına görə, ümumittifaq göstəricilərindən geridə qalırdı.

Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesində işlərin fasiləsiz aparılması pozulur, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri aşağı düşürdü.

Kənd təsərrüfatının istehsal səviyyəsi aşağı düşməkdə davam edirdi. Meliorasiya və dəmyə torpaqların suvarılmasında, kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsində nöqsanlar var idi. Kənd təsərrüfatında taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi.

Respublikanı belə bir ağır vəziyyətdən qurtarmaq üçün çıxış yolu axtarıb tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsip etibarı ilə yeni konseptual proqram işlənməsi, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri həyata keçirilməsi, təsərrüfatçılıq işində yeni metodlar tətbiq edilməsi və i.a. zəruri vəzifələr qarşıda dururdu. Bu çətin və mürəkkəb işlərin həyata keçirilməsində güclü, bacarıqlı təşkilatçı, cəsarətli bir rəhbərə ehtiyac var idi. Belə bir rəhbər də Heydər Əliyev oldu.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən bir ay keçməmiş Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda məruzə ilə çıxış edir. Məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət böyük prinsipiallıqla dərindən və hərtərəfli təhlil edilir və xalq təsərrüfatına, mədəni quruculuğa rəhbərlikdə buraxılmış ciddi nöqsanlar və çatışmazlıqlar aşkar edilir. Bütün təşkilatları dövlət və əmək intizamını möhkəmlətməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa istiqamətləndirir. Heydər Əliyev 1969-1970-ci illərdə keçirilən Azərbaycan KP MK-nın plenumlarında, fəallar yığıncaqlarında, toplantılarda və başqa yığıncaqlarda məruzə və çıxışlarında ardıcıl olaraq təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir və yeni vəzifələr qarşıya qoyurdu. Həmin illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsi oldu. Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikamızın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi Heydər Əliyevin yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı bütün 1970-1980-ci illərdə müvəffəqiyyətlərin rəhni oldu.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin respublika partiya təşkilatının XXVIII qurultayına *(10-12 mart 1971-ci il)* hesabat məruzəsində respublikada vəziyyətin dərin təhlili verilmişdi. Təsərrüfat və mədəni quruculuq təcrübəsində, kadrların seçilib yerləşdirilməsində bir sıra ciddi çatışmazlıqlar və səhvlər meydana çıxarılmışdı.

Bu nöqsanların nəticəsində Azərbaycanda 1966-1970-ci illərdə bütünlüklə sənaye üzrə müəyyən edilmiş vəzifələr yerinə yetirilməmişdi.

Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayında MK-nın birinci katibi Heydər Əliyevin hesabat məruzəsində respublikada kənd təsərrüfatındakı geriliyin səbəbləri açıqlandı.

Respublikada geridə qalan təsərrüfat sahələrinin inkişaf etdirilməsinin düzgün elmi yolları müəyyən edilir. Heydər Əliyev elmin nailiyyətlərinin və kənd təsərrüfatında struktur dəyişiklikləri edilməsi, yeni ehtiyat mənbələrinin meydana çıxarılması və istifadə edilməsi yolu ilə kənd təsərrüfatında geriliyə son qoyulmasına, onun inkişaf etdirilməsinə nail olur. O, kənd təsərrüfatı məhsulları istehsalında böyük imkanlara malik olan pambıqçılığın geridə qalmasından ciddi narahat olur, bu sahənin inkişaf etdirilməsi üçün əməli tədbirlər həyata keçirir.

Vəziyyəti elmi əsaslarla aydınlaşdırdıqda məlum olmuşdu ki, bəzi rayonlarda pambıqçılıq səmərəli olmadığı üçün orada pambıq əkilməsi məqsədəuyğun deyil, bəzi rayonlarda isə pambıqçılıq səmərəli olmasına baxmayaraq, torpaqlardan lazımınca istifadə edilmir, torpaqların hamısı əkilmir.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Azərbaycanın ayrı-ayrı bölgələrində kənd təsərrüfatı məhsulları becərilməsinə xüsusi əhəmiyyət verirdi. Məsələn, Lənkəran zonasında ən tez yetişən, ən faraş tərəvəz məhsulları yetişdirilməsi nəticəsində, bu cənub bölgəsi "Ümumittifaq bostanı" adını almışdı. Bu, zonanın inkişafında, əhalinin maddi-məişət şəraitinin yaxşılaşdırılmasında mühüm rol oynayırdı.

1970-ci ilin oktyabr ayında Azərbaycan SSR-nin və Azərbaycan Kommunist Partiyasının 50 illiyi münasibətilə təntənəli iclasında iştirak etmək üçün SSRİ rəhbəri L.İ.Brejnev Bakıya gəlmiş, Bakıda Azərbaycanda başlanan geniş miqyaslı işlərlə ətraflı tanış olmuşdu.

Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev 1970-ci il oktyabrın 2-də Bakıda Azərbaycan SSR və Azərbaycan Kommunist Partiyasının 50 illiyi münasibətilə keçirilən təntənəli iclasda çıxışında 1969-1970-ci illərdə görülən işlərə yüksək qiymət vermişdi.

Heydər Əliyevin respublikada apardığı genişmiqyaslı quruculuq işləri qısa müddətdə özünə böyük inam yaratdı. Mərkəzin diqqətini Azərbaycana yönəltdi.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev kənd təsərrüfatında yaranmış vəziyyəti dərindən araşdırıb nöqsanları aradan qaldırılmasının, planların həyata keçirilməsinin təxirəsalınmaz bir məsələ olduğunu önə çəkərək, Sov.İKP Mərkəzi Komitəsinə müraciət etdi. Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev Heydər Əliyevin təkliflərinə əsasən Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti 1970-ci il iyulun 23-də "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək üzrə tədbirlər haqqında" qərar qəbul etdi. Bu

qərarda nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi və bununla yanaşı, Heydər Əliyevin kənd təsərrüfatının inkişafına daimi qayğısı nəticəsində, artıq 1975-ci ildə Azərbaycan kənd təsərrüfatı sahəsində ciddi yüksəliş baş verdi.

1975-ci ildə kənd təsərrüfatının ümumi məcmu məhsulu 1 milyard 572 milyon manat təşkil edirdi. 1969-cu ildə isə bu rəqəm 999 milyon manat təşkil etmişdi. Deməli, 1969-cu ilə nisbətən artım 57 faiz olmuşdu.

Bu dövrə kimi toplanmış təcrübəni ümumiləşdirərək və qarşıdakı dövrdə kənd təsərrüfatını inkişaf etdirmək imkanlarını təhlil edərək Heydər Əliyev yenidən Azərbaycan KP Mərkəzi Komitəsi adından respublikanın kənd təsərrüfatını daha da inkişaf etdirmək haqqında Sov.İKP Mərkəzi Komitəsinə müraciət edir. 1975-ci il iyulun 9-da Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında" qərar qəbul edir.

1976-cı il iyulun 27-də Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "1976-1980-ci illərdə respublikanın ayrı- ayrı sənaye sahələrinin inkişafına dair Azərbaycan Kommunist Partiyası MK-nın təklifinə baxılmasının yekunları haqqında", 1979-cu il fevralın 22-də Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da ixtisaslaşdırılması və üzümçülüyün və şərabçılığın inkişafı haqqında" qərarı qəbul edilmişdi. Bu qərarların 1970-1980-ci illərdə respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyəti oldu.

Heydər Əliyevin məqsədyönlü təşkilatçılığı və rəhbərliyi sayəsində Azərbaycanda sosial-iqtisadi və ictimai- siyasi sahədə, dinamik sıçrayışlı inkişaf sürəti meydana gəldi və bu sürət plan tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsini təmin etdi. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafı başlandı.

Eyni zamanda əkinçilikdə yeni məhsuldar və perspektivli sortlardan istifadə edilməyə başlandı. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 9 iyun 1975-ci il tarixli "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi üzrə tədbirlər haqqında" qərarı əsasında 29 aprel 1976-cı ildə Azərbaycan KP Mərkəzi Komitəsi və respublika Nazirlər Soveti 1976-1980-ci illərdə respublikada dövlət və təsərrüfatlararası heyvandarlıq kompleksləri və quşçuluq fabriklərinin tikilməsi haqqında xüsusi qərar qəbul etmişdi. Qərarda cari onuncu beşillikdə 38 südçülük kompleksi, buzov yetişdirmək üçün təsərrüfatlararası 19 kompleks, iribuynuzlu heyvanların yemləndirilməsi üçün 53 təsərrüfatlararası açıq meydan, 20 qoyunçuluq kompleksi və 21 quşçuluq fabriki tikilməsi nəzərdə tutulurdu.

Qərarın yerinə yetirilməsi nəticəsində 10-cu beşilliyin iki ilində 5 südçülük kompleksi, 9 min buzov yetişdirmək üçün təsərrüfatlararası 3 kompleks, 26 min iribuynuzlu heyvanın yemlənməsi üçün 13 təsərrüfatlararası meydan, 2 qoyunçuluq kompleksi, 6 quşçuluq fabriki tikilmişdi. Bütün bunlar 1976-1980-ci illərdə heyvandarlığın inkişafını təmin edən əsas bazanın yaradılması idi ki, bu, ölkədə heyvandarlıq məhsullarının artırılmasını təmin etdi. Heyvandarlıq komplekslərinin tikintisi şəxsən Heydər Əliyevin diqqət mərkəzində idi. Məhz onun rəhbərliyi ilə 1976-1977-ci illərdə Mərkəzi Komitənin bürosunda bu məsələyə dəfələrlə baxılmışdı. 1978-ci il yanvarın 28-də MK-nın bürosu iki ildə heyvandarlıq sahəsində görülən işlərin yekununu müzakirə etdi və heyvandarlıq kompleksləri və quş fabrikləri tikintisinin yaxşılaşdırılması üçün vəzifələri müəyyən etdi.

1978-ci il fevralın 2-də Azərbaycan KP MK-nın plenumunda MK-nın birinci katibi Heydər Əliyev "Təsərrüfatlararası kooperasiya və aqrosənaye inteqrasiyası bazasında kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması və konsentrasiyasının daha da inkişaf etdirilməsində partiya təşkilatının vəzifələri haqqında" məruzə etdi. Məruzə əsasında qəbul edilən qərarda və müəyyən edilən tədbirlərdə bu sahədə konkret proqram müəyyən edilir və həmin vaxtda praktik olaraq həyata keçirilirdi.

Azərbaycanda ət, süd və başqa heyvandarlıq məhsullarının artırılması qarşıda duran ən mühüm vəzifələrdən idi. Bu məqsədlə 1979-cu ildə Azərbaycan KP MK-nın bürosunda, nazirliklərin, idarələrin kollegiyalarında, partiya komitələrinin büro və plenumlarında, fəallar yığıncaqlarında, kolxoz və sovxoz əməkçilərinin yığıncaqlarında heyvandarlığın və heyvandarlıq məhsullarının daha da inkişaf etdirilməsi müzakirə edilmişdi. Tədbirlər planları hazırlanmış və təsdiq edilmişdi. 1979-cu il martın 23-də Respublika partiya-təsərrüfat fəalları yığıncağında Azərbaycanda 1979-1980-ci illərdə ət istehsalı və tədarükünün artırılması müzakirə edilmiş və hazırlanmış tədbirlər planı bəyənilmişdi. Ümumi planlarla yanaşı, əhalinin yardımçı təsərrüfatlarının inkişaf etdirilməsinə diqqətin artırılması lazım bilinirdi.

Azərbaycanda həyatın bütün sahələrində baş verən müsbət dəyişikliklər yeni, daha yüksək inkişaf üçün geniş perspektivlər açırdı. Bakı metropoliteninin yeni stansiyası – "Ulduz" işə düşdü. 30 ayda görüləsi iş cəmi 4 ayda yerinə yetirilərək Kürün suyu Bakıya axıdıldı. Neft sənayesi sahəsində "Bahar" adlı təzə neft yatağı açıldı. Azərbaycan neftçiləri tərəfindən 1971-ci il martın 28-də Azərbaycanın bütün neftçıxarma tarixi dövründə milyardıncı ton "qara qızıl" çıxarıldı. Bakıda təntənəli yığıncaq keçirildi.

Azərbaycan Respublikasının doqquzuncu beşillikdə inkişaf planı Heydər Əliyevin ideyaları, fikirləri, proqnozları əsasında tərtib edilmişdi. Bilavasitə Heydər Əliyevin uzaqgörənliyini əks etdirən bu beşillik planın

əsas istiqamətləri aşağıdakı vəzifələrdə öz əksini tapmışdı. Doqquzuncu beşillikdə 100-dən çox yeni müəssisə və işləyən sənaye müəssisələrində 60 istehsalat sahəsinin istifadəyə verilməsi müəyyən edilmişdi.

1971-1975-ci illərdə maşınqayırma, kimya və yeyinti məhsulları sənayesi və tikinti materialları istehsalının yüksək sürətlə inkişaf etdirilməsi qarşıya qoyulurdu. Bu sahələrin inkişaf dinamikası aşağıdakı şəkildə müəyyən edilirdi: maşınqayırma iqtisadiyyatın inkişafında mühüm rol oynamalı idi. Kimya sənayesinin inkişafı, hər şeydən əvvəl, Sumqayıt Kimya kombinatında, Sintetik Kauçuk zavodunda, Sumqayıt Üzvi Xlor Məhsulları kombinatında, Mingəçevir Texniki-Rezin Məmulatı zavodunda obyektlərin tikintisinin başa çatdırılması və Salyanda Plastik Kütlə Emalı zavodunun istifadəyə verilməsi nəticəsində həyata keçirilməli idi.

Doqquzuncu beşilliyin sonunda 15 milyard kilovat-saat elektrik enerjisi və 13,5 hektokalori istilik enerjisi istehsal edilməsi müəyyən edilmişdi. Beşillikdə 350 min kilovat gücündə Şəmkir SES-in tikilməsi nəzərdə tutulmuşdu ki, bu həm energetika sisteminin gücünü artırmağı, həm də mühüm irriqasiya məsələlərini təmin edirdi.

1971-1975-ci illərdə qara və əlvan metallurgiyanın daha da inkişaf etdirilməsinə mühüm yer verilirdi. Boru stanlarının yenidən qurulması, həm də neft sənayesində istifadə edilən boruların keyfiyyətinin və möhkəmliyinin yaxşılaşdırılması hesabına Azərbaycan Boru-Prokat zavodunun inkişaf etdirilməsi nəzərdə tutulurdu. Əvvəllər istehsal qüvvələrinin yerləşdirilməsi işində kobud səhvlərə yol verilmişdi, belə ki iri obyekt və müəssisələrin çoxu əsasən Bakı, Sumqayıt şəhərlərində tikilmişdi. Bunu nəzərə alaraq doqquzuncu beşillikdə respublikanın kiçik və orta şəhərlərində məhsuldar qüvvələrin yerləşdirilməsi, o cümlədən, sənaye obyektlərinin Naxçıvanda, Xankəndində, Lənkəranda, Ağdamda, Salyanda, Qazaxda, Şəkidə və respublikanın bəzi başqa şəhərlərində də tikilməsi müəyyən edildi. Tərtərçayda, Arpaçayda, Xanbulançayda yaradılacaq dəryaçalar kimi iri su təsərrüfatı obyektlərinin tikintisini, mərkəzi Muğana su çıxarılması, Abşeron suvarma sistemi tikintisinin başa çatdırılması, Kürətrafı zolaqda Zərdab zonası torpaqlarının yenidən qurulması, Viləşçayda dəryaça salınması, Baş Mil kanalının çəkilişi, Qobustan otlaqlarına su çıxarılması, Şirvan düzünün qərb hissəsinin suvarılmasına və meliorasiyasına başlanması və digər işlər planlaşdırılmışdı.

Kənd təsərrüfatının ən geridə qalan sahəsi olan heyvandarlığı inkişaf etdirmək üçün yüksək məhsullu uzunmüddətli yem bazası - otlaqlar yaradılması xüsusi əhəmiyyət kəsb edirdi.

1971-1975-ci illərdə geniş əsaslı tikinti proqramı həyata keçirilməsi nəzərdə tutulmuşdu. 130-dan artıq müəssisə tikilməli idi. Bu proqramlar hamısı yerinə yetirilmişdi.

1971-1975-ci illərdə ali və orta ixtisas təhsilini, ümumtəhsil məktəblərində daha da inkişaf etdirmək və təkmilləşdirmək vəzifələri müəyyən edilmişdi. Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi üçün yeni mənbələr, imkanlar axtarılır, aşkar edilirdi.

Heydər Əliyev Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sənayesinin inkişaf etdirilməsinə xüsusi fikir verirdi. Bu vaxta qədər Xəzər dənizinin 40 metr dərinliyinə qədər sahələrdə, demək olar ki, bütün neft-qaz yataqları kəşf edilmiş və istismar edilirdi. Dərinlik 40 metrdən artıq olan sahələrdə qazma işləri aparmaq üçün imkanlar yox idi, maliyyə və texnika çatışmırdı. Belə vəziyyətlə əlaqədar olaraq neft və qaz hasilatı aşağı düşürdü. Bu vəziyyət Heydər Əliyevi çox narahat edir. O, vəziyyəti dərindən araşdırır və tədbirlər görür. Dənizin 200 metrədək dərinliyində qazma işləri aparılması zərurəti qarşıya çıxırdı. Lakin onun həyata keçirilməsi üçün ciddi iş aparmaq, bu dərinlikdə işləməyə imkan verən qazma qurğuları inşa etmək lazım idi. O vaxt həm Sovet İttifaqında, həm də Azərbaycanda belə qurğuların layihələndirilməsinə, eləcə də, inşa edilməsinə o qədər də fikir verilmirdi. Lakin bu Azərbaycan üçün lazım idi. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev bu təşəbbüsü irəli sürdü, onun həyata keçirilməsinə nail oldu. 12 il ərzində Azərbaycana əvvəlcə dənizin 70 metr dərinliyində, sonra isə 200 metrədək dərinliyində işləyən 12 qurğu gətirildi.

Heydər Əliyevin təşəbbüsü ilə 1970-1980-ci illərdə Azərbaycana "Şelf-2", "Şelf-32", "Şelf-4", "Şelf-5" qazma qurğuları gətirildi. Bu qurğular vasitəsilə "Dədə Qorqud" və "İstiqlal" qurğuları düzəldildi. Qurğuların işini təşkil etmək üçün "Süleyman Vəzirov", "İsrafil Hüseynov" kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran gəmisi, geofiziki kəşfiyyat işləri aparan gəmilər və başqa texniki gəmilər gətirildi. Ümumiyyətlə, o illərdə Xəzərdə 400-dən çox gəmi fəaliyyət göstərirdi. Açılan neft yataqlarında platformalar tikmək üçün Bakıda Dərin Dəniz Özülləri zavodu tikildi. Bu, Sovet İttifaqından alınan vəsait hesabına tikilmişdi.

Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı 1971-1975-ci illərdə yeni vüsət aldı. Heydər Əliyevin məqsədyönlü, böyük təşkilatçılıq və səfərbəredici fəaliyyəti, kadrların seçilib-yerləşdirilməsində tələbkarlığı sayəsində doqquzuncu beşillik plan respublikamızda vaxtından əvvəl yerinə yetirildi. Beş ildə respublikamızda sənaye istehsalı 50 faiz artmışdı. Sənayenin strukturunda keyfiyyət dəyişikliyi baş vermişdi. Yeni sahələr - elektrik maşınqayırma radio sənayesi, yüngül və yeyinti sənayesi üçün maşınqayırma və digər yeni sahələr yaradılmışdı.

Neft-maşınqayırma müəssisələrinin məhsulu doqquzuncu beşillikdə Sovet İttifaqında buraxılan bütün neft- mədən avadanlığının üçdə bir hissəsindən çoxunu təşkil edirdi, o cümlədən, neft çıxarılması üçün texnikanın 70 faizi Azərbaycanın payına düşürdü.

Neft emalı sənayesi beşillik planı vaxtından əvvəl yerinə yetirmişdi. Eyni zamanda neftin ikinci emalı üçün üç nəhəng qurğu istifadəyə verilmişdi, neftin emalı üzrə iri dəzgahlar qurulmuşdu. Neft-kimya sənayesi səkkizinci beşilliyə nisbətən 7 dəfədən çox məhsul vermişdi.

Kənd təsərrüfatının geridə qalması aradan qaldırıldı. 1975-ci ildə ümumi kənd təsərrüfatı məhsulu 1969-cu ilə nisbətən 57 faiz artmış oldu. Pambıqçılıq yüksək gəlirli sahə oldu. Üzümçülük perspektivli və rentabelli sahəyə çevrilməyə başladı. Bu beşillikdə 80 min hektar yeni üzümlüklər salındı.

Xalq təsərrüfatının intensiv inkişafında kənd təsərrüfat istehsalı mühüm rol oynayırdı. Artıq 1974-cü ildə kənd təsərrüfatı məhsullarının ümumi məhsulu nəzərdə tutulan səviyyəni ötüb keçmişdi. Respublikamızda kənd təsərrüfatı istehsalının artım sürəti beşillikdə nəzərdə tutulan 30 faiz əvəzinə, 34 faiz artmışdı.

1971-1975-ci illərdə 55 yeni iri sənaye müəssisəsi və işləyən müəssisələrdə 32 yeni sex və istehsal sahəsi işə salınmışdı.

1975-ci il dekabrın 25-də Bakı Məişət Kondisionerləri zavodu işə salındı. Bu nəhəng sənaye kompleksi idi. Bu zavodun Bakıda tikilməsi şəxsən Heydər Əliyevin xidməti idi. Onun sayəsində zavodun layihəsi SSRİ-nin başqa regionundan götürülüb Bakıya gətirildi və qısa müddətdə - iki ilə tikilib istifadəyə verildi. Bu Sovet İttifaqında bu tipli dördüncü sənaye kompleksi hesab olunurdu.

Onuncu beşillikdə əvvəlki illərdəki müvəffəqiyyətlərə əsaslanaraq iqtisadiyyatın illik yüksək inkişaf sürəti təmin edilmişdi. Onuncu beşilliyin dörd ilində milli gəlir planda nəzərdə tutulmuş 22 faiz əvəzinə, 32,5 faiz artmışdı.

Sənaye istehsalı hər il orta hesabla 8,1 faiz artmışdı. Ümumi sənaye məhsulu üzrə beşillik plan vaxtından 9 ay əvvəl yerinə yetirilmişdi. 1980-ci ilin sonuna kimi tapşırıqdan əlavə, 1,5 milyard manatlıq məhsul istehsal edilməli idi. Sənaye istehsalının artım sürəti beşillik planda nəzərdə tutulan 39 faizə qarşı 47 faiz təşkil edirdi.

Azərbaycanın rəhbəri Heydər Əliyev bu inkişaf sürətinin səbəbini iqtisadiyyatın inkişafında intensiv amillərin gücləndirilməsində görürdü. O, iqtisadi göstəricilərin təhlili nəticəsini nəzərdən keçirərək qeyd edirdi ki, "Müəssisələrdə istehsalın təşkili və texnologiyasının yaxşılaşdırılması, onun avtomatlaşdırılması və

mexanikləşdirilməsi sahəsində aparılan böyük işlərin nəticəsində sənayedə dörd il ərzində əmək məhsuldarlığı 21,5 faiz artmışdı, beş il ərzində isə artım 28 faiz təşkil edirdi ki, bu da nəzərdə tutulan plandan yüksək idi".

Sənayedə çalışan fəhlə və mühəndis-texniki işçilərin yüksək əmək fəallığı beşillik planın vaxtından əvvəl yerinə yetirilməsini təmin edən əsas amillərdən biri idi. Hesablamalara görə 400-dən çox sex, briqada və sahə, 15 minədək qabaqcıl 2 il yarım - 3 ildə onuncu beşillik planı yerinə yetirmişdi.

Aqrar siyasətin həyata keçirilməsində kənd təsərrüfatında da böyük müvəffəqiyyətlər qazanılmışdı. Belə ki, hələ 1978-ci ildə ümumi məhsul istehsalı 1980-ci ilə nəzərdə tutulan səviyyəni ötmüşdü. Kənd təsərrüfatı məhsullarının artım səviyyəsinin müqayisəsi göstərir ki, onuncu beşilliyin dörd ilində bütün doqquzuncu beşillikdə istehsal ediləndən 10 faiz artıq, bütün səkkizinci beşillikdə istehsal ediləndən isə 50 faiz artıq məhsul istehsal edilmişdi. Beşillik plan taxıl, tərəvəz, meyvə məhsulları üzrə dörd ildə yerinə yetirilmişdi. Pambıqçılıq ardıcıl inkişaf edirdi. Heyvandarlığın inkişaf etdirilməsi nəticəsində bütün növlər üzrə heyvanların sayı artmışdı.

Doqquzuncu beşilliyin yekunlarına görə, respublikanın 12 min nəfəri orden və medallarla təltif edilmişdi. 16 nəfərə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi. 1971 -1975-ci illərdə respublikamızda 198 elmlər doktoru və 1781 elmlər namizədi hazırlanmışdı. Elmi-tədqiqat institutları, ali məktəblər, elm və tədris müəssisələri yüksəkixtisaslı kadrlarla təmin edilmişdi. Respublikada yeni ali məktəblər - Xarici Dillər İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvan Pedaqoji İnstitutu açılmış, Dağlıq Qarabağda Pedaqoji İnstitut yaradılmışdı.

Şəxsən Heydər Əliyevin təşəbbüsü ilə SSRİ-nin Moskva, Leninqrad, Kiyev və başqa ali məktəblərində oxumağa göndərilən tələbələrin sayı hər il artmışdı. Bu faktı qeyd etmək kifayətdir ki, təkcə 1978-ci ildə Sovetlər İttifaqının 151 ali məktəbində Azərbaycandan üç mindən çox tələbə oxuyurdu. Doqquzuncu beşillikdə Azərbaycanın ali məktəblərində 80 min nəfərdən çox ali təhsilli, 95 mindən çox orta ixtisas təhsilli mütəxəssis hazırlanmışdı.

1969-1982-ci illərdə respublikamızın sənayesi nəinki keçmiş ittifaqın bütün respublikalarına, hətta bir sıra inkişaf etmiş xarici ölkələrə nisbətən də daha yüksək sürətlə inkişaf edirdi. Sənayenin orta illik artımı 7,9 %-ə yüksəlmişdi. Təkcə 1982-ci ilin iki günü ərzində bütünlükdə 1920-ci ildə buraxılan məhsulun həcmi qədər məhsul buraxılırdı. Sənaye müəssisələrinin, yaşayış binalarının, mədəni-məişət obyektlərinin tikilib istifadəyə verilməsi sosial-iqtisadi tərəqqinin yüksək mərhələsinə çatmışdı. 1970-1985-ci illərdə Azərbaycanda 213 yeni

iri sənaye müəssisəsi istismara verilmişdi. Elektron maşınqayırması, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıqlar və digər mütərəqqi sənaye sahələri həmin dövrdə yaranmışdı.

Əgər XIX əsrdən 1969-cu ilədək (yəni təxminən 100 il ərzində) Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə (yəni cəmi 14 ildə) onların sayı 1048-ə çatdırılmışdı.

Respublikamızın əsas istehsal sahəsi olan neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesi inkişaf etdikcə respublikamız keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrilirdi. 1982-ci ildə kimya və neft-kimya sənayesinin, maşınqayırma və metal emalının, yüngül və yeyinti məhsulları sənayesinin xüsusi çəkisi sənayenin strukturunda 1913-cü ildəki 14,8 faizə qarşı 75,6 faiz təşkil edirdi.

Nəqliyyat kompleksində, dəmir yolunda, gəmilərin yüklənmə-yükboşaltma işlərində hərəkətlər sürətlənmiş, sərnişin nəqliyyatının işində intensivlik artmışdı. Diqqət mərkəzində olan məsələlərdən biri də yeni yolların tikintisi idi. 1969-1982-ci illərdə tikilib istifadəyə verilən asfalt yolların uzunluğu 20,4 min kilometrə çatırdı, halbuki 1969-cu ilədək həmin rəqəm 12,7 min kilometr təşkil edirdi.

Bütün əsrlər boyu qədim əkinçilik diyarı kimi tanınmış Azərbaycan Heydər Əliyevin rəhbərliyi dövründə nəhəng aqrar-sənaye respublikalarından birinə çevrilmişdi, meliorasiya və irriqasiya sahəsində mühüm tədbirlər həyata keçirilir, aqrotexniki qaydalar sürətlə təkmilləşir, taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa kənd təsərrüfatı məhsullarının artımı ildən-ilə nəzərə çarpacaq dərəcədə yüksəlirdi. Heydər Əliyevin təşəbbüsü ilə 70-80-ci illərdə ucqar rayon mərkəzlərində, müxtəlif bölgələrdə respublika əhəmiyyətli obyektlər tikilir, iş yerləri açılırdı. Bunun nəticəsində respublikada ən kəskin problemlərdən biri olan əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi təmin edilirdi.

1970-1985-ci illərdə Azərbaycanın paytaxtı Bakı şəhərinin inkişaf etdirilməsi və abadlaşdırılması nəticəsində onun görkəmi dəyişmişdi. Yeni binalar, mədəniyyət obyektləri tikilmiş, 14 ildə yaşayış evlərinin tikintisi geniş həcmdə həyata keçirilmişdi. Bu illərdə tikilən yaşayış binalar bütün Bakı şəhərinin yaşayış fonduna bərabər tutula bilərdi.

Respublika rəhbərinin xüsusi diqqət yetirdiyi məsələlərdən biri də əhalinin mənzil şəraitinin yaxşılaşdırılması idi. 14 ildə respublika əhalisinə 376,1 min yeni tikilmiş mənzil verilmişdi. Bu Azərbaycanın hər üç sakinindən birinin məhz həmin dövrdə təzə mənzillə təmin edilməsinə imkan yaratmışdı.

O vaxtın ən kəskin problemlərindən biri də əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, habelə əmək ehtiyatlarından səmərəli istifadə edilməsi məsələsi idi. 1970-ci ildən başlayaraq bu problemin həlli yollarında ardıcıl olaraq görülən işlər, atılan addımlar öz səmərəsini vermişdi, orta və kiçik şəhərlərdə, kənd yerlərində əlavə iş yerləri açılması hesabına fəhlə, qulluqçu və kolxozçuların orta illik sayı 813 min nəfər, yaxud 1,5 dəfə artaraq 1985-ci ildə 2 milyon 360 min nəfərə çatmışdı.

Azərbaycan sənayesinin inkişafında elmi-texniki tərəqqinin nailiyyətləri geniş tətbiq olunaraq 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı. 1050 adda mühüm sənaye məhsulunun 2519 mexanikləşdirilmiş axın xətti, 73 elmi-istehsalat və istehsalat birlikləri yaradılmışdı ki, bunların da tərkibində 264 iri müəssisə vardı.

Prezident Heydər Əliyev göstərir ki, Azərbaycan 1970-1985-ci illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı və digər məhsulların istehsalı üzrə Sovetlər İttifaqında aparıcı yerlərdən birini tuturdu. Ölkəmizdə buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Azərbaycan təbiətinin, ekologiyasının qorunması mühüm vəzifələrdən biri kimi qarşıda dururdu. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan KP MK-sı və Nazirlər Soveti 1974-cü il aprel-avqust aylarında, 1975-ci ilin oktyabrında bir neçə dəfə təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələlərinə baxmış, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Təbiətin mühafizəsinin möhkəmləndirilməsi və təbii ehtiyatlardan istifadə etməyin yaxşılaşdırılması haqqında" 29 dekabr 1972-ci il tarixli qərarına əsasən, respublika nazirlikləri və müəssisələri, İttifaq tabeliyində olan müəssisələr qarşısında duran vəzifələri müəyyən etmişdi.

Heydər Əliyevin Sov.İKP Mərkəzi Komitəsinə 1976-cı il 7 yanvar tarixli hesabatında göstərilirdi ki, 1974-cü ildən başlayaraq Dövlət Plan Komitəsi, nazirliklər və təşkilatlar, İttifaq tabeliyində olan müəssisələr illik planlarında "Təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi" bölməsi ayırmışdılar. Bu məqsədlə respublikada 1971-1975-ci illərdə 62,7 milyon manat xərclənmişdi. O cümlədən suların mühafizəsi tədbirlərinə 51 milyon manat, hava hövzəsinin mühafizəsinə 4,7 milyon manat, torpaq ehtiyatlarının mühafizəsi və səmərəli istifadə edilməsinə 7 milyon manat sərf edilmişdi.

Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin böyük xidmətlərindən biri də ondan ibarət idi ki, o, sovet hakimiyyəti dövründə mövcud olan neqativ halların, xüsusilə, rüşvətxorluğun aşkar edilməsində və ona qarşı mübarizə aparılmasında cəsarətli hərəkət etmişdi. O dövrdə belə bir fikir yayılmışdı ki, guya SSRİ-də rüşvətxorluq yoxdur. Yerlərdən mərkəzə rüşvətxorluq olmaması haqqında yalan məlumatlar verilirdi. Partiya rəhbəri Heydər Əliyev mərkəzə verilən məlumatların saxta olduğunu açıqlayır, rüşvətxorluğa qarşı ciddi mübarizə aparırdı.

Azərbaycan rəhbərinin rüşvətxorluğa qarşı mübarizəsi haqqında xarici mətbuatdan məlumat alan Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev xüsusi olaraq bu məsələ barəsində Heydər Əliyevlə söhbət edir. Heydər Əliyev onu inandırır ki, belə hallar var. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin genişmiqyaslı prinsipial və işgüzar fəaliyyəti Sovetlər İttifaqına yayılır. L.İ.Brejnevi və ümumiyyətlə, Moskva rəhbərliyini maraqlandırır.

1970-1971-ci illərdə Lənkəran və Balakən rayonlarında partiya, sovet və təsərrüfat orqanlarının işində böyük çatışmazlıqlar, kobud qanun pozuntuları, kadrların seçilməsi və tərbiyəsi işində çatışmazlıqlar aşkar edilmişdi. Son beş ildə meydana çıxmış cinayət işlərinin dərindən istintaq edilməsi nəticəsində Lənkəran rayonunda 1198 nəfər cinayət məsuliyyətinə cəlb edilmiş və müxtəlif səviyyələrdə məhkum edilmişdi. Balakən rayonunda ifşa edilmiş cinayətkarlar içərisində rayon partiya komitəsinin birinci katibi, rayon icraiyyə komitəsinin sədri, kənd təsərrüfatı idarəsinin rəisi və başqa məsul işçilər də var idi.

Azərbaycan KP Mərkəzi Komitəsinin 1975-ci il aprelin 24-də təsdiq etdiyi "Cinayətkarlığa, ümumi mülkiyyətin dağıdılması və oğurlanmasına qarşı tədbirlər planı" inzibati orqanlar, rayon partiya-sovet təşkilatları və rəhbər vəzifəli şəxslər üçün proqram sənədi oldu.

Bununla yanaşı, o illərdə elm, təhsil, maarif, ictimai-mədəni sahələrdə də keyfiyyətli dəyişikliklər baş vermişdi. 1970-1980-ci illərin əvvəllərində ali təhsil sahəsində yaranan fundamental maddi-texniki baza, mütərəqqi ənənələr müasir ali təhsilimizin möhkəm bünövrəsini təşkil edir. 1970-ci ildə ali təhsilli ixtisaslı kadrların sayı respublikada iki dəfə artmışdı. O dövrdə yüksəkixtisaslı kadrların böyük bir hissəsini ali təhsilli kadrlar təşkil edirdilər. Məsələn, 1978-ci ildə onlar ümumi sayın 46 faizini təşkil edirdilər (104 min nəfər).

Araşdırma zamanı qadınların hüquqlarının qorunması və sosial-iqtisadi həyatda fəal iştirakı məsələsi də təhlil olunmuşdu. Həmin dövrdə hər il yüzlərlə azərbaycanlı gənc qız təhsil almaq üçün keçmiş İttifaqın qabaqcıl ali məktəblərinə göndərilirdi.

1969-1982-ci illərdə 15 mindən çox azərbaycanlı tələbə SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilmişdi. Bütün bunlar respublika rəhbərinin Azərbaycan gəncliyinə göstərdiyi böyük qayğının təzahürü idi. Onu da qeyd etməliyik ki, müasir dövrdə, müstəqillik şəraitində Azərbaycanın yüksəkixtisaslı mütəxəssislər sarıdan çətinlik çəkməməsi məhz 1969-1982-ci illərdə təhsil, elm sahəsində aparılan səmərəli fəaliyyətin nəticəsidir. Bunlar Azərbaycanın gələcək inkişafı üçün güclü kadr potensialının formalaşmasına böyük təsir göstərmişdir.

Etiraf etməliyik ki, 1970-1985-ci illər Azərbaycanın quruculuq tarixinin ən məhsuldar, işıqlı səhifələri olmuşdur. Həmin vaxtda yaxın və uzaq gələcəyə yönələn, müstəqilliyə yol açan, mütərəqqi ənənələrə söykənən inkişaf strategiyası müəyyənləşdirilmiş və uğurla həyata keçirilmişdir.

Bu məsələdən söz açan Heydər Əliyev göstərirdi ki, "Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır.

Heydər Əliyevin müdrik siyasəti nəticəsində 14 il ərzində respublikada yaranmış güclü sosial, iqtisadi və intellektual potensial Azərbaycanın müstəqilliyi üçün mühüm zəmin yaratmışdı. Qətiyyətlə deyə bilərik ki, müstəqilliyə gələn yolumuzu işıqlandıran, hələ o zaman gələcəyə baxan, həyatın sərt, çətin sınaqlarına sinə gərən, ən çətin şəraitdən ən düzgün çıxış yolu tapan, daim xalqı ilə yaşayan, qəlbində Vətən sevgisi, milli ruh gəzdirən qüdrətli və bütöv şəxsiyyət Heydər Əliyev olmuşdur!

Heydər Əliyev bütün fəaliyyəti dövründə həmişə Azərbaycan xalqının dilinin, mənliyinin, milli şüurunun, milli mentalitetinin qorunması və inkişaf etdirilməsi keşiyində durmuş və bu sahədə çalışanların əməyinə yüksək qiymət vermişdi.

1977-ci il oktyabrın 7-də SSRİ-nin yeni Konstitusiyası qəbul edilir. Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya Komissiyası Azərbaycan SSR-in yeni konstitusiya layihəsini hazırlayır. Ümumxalq müzakirəsinə verir. Ümumxalq müzakirəsindən sonra 1978-ci il aprelin 21-də Azərbaycan SSR Ali Sovetinin doqquzuncu çağırış, növbədənkənar VII sessiyasında Heydər Əliyev "Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında" məruzə edir. Qeyd etmək lazımdır ki, bu konstitusiya SSRİ-nin yeni Konstitusiyası əsasında hazırlansa da, orada respublikanın milli, iqtisadi, siyasi və tarixi xüsusiyyətləri də öz əksini tapmışdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü və mübarizəsi nəticəsində Azərbaycan dilinin dövlət dili olması haqqında müddəa Azərbaycanın 1978-ci il Konstitusiyasında öz əksini tapdı. Konstitusiyanın 73-cü maddəsində "Azərbaycanın dövlət dili Azərbaycan

dilidir" deyə təsbit edildi. Heydər Əliyev 1995-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında demişdi: "Ancaq bu maddə (73-cü maddə) Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu da öz konstitusiyamıza yazmalıyıq və yazacağıq".

Heydər Əliyevin rəhbərliyi ilə respublika xalq təsərrüfatının bütün sahələrində həyata keçirilən təşkilatçılıq, siyasi və mənəvi tərbiyə, mədəni quruculuq təcrübəsi artıq SSRİ-də nümunə kimi diqqəti cəlb edirdi. 1979-cu il aprelin 25-27-də Bakıda mənəvi tərbiyəyə dair keçirilən Ümumittifaq konfransında Heydər Əliyev "Fəal həyat mövqeyinin formalaşması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri" haqqında məruzə etdi.

Bu məruzə mənəvi tərbiyə problemlərinə dair mühüm bir yenilik oldu. Məruzədə ideoloji sahədə ölkədə toplanan təcrübə ümumiləşdirilir və adamların əxlaq tərbiyəsinin daha da möhkəmləndirilməsi, şəxsiyyətin fəal həyat mövqeyinin formalaşması sahəsində elmi əsaslandırılmış tövsiyələr, məsləhətlər verilirdi. Məruzə konfrans iştirakçıları və ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildi. Bakı konfransı ideya-siyasi və əxlaq tərbiyəsi sahəsində Azərbaycanda mühüm məktəb yarandığını göstərdi.

Mənəvi tərbiyənin aktual problemləri və təcrübəsi üzrə Ümumittifaq konfransının Bakıda keçirilməsi Heydər Əliyevə böyük etimad və yüksək inamın ifadəsi idi. Bu fakt respublikamızda həyata keçirilən geniş miqyaslı quruculuq və tərbiyə işləri təcrübəsinin SSRİ miqyasında etiraf edilməsi və öyrənilməsi əhəmiyyəti daşıdığını göstərirdi.

1977-ci il mayın 28-də Bakıda beynəlxalq konfrans keçirilir. Konfransda 70 ölkənin nümayəndəsi iştirak edirdi. Bu konfrans bütün beynəlxalq birlik üçün böyük siyasi əhəmiyyəti olan hadisə idi. Konfransda "Böyük Oktyabr Sosialist İnqilabı və Asiya, Afrika, Latın Amerikası xalqlarının milli-azadlıq hərəkatı" mövzusunda əsas məruzə ilə Heydər Əliyev çıxış etdi. Heydər Əliyevin məruzəsində Asiya, Afrika və Latın Amerikası ölkələrində o dövrdə inqilabi prosesləri öyrənmək üçün bir sıra yeni nəzəri və elmi müddəalar irəli sürülürdü.

Respublikada görkəmli şəxslərin, elm, təhsil və mədəniyyət ocaqlarının yubileylərinin keçirilməsi böyük tarixi hadisəyə çevrilmişdi. Şəxsən Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Nəriman Nərimanovun anadan olmasının 100 illiyi, İmadəddin Nəsiminin 600 illiyi, Azərbaycan Dram Teatrının 100 illiyi, Azərbaycan Dövlət Rus Dram Teatrının 50 illiyi, "Azərbaycan qadını" jurnalının 50 illiyi, Üzeyir

Hacıbəyovun, Müslüm Maqomayevin, Səməd Vurğunun, Cəfər Cabbarlının, Məmməd Səid Ordubadinin, Aşıq Ələsgərin və bir çox mədəniyyət və incəsənət xadimlərinin yubileyləri keçirilmişdir.

1975-ci ildə böyük bəstəkar Üzeyir Hacıbəyovun yubileyi münasibətilə onun ev-muzeyi yaradılmışdı. 1976-cı ildə Səməd Vurğunun 70 illik yubileyinə hazırlaşarkən bir neçə ayda onun ev-muzeyi təşkil edildi. Cəfər Cabbarlının 80 illik yubileyi ərəfəsində onun həm ev-muzeyi yaradılmış, həm də Bakıda möhtəşəm heykəli qoyulmuşdu. Bu illərdə həmçinin İmadəddin Nəsimiyə abidə qoyulmuşdu. Bülbülün ev-muzeyi təşkil edilmişdi. 70-ci illərdə Cəlil Məmmədquluzadənin ev-muzeyini yaratmaq haqqında Heydər Əliyevin rəhbərliyi ilə qərar qəbul edilmişdi. Bu məqsədlə onun yaşadığı evdəki vətəndaşlara hələ 1981-1982-ci illərdə başqa yerlərdə mənzillər də verilmişdi. Lakin Heydər Əliyev Moskvaya işə gedəndən sonra o qərar yerinə yetirilməmişdi. Yalnız ikinci dəfə Azərbaycana rəhbər vəzifəyə qayıdandan sonra 1994-cü ildə Cəlil Məmmədquluzadənin ev-muzeyi sözün həqiqi mənasında yaradıldı.

Azərbaycan xalqının görkəmli oğlu Nəriman Nərimanovun tarixdəki roluna dair mövcud olan böhtan və iftiraların ifşa edilməsində böyük cəsarət və mübarizlik göstərdi. Həm Nəriman Nərimanovun özünün vaxtında, həm də ondan sonrakı dövrdə baş qaldırmış böhtan və uydurmaları puça çıxardı. Hətta 70-ci illərdə ermənilər tərəfindən Nəriman Nərimanova qarşı böhtançılıq kompaniyası aparılırdı. Onun yubileyinin keçirilməsinə imkan vermirdilər. Bütün bu müqavimətləri, ciddi təzyiqləri aradan qaldıraraq 1972-ci il iyunun 22-də Nəriman Nərimanovun 100 illiyi təntənəli yığıncaq şəklində Bakıda keçirildi. Nəriman Nərimanovun həyat və fəaliyyəti haqqında Heydər Əliyev məruzə etdi. Heydər Əliyev özünün məruzəsində onun Azərbaycan tarixində xidmətlərini, XX əsr ictimai fikir tarixinin görkəmli nümayəndəsi kimi rolu və mövqeyini elmi şəkildə əsaslandırdı, böhtan və iftiraları bir daha puça çıxardı. Bakının görkəmli yerində Nəriman Nərimanovun əzəmətli abidəsi ucaldıldı. Abidənin açılışı münasibətilə mitinqdə Heydər Əliyev nitq söylədi. O deyirdi: "Nəriman Nərimanov maarifçi- demokratdan mətin bolşevik kimi çətin və keşməkeşli yol keçmişdir.

...Nəriman Nəcəf oğlu Nərimanov siyasi rəhbər və təşkilatçı kimi bütün bacarığını, qəlbinin bütün alovunu xalqın xidmətinə vermişdir".

Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində 1979-cu ildə Ulyanovsk şəhərində də Nəriman Nərimanovun böyük abidəsi ucaldıldı. Heydər Əliyev Ulyanovskda abidənin təntənəli açılışında çıxış etdi. Şəhərin böyük bir prospektinə Nərimanovun adı verildi.

Heydər Əliyev Nəriman Nərimanovun işlədiyi dövrdə ona mane olanların da aşkara çıxarılmasına çalışır, sonrakı dövrlərdə də Azərbaycan rəhbərliyinin fəaliyyətində səhvlər, çəkişmələr olduğunu aşkar edir və bundan nəticə çıxarmağı məsləhət görürdü.

1981-ci ildə Azərbaycan KP Mərkəzi Komitəsi Hüseyn Cavidin anadan olmasının 100 illiyinin keçirilməsi haqqında qərar qəbul etmişdi. Bundan sonra bir çox işlər görüldü. 1982-ci il oktyabrın 26-da onun cənazəsi Sibirdən gətirilib Naxçıvanda dəfn olundu. Bu, o vaxtkı Sovetlər İttifaqında Azərbaycanın rəhbəri Heydər Əliyevin misilsiz cəsarətinin nəticəsi idi. Lakin qərarda nəzərdə tutulan bəzi tədbirlər həyata keçirilməmişdi.

Sov.İKP MK-nın 1976-cı il 5 mart tarixli plenumu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevi Sov.İKP Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvlüyünə namizəd seçdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1977-ci il 24 noyabr tarixli fərmanı ilə inqilabi hərəkatda xidmətlərinə, Azərbaycanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsində xidmətlərinə görə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşist işğalçıları üzərində qələbədə böyük xidmətlərinə görə və zəhmətkeşlərinin təsərrüfat və mədəni quruculuqda qazandığı müvəffəqiyyətlərə görə Azərbaycan SSR-nin paytaxtı Bakı şəhəri Lenin ordeni ilə təltif edilmişdi. Ordenin təqdim edilməsi münasibətilə Sov.İKP Mərkəzi Komitəsinin baş katibi L.İ.Brejnev Bakıya gəlmişdi. O, Azərbaycan KP Bakı şəhər partiya komitəsinin və Bakı şəhər İcraiyyə Komitəsinin təntənəli iclasında Bakı şəhərinə Lenin ordenini təqdim etdi.

Azərbaycan 10 il ərzində SSRİ-də qabaqcıllar sırasında idi. Hər il keçici qırmızı bayraqla təltif edilirdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1979-cu il 24 avqust tarixli fərmanı ilə bütün respublikada xalq təsərrüfatının inkişaf etdirilməsi, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi, bütün kənd təsərrüfat məhsulları planının və sosialist öhdəliklərinin vaxtında və artıqlaması ilə yerinə yetirilməsini təmin etməkdə böyük təşkilatçılığına və siyasi işinə görə Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əlirza oğlu Əliyevə Lenin ordeni və "Oraq və çəkic" qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi.

1970-1982-ci illərdə Azərbaycan böyük inkişaf yolu keçdi. Respublikanın rəhbəri Heydər Əliyev SSRİ-nin görkəmli rəhbərlərindən biri kimi Sovetlər ölkəsində və dünyada tanındı. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi.

Heydər Əliyev hələ 70-80-ci illərdə Azərbaycana rəhbərlik etdiyi vaxtlarda da Azərbaycanın gələcəyi, müstəqilliyi haqqında düşünürdü. Azərbaycanın müstəqil yaşaması üçün, mövcudluğu üçün, böyük imkanlara malik olduğuna tam əmin idi. Qeyd etmək lazımdır ki, o, respublikanın sosial-iqtisadi, milli-mədəni inkişafını yüksək səviyyədə təmin etməklə məhz bunun gələcəkdə əsas təməl olacağını nəzərdə tuturdu. Bu fikrini, ideyasını sonralar daha açıq şəkildə ifadə edirdi. 1996-cı ildəki çıxışlarının birində göstərirdi ki, "Mən keçmişdə də Azərbaycanın gələcəyi, müstəqilliyi haqqında düşünərkən və Sovet İttifaqı dağılan zaman bu barədə öz fikrini qəti bildirərkən Azərbaycanın müstəqil yaşaması üçün tam imkanı olduğu barədə fikirlərini deyərkən, eyni zamanda zəngin yeraltı sərvətlərimizlə, neft-qaz yataqlarımızla və başqa mədənlərimizlə bərabər, böyük sənaye potensialı ilə bərabər, geniş aqrar sektorda, kənd təsərrüfatı sahəsində, ərzaq məhsulları istehsalı sahəsində də Azərbaycanın böyük potensialını həmişə nəzərə alırdım".

1969-1982-ci illərdə Azərbaycanın inkişaf tarixinin dinamikası belə bir fikri təsdiq edir ki, Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, respublikamızın müstəqil dövlət quruculuğuna aparan yol olmuşdur. Heydər Əliyevin böyük əməyinin nəticəsində həyata keçirilən dəyişikliklərin həcminə, ictimai-iqtisadi islahatların səciyyəsinə görə 70-80-ci illər Azərbaycanın tarixində ən parlaq səhifələr təşkil etmişdir. 70-ci illərdən başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, milli özünüdərk duyğularını, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı milli dövlətçilik ideyasının milli-azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsində mühüm zəmin oldu. 80-ci illərin sonu - 90-cı illərin əvvəlində müstəqillik uğrunda mübarizənin yüksəlişi Heydər Əliyevin rəhbərliyinin birinci mərhələsində əldə edilmiş iqtisadi canlanma və milli mübarizlik ruhunun təşəkkülü nəticəsində mümkün oldu.

*Mənbə: İradə Hüseynova. "Müstəqil Azərbaycanın qurucusu". Bakı, 2004, səh. 22-70.*

## SSRİ Nazirlər Soveti sədrinin birinci müavini
## (1982-1987)

1969-1982-ci illərdə Heydər Əliyevin Azərbaycana rəhbərliyi onun SSRİ-də ən görkəmli siyasi xadim, rəhbər və dövlət başçısı olduğunu göstərdi. 1982-ci ilin sonunda Moskvaya partiya və dövlət hakimiyyətinə yüksək vəzifəyə irəli çəkildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 noyabr 1982-ci il tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Bununla onun həyatında və fəaliyyətində yeni dövr başlandı. Bütün SSRİ-nin sosial-iqtisadi və mədəni inkişafına rəhbərlik etmək, Sovet hökumətinin iqtisadi inkişaf strategiyasını istiqamətləndirmək, görkəmli siyasi və dövlət xadimi kimi SSRİ-nin xarici siyasətinin həyata keçirilməsi, xarici dövlətlərlə qarşılıqlı münasibətlər yaradılması uğrunda məsuliyyətli və çətin vəzifələrin yerinə yetirilməsi kimi fəaliyyət dövrü başlandı.

SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin 15 dekabr 1982-ci il tarixli qərarı ilə Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əlirza oğlu Əliyevə:

a) SSRİ Yollar Nazirliyi, Dəniz Donanması Nazirliyi, Yol Tikinti Nazirliyi, Rabitə Nazirliyi, eləcə də, müttəfiq respublikaların avtomobil, çay nəqliyyatı və yol təsərrüfatı məsələlərinə nəzarət;

b) SSRİ Nazirlər Sovetinin Baykal-Amur dəmir yolu tikintisi məsələləri üzrə daimi komissiyasına rəhbərlik həvalə edilir.

SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin 1983-cü il fevralın 2-də keçirilən iclasında isə Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə Ümumittifaq Səhiyyə Nazirliyi, Tibb Sənayesi Nazirliyi, Mədəniyyət Nazirliyi, Maarif Nazirliyi, Ali və Orta İxtisas Təhsili Nazirliyi, Dövlət Texniki-Peşə Təhsili Komitəsi, Dövlət Teleradio Verilişləri Komitəsi, Dövlət Kinematoqrafiya Komitəsi, Dövlət Nəşriyyatı, İdman Komitəsi, SİTA, Dövlət Arxiv və Müəlliflik Hüququ Agentliyi üzrə məsələlərin baxılması tapşırılır.

Heydər Əliyev böyük ərazidə yerləşən Sovetlər İttifaqının nəqliyyat sisteminə, iqtisadiyyatın inkişafında onun həlledici roluna yüksək qiymət verirdi. O, nəqliyyatı bir növ bütün ölkənin qan dövranı - arteriya damarı hesab edirdi. Nəqliyyatın işinə özünün yaratdığı konsepsiya ilə rəhbərlik edirdi. Hesab edirdi ki, nəqliyyata rəhbərliyə iqtisadi, siyasi və psixoloji baxımından yanaşmaq lazımdır.

Heydər Əliyevin idarəetmə konsepsiyasına görə, nəqliyyatın iqtisadi əhəmiyyəti ondan ibarətdir ki, o, istehsalın kooperativləşdirilməsini, müttəfiq respublikaların təsərrüfat əlaqələrinin, ölkələrin və vilayətlərin,

ərazi-istehsalat komplekslərinin səmərəliyini müəyyənləşdirir, onların vahid xalq təsərrüfatında birliyini təmin edir.

**Siyasi cəhətdən** - nəqliyyat insanların vahid ailənin üzvü olmasını hiss etməsinə şərait yaradır, şəhərlə kəndi yaxınlaşdırır, beynəlxalq əmək bölgüsündə iştirak etməyi xeyli asanlaşdırır.

**Psixoloji cəhətdən** - hər bir vətəndaş nəqliyyat xidmətindən gündəlik istifadə edir. Ona görə də nəqliyyat, xüsusilə şəhər nəqliyyatı, onun işinin keyfiyyəti əhalinin böyük kütləsinin psixoloji mühitinə, bütün xalqın əmək əhvali-ruhiyyəsinə ciddi təsir edir.

Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin nəqliyyat məsələlərinə nəzarət etməsi tezliklə özünün müsbət nəticəsini göstərdi, bu sahədə vəziyyət xeyli dəyişdi. Dəmir yolunun inkişafına dair hazırlanan kompleks planların həyata keçirilməsi nəticəsində təşkilatçılıq və təsərrüfatçılıq işi yüksəldi. Nəqliyyat işində canlanma başlandı.

1983-cü ildən başlayaraq nəqliyyat sahəsində irəliləyiş başlayır. Heydər Əliyevin iştirakı ilə kollegiya iclasları keçirilir, görülən işlər yekunlaşdırılır, istehsalın təşkilində və inkişafında yeni istiqamətlər müəyyən edilir.

Heydər Əliyev ən kiçik işlərdən böyük işlərədək olan müraciətlərə belə diqqətlə yanaşır, onların həll edilməsi üçün təcili tədbirlər həyata keçirirdi.

Hələ 1983-cü il yanvarın 13-də Krım vilayətinin Saki şəhərindən müharibə və əmək veteranı P. Okunevin Moskva - Yevpatoriya istiqamətində hərəkət edən qatarın gecikməsi və vaqon-restoranda qeyri-qənaətbəxş xidmət haqqında SSRİ Nazirlər Sovetinə məktubu daxil olmuşdu. Məktubla tanışlıq Heydər Əliyevi ciddi narahat etmiş, o, vəziyyəti dərindən öyrənmişdi. Nöqsanlar həm dəmir yol nəqliyyatına, həm də Ticarət Nazirliyinə aid olduğu üçün Heydər Əliyevin 26 yanvar tarixli göstərişi ilə hər iki nazirlik məktubla məşğul olaraq, artıq martın 1-də onlar nöqsanların aradan qaldırılması haqqında Nazirlər Sovetinə hesabat vermişdilər. Bu operativ münasibətin bütün dəmir yolunda işlərin və xidmətin qaydaya salınmasında ciddi təsiri oldu. SSRİ Yollar Nazirliyinin cavabında göstərilirdi ki, Nazirlər Soveti sədrinin birinci müavininin 26 yanvar tarixli göstərişinə əsasən, nöqsanların aradan qaldırılması üçün ciddi tədbirlər görülmüşdür və bununla əlaqədar olaraq mart ayında dəmiryol nəqliyyatında vəziyyətin yaxşılaşdırılması məsələsinə dair Nazirliyin Kollegiyasının geniş iclasının keçirilməsi nəzərdə tutulmuşdu. Ticarət Nazirliyi isə cavabında Krım

istiqamətində hərəkət edən qatarlarda vaqon-restoranların xidmətini yaxşılaşdırmaq üçün tədbirlər planı hazırladığı və ciddi təşkilati tədbirlər gördüyü haqqında məlumat verirdi.

Bir nəfər müharibə və əmək veteranının müraciəti ilə Heydər Əliyev bütün SSRİ məkanında kollektivləri bu istiqamətdə nöqsanların aradan qaldırılması və işlərin təşkilinin keyfiyyətinin yüksəldilməsinə səfərbər etmişdi.

1983-cü ildə Heydər Əliyevin ünvanına dəmir yolunda geriliyin aradan qaldırılması, qarşıda duran vəzifələrin həyata keçirilməsi haqqında zəhmətkeşlərin müxtəlif təklif və arzularını əks etdirən saysız məktublar daxil olurdu. Bunlarla yanaşı, sərnişin daşınmasının təşkilində ciddi çatışmazlıqlar, sərnişin qatarlarının gecikməsi, həm qatarlarda, həm də vağzallarda sərnişinlərə xidmətin pis təşkili, sərnişinlərə qulluq xidmətinin aşağı səviyyədə olması, baqajların itməsi və i.a. məsələlər barəsində şikayətlər gəlirdi. İkinci Dünya müharibəsinin iştirakçısı K. Ulmaqanbetov Aktübinsk vilayətinin Çelkarsk rayonundan yazırdı ki, rüşvətlə biletsiz sərnişinlər daşınır, az tapılan malların alveri edilir, Daşkənddən Moskvaya gedən qatarlarda özbaşınalığa, sui-istifadələrə yol verilir və i.a.

Bütün məktubları, ərizələri, məlumatları ciddi nəzərdən keçirərək Heydər Əliyev 1983-cü il avqustun 13-də onları baxılmaq üçün SSRİ Yollar Nəqliyyatı naziri Konarevə göndərmişdi. O, nazirə məktubda yazırdı: "Xahiş edirəm zəhmətkeşlərin məktublarında qoyulan məsələlərə baxın və zəruri tədbirlər görün".

1984-cü ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin ünvanına göndərilən məktubların, ərizələrin məzmununun ümumiləşdirilməsindən aydın olur ki, son dövrdə dəmir yolu nəqliyyatında müsbət meyllər nəzərə çarpdığını zəhmətkeşlərin özləri də qeyd edirdilər. Bu xalq təsərrüfatının başqa sahələrinin də müvəffəqiyyətini təmin edir. Bununla yanaşı, məktub müəllifləri istismar işində, əmək və istirahətin təşkilində, lokomotiv briqadalarının əmək haqqının ödənilməsində ciddi səhlənkarlıqlar olduğunu göstərirdilər.

1984-cü il avqustun 2-də Heydər Əliyev SSRİ Yollar Nəqliyyatı nazirinə yazırdı: "Xahiş edirəm zəhmətkeşlərin məktublarında qoyulan məsələlərə ciddi diqqət verin və dəmir yolu nəqliyyatında olan çatışmazlıqların aradan qaldırılması üçün zəruri tədbirlər görün".

1984-cü il yanvarın 17-də SSRİ Yollar Nazirliyi, Dəmiryol Nəqliyyatı və Tikinti-Nəqliyyat Fəhlələri Həmkarlar İttifaqının Mərkəzi Komitəsinin Rəyasət Heyətinin geniş kollegiya iclasında - yanvarın 23-də Tikinti-Nəqliyyat Nazirliyi və Dəmiryol Nəqliyyatı, Tikinti-Nəqliyyat, Avtomobilqayırma və Yol Tikintisi

Fəhlələri Həmkarlar İttifaqının Mərkəzi Komitələri Rəyasət Heyətləri ilə iclasda Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev iştirak edirdi.

Heydər Əliyev 1984-cü il yanvarın 23-də Nəqliyyat Tikintisi Nazirliyinin geniş kollegiya iclasında da geniş nitq söyləmişdi.

1983-cü ildə Nəqliyyat-Tikinti Nazirliyində istehsalın ümumi həcmi 1982-ci ilə nisbətən 1,9 milyon manat artmışdı. Yeni dəmiryol xətləri tikilir, dəmir yollarının elektrikləşdirilməsi həyata keçirilirdi.

Baykal-Amur dəmiryol xəttinin tikintisi və metropolitenin tikintiləri böyük müvəffəqiyyətlə aparılırdı. Nəqliyyat-Tikinti Nazirliyinin 1983-cü ildəki fəaliyyətinin Heydər Əliyevi qane etdiyi bildirilir.

Bunlarla yanaşı, Heydər Əliyev əsas diqqəti qarşıda duran vəzifələrin yerinə yetirilməsi, mövcud çatışmazlıqların aradan qaldırılmasına yönəldir. Nazirliyin qarşısında əsaslı tikintinin keyfiyyətini yüksəltmək, onu özünün təsərrüfat-iqtisadi fəaliyyətinin əsas istiqamətinə çevirməkdən ibarətdir. Heydər Əliyev SSRİ Tikinti Nazirliyinin 23 yanvar 1984-cü il tarixli geniş kollegiya iclasında çıxışında cari ildə həyata keçiriləcək, görüləcək işlərin kəmiyyət və keyfiyyətini ətraflı göstərdi, qarşıda duran vəzifələrin yüksək səviyyədə icra edilməsində kollektivləri proqram sənədi ilə silahlandırdı. Ayrı-ayrı regionlar üzrə planların yerinə yetirilməsində əməyin səmərəli təşkilinin yollarını göstərdi. Məsələn, Sibir, Qazaxıstan, Kuzbas, Volqaboyunda podrat işlərin həcminin keçən ilkinə nisbətən 12-20 faiz artırılması imkanlarını aşkarladı.

Heydər Əliyev diqqəti belə bir məsələyə yönəltdi ki, ümumiyyətlə, podrat işlərin illik artım büreti beşillik plan tapşırıqları üzrə nisbətdə aşağı düşür. Məsələn, əgər doqquzuncu beşillikdə Nəqliyyat-Tikinti Sənayesi üzrə bu 6,8 faiz təşkil edirdisə, onuncu beşillikdə 4 faizə düşmüşdü, 1983-cü ildə isə yalnız 3,3 faiz təşkil edirdi.

Heydər Əliyevin çıxışında Nəqliyyat-Tikinti Nazirliyinin bölmələrinin işi təhlil edildi və ciddi nöqsanlar üzə çıxarıldı. Tikinti-montaj işlərində səviyyənin aşağı düşdüyünü faktlarla sübut edən Heydər Əliyev bu meylin heç nə vermədiyini, onunla razı olmadığını göstərdi və nazirliyin bu məsələyə ciddi diqqət verməsini tələb etdi.

Kollegiyada çıxış edən Qorki dəmiryolunun rəisinin çıxışına münasibətini göstərərək onunla da razılaşmadığını göstərdi. Heydər Əliyev burada da problemlərin mövcud olduğunu meydana çıxardı. Belə ki, o, öz çıxışında vaqon təmiri üçün obyektlərin, elektrikləşmə üzrə işlərin, səyyar zavodların tikintisi, yaşayış və kommunal tikintisinin ciddi geriliklərilə razılaşmadığını açıq şəkildə bildirdi. Belə ki, nazirlik tərəfindən

tikinti-montaj işləri planı cəmi 70 faiz yerinə yetirilmişdi. Dəmir yollarının sənaye müəssisələrilə əlaqəli inkişaf etməməsi də yük daşınmasının ritmik inkişafına mane olurdu.

Heydər Əliyev 1983-cü ildə Nəqliyyat-Tikinti Nazirliyinin və Yollar Nazirliyinin fəaliyyətini yekunlaşdıraraq təəssüflə qeyd etmişdi ki, onlar qarşısında əvvəl qoyulan vəzifələr yerinə yetirilməmişdir.

Bunlar barədə hələ əvvəllər də tapşırıqlar verilməsinə baxmayaraq, Baş nazirin birinci müavini məsələni qəti və prinsipial qoyur: "Nəqliyyat-Tikinti naziri, Yollar naziri və hər iki nazirliyin kollegiyaları bir ay müddətində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi tədbirlərini hazırlayıb Nazirlər Sovetinə təqdim etməlidirlər. Tədbirlər konkret, dəqiq, real olmalıdır, biz isə Nazirlər Sovetində bu tapşırıqların yerinə yetirilməsini nəzarət qaydasında, - baxmayaraq ki, ikinci dəfə veririk, - bu məsələni birinci kvartalın yekunlarında dinləyirik".

Kollegiya iclasında Heydər Əliyevin iştirakı və dərin məzmunlu, ətraflı çıxışı nazirliklərin və bütün kollektivlərin fəaliyyətində böyük proqram sənədi kimi qəbul edildi. Eyni zamanda kollektivlərin 1984-cü il sosialist öhdəliklərində SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin tövsiyələri və məsləhətlərinin öz əksini tapacağı qeyd edildi.

1983-cü il martın 4-də SSRİ Nazirlər Sovetinin Baykal-Amur dəmiryol xəttinin tikintisi üzrə komissiyanın Heydər Əliyevin sədrliyi ilə ilk iclası keçirildi. İclasda komissiyanın üzvləri, Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, SSRİ Dövlət Plan Komitəsinin, SSRİ Dövlət Tikinti, SSRİ Tikinti Bankı və SSRİ nazirliklərinin məsul işçiləri iştirak edirdilər.

İclasda: 1) Baykal-Amur dəmiryol xəttinin tikintisi üzrə 1982-ci il planının yerinə yetirilməsi vəziyyəti və 1983-cü il planının yerinə yetirilməsinin təmin edilməsi haqqında; 2) Baykal-Amur dəmiryol xəttinin bütün sahələrində qatarların birbaşa hərəkətinin açılışının təmin edilməsi və Sov.İKP XXVI qurultayının qərarına əsasən on birinci beşillikdə onun ayrı-ayrı hissələrinin daimi istismara verilməsi; 3) BAM-da Şimali Muysk və Kadarsk tunellərinin tikintisinin gedişi və Şimali Muysk tunelindən dəmiryolu dövrəsinin tikintisi kimi zəruri məsələlər müzakirəyə qoyulmuşdu.

Məsələlərin müzakirəsindən aydın oldu ki, 1982-ci il planında BAM-da obyektlərin tikintisi 109 faiz, bilavasitə xəttin tikintisi 112 faiz yerinə yetirilmişdir. Yollar Nazirliyi və Nəqliyyat-Tikinti Nazirliyi 1982-ci ildə Ural-Postışevo xəttinin daimi istismara verilməsi, mənzil, məktəb, uşaq bağçalarının və xəstəxanaların tikintisi planını yerinə yetirmişlər. Bunlarla yanaşı tikintinin həyata keçirilməsində ciddi çatışmazlıqlar da

meydana çıxarıldı. Nöqsanların, çatışmazlıqların, geriliklərin aradan qaldırılması üçün nazirliklər, təşkilatlar, idarələr, hami təşkilatlar, maliyyə orqanları qarşısında konkret, ciddi vəzifələr qoyuldu.

Aşkar oldu ki, nə Yollar Nazirliyi, nə də Nəqliyyat-Tikinti Nazirliyi tərəfindən 1983-cü ilin əvvəlinə kimi SSRİ Nazirlər Sovetinin göstərişinə uyğun olaraq buraxılış komplekslərinin təsdiq edilmiş planı və qatarların xətti üzrə birbaşa hərəkətinin müəyyən edilmiş kompleksi hazırlanmışdır. Ona görə də həmin nazirliklər qarşısında qeyd edilən çatışmazlıqların aradan qaldırılması və perspektiv inkişaf proqramı işləyib hazırlamaq və bu barədə 1983-cü ilin aprelində komissiyaya məlumat vermək vəzifəsi qoyuldu.

Şimali Muysk tunelinin tikintisinin qeyri-qənaətbəxş aparılması qeyd edildi. 6 il aparılan tikintidə 1983-cü il yanvarın 1-nə kimi 30 faiz iş görülmüşdü.

Ümumiyyətlə, Baykal-Amur tikintisi üzrə komissiyanın Heydər Əliyevin sədrlik etdiyi birinci iclasında çox ciddi çatışmazlıqlar və nöqsanlar aşkar edildi. Onların aradan qaldırılması üçün hərtərəfli, düşünülmüş kompleks tədbirlər proqramı müəyyən edildi.

1985-ci il yanvarın 25-də Heydər Əliyevin iştirakı ilə Nəqliyyat-Tikinti Nazirliyinin geniş kollegiya iclası keçirildi. İclasda 1984-cü ildə nazirliyin fəaliyyətinin yekunları və 1985-ci il planının və ümumiyyətlə, beşilliyin bütövlükdə həyata keçirilməsinin təmin edilməsi haqqında Nəqliyyat-Tikinti nazirinin məruzəsi dinlənildi. 1984-cü il üçün müəyyən edilmiş planların yerinə yetirildiyi qeyd edildi. Kollegiya iclasında Heydər Əliyevin çıxışında 1984-cü ildə həyata keçirilən tədbirlərə, görülən işlərə yekun vuruldu və nəqliyyat-tikinti sahəsində qarşıda duran vəzifələrin səmərəli həyata keçirilməsini təmin etmək və beşillik planları tamamilə yerinə yetirmək əsas vəzifə kimi qarşıya qoyuldu.

Həmin il yanvarın 30-da isə Yol Nəqliyyatı Nazirliyinin, Dəmiryol Nəqliyyatı və Nəqliyyat-Tikinti Fəhlələrinin Həmkarlar İttifaqı Mərkəzi Komitəsinin geniş iclası keçirildi. İclasda Heydər Əliyev iştirak edirdi. İclasda dəmiryollarının, şöbələrin, sənaye müəssisələrinin və sahə tikinti təşkilatlarının fəaliyyəti hərtərəfli müzakirə edildi. 1984-cü il üçün nazirliyin yük dövriyyəsi və xalq təsərrüfatı yüklərinin daşınması sahəsində planların yerinə yetirilməsi qeyd edildi. Maraqlıdır ki, yük daşınması həcminin bütövlükdə artımı əmək məhsuldarlığının yüksəldilməsi hesabına mümkün olmuşdu. Bu da nəqliyyat və tikintidə əmək məhsuldarlığının artırılması haqqında Heydər Əliyevin göstərişlərinin həyata keçirilməsinin nəticəsi idi.

Nazirliyin geniş iclasında Heydər Əliyevin çıxışında irəli sürülən vəzifələr mühüm proqram sənədi kimi qəbul edildi.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsi ərəfəsində ölkədə nəqliyyatın işi tələbata cavab vermirdi. Planlar yerinə yetirilmirdi, ciddi çətinliklər və geridəqalma halları mövcud idi. 1981- 1982-ci illərdə dəmiryolu nəqliyyatında vəziyyət ağır idi. Xeyli kapital qoyulmasına baxmayaraq, dəmiryolunun inkişafı ildən-ilə geri qalırdı. 1982-ci ilin dekabrından dəmiryol nəqliyyatı sahəsinə Heydər Əliyevin nəzarət etməsi ilə vəziyyət dəyişdi. Artıq 1983-1984-cü illərdə dəmiryolu işçiləri yük daşınmasında geriləməyə son qoydular. 1984-cü ildə bütün göstəricilər üzrə plan artıqlaması ilə yerinə yetirildi. 1981-1982-ci illərdən qalan borclar ləğv edildi. Nəqliyyata geniş miqyasda köməyin təşkili, dəmiryol kollektivlərinin səfərbər edilməsi nəticəsində onların işində dönüş yarandı. 1985-ci ilin oktyabrında yük daşınmasında qalan borclar aradan qaldırıldı. On ayda plandan əlavə 7,5 milyon ton xalq təsərrüfatı məhsulları daşındı. Yükdaşıma sahəsində çalışan işçilərin əmək məhsuldarlığının artırılması sahəsində plan tapşırığı yerinə yetirildi. Bütün bu uğurlar Heydər Əliyevin 1985-ci il noyabrın 11-də Cənubi Ural dəmiryolunun Kurqan qovşağında partiyanın hesabat-seçki yığıncağındakı çıxışında qeyd edilmişdi. O, görülmüş işləri qeyd etməklə yanaşı, həm də qarşıda duran inkişaf istiqamətlərini müəyyən etmişdi. Heydər Əliyev ölkə dəmiryolçularının işinin əsas istiqamətini iqtisadi artımın intensiv amillərinə yönəldirdi. Dəmiryolunda elmi-texniki tərəqqinin sürətləndirilməsində işlərin intensivləşdirilməsini zəruri hesab edirdi. İşin gedişini təhlil edərək Kurqan qovşağında son beş ildə əmək prosesinin mexanikləşdirilməsinin yalnız 7 faiz artımını kifayət hesab etməmişdi. Heydər Əliyev iclasda obrazlı şəkildə qeyd edirdi ki, "Əgər gələcəkdə də bu sürətlə gedilsə, tam mexanikləşməyə səkkiz beşillik lazım olacaqdır! Əlbəttə ki, başa düşmək lazımdır. Biz XXI əsrə toxmaq və bel ilə gedə bilmərik".

Heydər Əliyev dəmiryolunda işin keyfiyyətinin yüksəldilməsinin əsas amili kimi intizam və təşkilatçılığa, mütəşəkkilliyə xüsusi fikir verməyi qarşıya bir vəzifə kimi qoyurdu. "Dəmiryolu, hər şeydən əvvəl, dəmir intizam və mütəşəkkillikdir".

Dəmiryolunda intizam yaradılması və xidmətin yüksək səviyyədə həyata keçirilməsi ümumi işin yüksək səviyyədə həyata keçirilməsinin əsas şərtlərindən biri idi. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi dəmiryolunda vəziyyəti dərindən öyrənir və nöqsanları aradan qaldırmaq üçün təcili tədbirlər görür.

Baykal-Amur magistralının (BAM) tikintisini sürətləndirmək və keyfiyyətini yüksəltmək məqsədilə bu obyektə rəhbərlik edən Heydər Əliyev 1984-cü il iyunun 3-dən 10-na kimi tikinti regionunda olub, regionun əməkçiləri ilə görüşmüş, bütün tikinti obyektlərini nəzərdən keçirərək, dəmiryolu xətti boyunca tikilən yeni qəsəbələr və şəhərlərlə tanış olmuşdu. Fəhlə və mütəxəssislərlə görüşdə BAM-da bütün istiqamətlərdə

qatarların hərəkətini təmin etmək üçün kollektivlərin öhdəliklərinin yerinə yetirilməsi məsələlərinə xüsusi diqqət yetirmişdi.

Şərqi Sibirdə və Uzaq Şərqdə nəqliyyat əlaqələrinin inkişaf perspektivi və onun bu zonanın sosial-iqtisadi inkişafında təbii sərvətlərinin kompleks mənimsənilməsində rolu səfərin əsas diqqət mərkəzində idi.

Heydər Əliyev başqa nəqliyyat vasitələrinin - xətlərinin vəziyyəti ilə də, Lena çayı üzərində limanda Şərqdə-Vrangel buxtasında, Vladivostok ticarət limanında vəziyyətlə də tanış olmuşdu. Xabarovsk və Primorsk diyarlarının partiya fəalları ilə görüşlərində ictimai istehsalın səmərəliliyinin artırılması vəzifələri, ideya-siyasi tərbiyə işinin möhkəmləndirilməsi məsələlərini müzakirə edərək özünün təklif, məsləhətlər və tapşırıqlarını vermişdi.

Heydər Əliyevi İrkutsk Vilayətinin, Buryat Muxtar Respublikasının, Çita Vilayətinin, Kursk Diyarının, Amur Vilayətinin, Xabarovsk Diyarının, Primorsk Diyarının partiya və sovet rəhbərləri, Uzaq Şərq hərbi dairəsinin, Sakit okean donanmasının rəhbərləri müşayiət edirdilər. Bu səfərdən qayıtdıqdan sonra, Sov.İKP MK Siyasi Bürosunun 5 iyul 1984-cü il tarixli iclasında Heydər Əliyevin Baykal-Amur dəmir yolunun tikintisi ilə əlaqədar olaraq bir sıra məsələlər üzrə məlumatı dinlənildi.

SSRİ Dövlət Plan komitəsinin sədri, Nazirlər Soveti sədrinin müavini işləmiş N.K.Baybakov Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində fəaliyyəti haqqında göstərir ki, "O, hökumətdə maşınqayırma və nəqliyyatdan tutmuş, sosial-mədəni sahəyədək çox müxtəlif sahələrə kuratorluq edirdi. Biz BAM-in tikintisinin gedişi barədə Siyasi Büroda bir neçə dəfə məruzə etmişdik. Məsələ ondadır ki, bu yol sadəcə, təsərrüfat əhəmiyyətli deyil, həm də hərbi-siyasi, strateji əhəmiyyətli bir yol idi.

Heydər Əliyev dəfələrlə tikinti obyektində olmuşdu. Heydər Əliyevə BAM tikintisində mane olanlar, əleyhdarlar da var idi. Bəziləri Heydər Əliyevə qarşı çıxaraq hesab edirdilər ki, birxətli yol tikmək lazımdır. "Heydər Əliyev bütün opponentlərinə layiqli və çox əsaslandırılmış cavablar verir, öz nöqteyi-nəzərini müdafiə edirdi. Ümumiyyətlə, o, prinsipial adam idi... Zənnimcə, o, təkcə Azərbaycanın deyil, həm də bütün SSRİ-nin xalq təsərrüfatının inkişafına böyük töhfə vermişdir".

1984-cü ildə Baykal-Amur magistralı hesabına SSRİ-də dəmiryolunun uzunluğu üç yüz min kilometrdən çox artmışdı. Qatarların vaxtından əvvəl hərəkətinin başlanması ölkə həyatında görkəmli hadisə idi. 1985-ci ildə BAM xəttinin tikintisinin ikinci mərhələsi başlandı. Lakin BAM sənaye və yaşayış diyarı kimi hələ yeni istifadə olunurdu. Heydər Əliyev BAM ətrafını mühüm sənaye bazasına, yaşayış sahəsinə çevirmək

planını həyata keçirməyi irəli sürürdü. Sosial-iqtisadi və mədəni mərkəzə çevirməyə çalışırdı. O deyirdi ki, BAM sahəsində əhali artır, gənc inşaatçıların çoxu sibirli, uzaqşərqli olmağı qərara almışlar. Buna görə də yaşayış binaları tikintisinin, sosial-məişət əhəmiyyətli obyektlərin salınmasını sürətləndirmək lazımdır. BAM xəttinin tikintisini Heydər Əliyev Sibirin və Uzaq Şərqin böyük kəşfi kimi qiymətləndirirdi. Çünki bu tikinti ilə dəmiryolu xətti zonasında faydalı qazıntılarla zəngin olan böyük bir ərazi təsərrüfat dövriyyəsinə daxil olurdu. Ölkənin ehtiyat mənbələri misli görünməmiş şəkildə artırdı.

Heydər Əliyev böyük uzaqgörənliklə Altay Diyarının gələcək inkişaf perspektivlərini, onun ehtiyat mənbələrini müəyyən edirdi. Eyni zamanda diqqəti istifadə edilməmiş mənbələrə yönəldir, diyarda ictimai istehsalın intensivləşdirilməsi vəzifələrini müəyyən edirdi. O, obrazlı şəkildə qeyd edirdi: "Təsdiq edirlər ki, Altay adının kökü "qızıl" sözündəndir. Həqiqətən, ölkədə "qızıl"ın mənası yüksəkdir. Bu həm Altay dağlarının gözəlliyi, həmdə taxıl zəmilərinin qızılı və əmək adamlarının qızıl əlləridir..."

Azərbaycanlı SSRİ rəhbəri Sibirdəki daş kömür, neft, qaz və başqa qiymətli sərvətlərin istifadəyə verilməsi ideyasını irəli sürüb həyata keçirilməsinə rəhbərliyi təmin etməklə bölgənin təsərrüfatının inkişafında böyük xidmətlər göstərirdi. Bütün bu xidmətlərinə görə Heydər Əliyev 1985-ci ildə Altay Diyarından RSFSR Ali Sovetinə deputat seçilmişdi.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi dövrdə dəmiryolu sahəsinin kuratoru kimi Sovet İttifaqının dəmiryol nəqliyyatının potensialın genişləndirilməsi ilə bağlı xeyli işlər görmüşdü. Şimali Amur tuneli kimi mühüm bir obyektin əsası məhz onun kuratorluq etdiyi dövrdə qoyulmuşdu.

Maraqlıdır ki, 2002-ci ilin oktyabrında Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Dəmiryol Nəqliyyatı Şurasının 33-cü iclası Bakıda keçirildi. Bu iclasda iştirak edən Rusiya Federasiyasının yollar naziri Gennadi Fadeyev Heydər Əliyevin Moskvada işlədiyi illərdəki fəaliyyətini yüksək qiymətləndirdi. Azərbaycanı Qafqazda təhlükəsizlik, sabitlik adası kimi səciyyələndirdi və bütün bunların Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olduğunu vurğuladı. Rusiyanın dəmiryolları naziri böyük razılıqla qeyd etdi ki, o uzun müddət belə bir şəxsiyyətlə (Heydər Əliyevlə) işlədiyinə görə fəxr edir.

Heydər Əliyev Moskvada işləyərkən ilk vaxtlarda dəmiryolunda taxıl, kömür, taxta-şalban daşınmasında böhran müşahidə olunurdu. BAM-ın tikintisi çətinliklərin aradan qaldırılmasına kömək etdi. O vaxt Heydər Əliyevin kadrların seçilməsinə, bu sahədə rəhbərliyə müdrikcəsinə yanaşması ölkə dəmiryolçuları arasında ona böyük hörmət qazandırmışdı. İndi də Rusiya dəmiryolçuları Heydər Əliyevi heç vaxt

unutmamışlar. Ona görə də Rusiya Federasiyasının prezidenti Vladimir Putinin tapşırığı ilə yollar naziri Gennadi Fadeyev dəmiryol nəqliyyatının inkişafında böyük xidmətlərinə görə Heydər Əliyevə "Transsibir magistralının 100 illiyi" medalını, habelə nazirliyin kollegiyasının xatirə hədiyyəsini təqdim etmişdi.

1986-cı il sentyabrın 3-də Novorossiyskdə "Admiral Naximov" gəmisinin batması ilə yaranan gərgin vəziyyətin sakitləşdirilməsi, onun nəticələrinin aradan qaldırılmasında Heydər Əliyevin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılır. Dövlət Komissiyasının fəaliyyəti nəticəsində əhali arasında narahatçılıq sakitləşdirildi, qəzanın nəticələrinin aradan qaldırması üçün təcili tədbirlər həyata keçirildi. Görüşlərdən birində komissiyanın öz işini necə qurması sualına cavab olaraq Heydər Əliyev bildirmişdi: "Bizim işimiz səhər saat altıda başlayır. Dövlət Komissiyası bütün gün ərzində işləyir. Bir çox məsələlər yerindəcə həll edilir. Komissiyanın üzvləri hər gün qəzanın şahidləri, batanların qohumları ilə görüşür. Biz olduğumuz yerlərdə, küçələrdə belə birbaşa sualla müraciət edirlər. Komissiya üzvləri hər gün mehmanxanalara, nəqliyyat qovşaqlarına, ictimai-iaşə müəssisələrinə, tibb müəssisələrinə gedir. Biz hesab edirik ki, belə görüşlər lazımdır, onlar bizim işimizin tərkib hissəsidir.

Bunlarla yanaşı, komissiya dənizdə işlərə operativ rəhbərlik edir, çünki orada çoxlu məsələlər meydana çıxır. Ardıcıl olaraq gündə iki dəfə hökumət komissiyasının iclası keçirilir".

Fəlakətin səbəblərinə dair suallara cavab verərkən Heydər Əliyev bildirirdi ki, intizam uğrunda mübarizə sözdə deyil, işdə aparılmalıdır. İntizam və mütəşəkkillik hansı vəzifədə olmasından asılı olmayaraq hər bir işçi üçün eyni olmalıdır. "Admiral Naximov" gəmisi bunu sübut etdi. Ondan nəticə çıxarmaq lazımdır. Heydər Əliyevin göstərişləri nəinki həmin dövr üçün, bütün zamanlarda hər bir şəxs üçün iş qaydası, fəaliyyət proqramı oldu.

1980-ci ilin əvvəllərindən SSRİ-də istehsalın təşkili, inkişaf etdirilməsində yeni metod tətbiq edilməyə başlandı. Bu məqsədlə əmək kollektivlərinin bütün sahələrdə fəaliyyətinin genişləndirilməsi və yüksəldilməsi, onların səlahiyyətlərinin artırılması, fəallığının yüksəldilməsini təmin edən "SSRİ-də Əmək Kollektivləri və onların müəssisələrin, idarələrin, təşkilatların idarə edilməsində rolunun artırılması haqqında" qanun layihəsi barədə Heydər Əliyev SSRİ Ali Sovetinin 8-ci sessiyasında *(16 avqust 1983-cü il)* məruzə etmişdi. Məruzə mətbuatda dərc edilmiş və geniş müzakirə edilmişdi. Müzakirə prosesində irəli sürülən bütün təkliflər, qeydlər, düzəlişlər dərindən öyrənilmiş, ümumiləşdirilmişdi. Qanun layihəsi böyük siyasi, iqtisadi və sosial əhəmiyyətli bir sənəd kimi, qanunçuluq aktı kimi təqdim edilirdi. Məruzədə qeyd edilirdi ki, "bizim qanun müəssisələrin idarə edilməsində əmək kollektivlərinin səlahiyyət və imkanlarını genişləndirərək azad əmək cəmiyyəti və

sosial ədalət prinsiplərinə, öz mahiyyəti ilə vahid ümumxalq cəmiyyətinə çevrilmiş cəmiyyətin prinsiplərinə əsaslanır". Qanun layihəsi əmək kollektivləri ilə dövlət hakimiyyət orqanları arasında qarşılıqlı münasibətləri və onların idarəçilikdə iştirakı prinsiplərini müəyyən edirdi. Heydər Əliyev məruzədə əmək kollektivlərinin idarəçilikdə səlahiyyətlərinin genişləndirilməsində aşağıdakı yeni təklifləri ön plana çəkirdi:

**Birincisi,** əmək kollektivlərinin idarəçilik işinə daxil olan istehsalat, sosial və tərbiyə məsələlərində fəaliyyət dairəsi genişlənir.

**İkincisi,** əmək kollektivləri təkliflər və məsləhətlər hazırlamaqla məhdudlaşmır. Qanun onlara bir çox məsələlərdə yerinə yetirilməsi məcburi olan sərbəst qərar qəbul etmək hüququ verir.

**Üçüncüsü,** əmək kollektivlərinin səlahiyyətlərinin həyata keçirilməsinin forma və metodları təkmilləşir, onların idarə, təşkilat, müəssisələrin bilavasitə idarə edilməsində iştirakı dərinləşir və genişlənir.

Əmək kollektivlərinin fəaliyyəti və səlahiyyəti genişləndirilir. Hər şeydən əvvəl, planlaşdırma işinin təşkilində onların iştirakı təmin edilirdi. Heydər Əliyev göstərirdi ki, planlaşdırma indi daha yuxarıdan bürokratik göstərişlərə yox, hər bir müəssisənin, idarənin, təşkilatın tələbləri və cəmiyyətin ehtiyatlarının nəzərə alınmasına əsaslanmalıdır. Planlaşdırmada əmək kollektivinin iştirakının xüsusi təsiri olmalıdır. Ona görə də qanunda nəzərdə tutulurdu ki, planlar əmək kollektivlərində baxılandan sonra dövlət orqanlarının təsdiqinə verilsin.

Xalq kütlələrinin təşəbbüsü ilə meydana çıxan qarşılıqlı təkliflər planlaşma praktikasını daha da zənginləşdirirdi. Çünki dövlət planına əlavələr edilir, aşkar edilən ehtiyatlar, yeni imkanlar cəmiyyətin xidmətinə verilirdi. Qanun iqtisadi və sosial proqramları geniş əhatə edirdi. İqtisadiyyatın əsasən intensiv inkişaf yolunu, səmərəliliyin artırılması və əmək kollektivlərində işin keyfiyyətini təmin edirdi. Qanunda texnikadan istifadə edilməsi, kadrların ixtisaslaşması, əməyin təşkilinin mütərəqqi formalarını, kütlələrin təşəbbüskarlığının artırılması sahəsində kollektivlərin hüquq və vəzifələri müəyyən edilirdi.

Heydər Əliyev məruzəsində qanun layihəsinin yığıncaqlarda geniş müzakirə olunduğunu qeyd etmiş, mətbuatda layihə haqqında verilən yazıların əhəmiyyətini dəqiqləşdirmişdi. Müzakirələrdə əməyin briqada formasında təşkili geniş müdafiə edilmişdi.

Ən mühüm məsələlərdən biri mənzil problemi idi. Qanuna əsasən əmək kollektivləri mənzil tikintisi ilə məşğul olmalı, müəssisənin fondu hesabına mənzil tikintisi haqqında qərar qəbul etməlidir. Yeni qanunda ən

mühüm cəhətlərdən biri də işləyən qadınlar haqqındadır. Qadınların həm ailədə, həm də kollektivlərdə əməyini nəzərə alaraq onlar üçün əlverişli şərait yaradılması müəyyən edilirdi.

Heydər Əliyev məruzəsində geniş müzakirə prosesində irəli sürülən təkliflər, düzəlişlər, əlavələr haqqında məlumat verdi və qeyd etdi ki, bütün bunlar qanun layihəsinin dəqiqləşdirilmiş mətnində öz əksini tapmışdı.

SSRİ Ali Sovetinin sessiyası Heydər Əliyevin məruzəsini və məruzə ətrafında çıxışları dinləyərək "SSRİ-də əmək kollektivləri və onların müəssisələrin, idarələrin, təşkilatların idarə edilməsində rolunun artırılmasına dair qanun"u qəbul etdi.

1984-cü il dekabrın 14-də SSRİ Tibb Elmlər Akademiyasına Lenin ordeninin təqdim edilməsi münasibətilə təntənəli iclasda Heydər Əliyevin nitqi böyük rəğbətlə qarşılandı. O, dərin, məzmunlu nitqində SSRİ-də tibb elminin və səhiyyənin inkişafında 1944-cü ildə yaradılan SSRİ Tibb Elmləri Akademiyasının qısa tarixi müddətdə dünyada tibb elminin ən qüdrətli mərkəzlərindən birinə çevrilməsində böyük inkişaf yolu keçdiyini və şöhrət qazandığını göstərdi. Sovet cəmiyyətinin bütün dövrlərində tibb sahəsinin alimləri fundamental aktual tədqiqatlar aparmaqla, elmi yeni kəşflərlə zənginləşdirməklə praktiki səhiyyənin tələbatına cavab vermişlər. Eyni zamanda sovet tibb alimlərinin dünya elminin inkişafına böyük töhfələr verdiyini xüsusi qeyd etdi. Heydər Əliyev tibb elminin inkişafının xüsusiyyətlərini işıqlandırmaqla ölkədə tibbi yardımın yeni prinsipial formasının əhəmiyyətini xüsusi qeyd etdi. Nazirlər Sovetində, SSRİ-də, həm də tibb və səhiyyə məsələlərinə rəhbərlik edən Heydər Əliyevin qarşıya qoyduğu vəzifələr bu sahənin böyük bilicisinin, nəzəriyyə və praktikasının görkəmli nümayəndəsinin, təşkilatçısının təfəkkürünün məhsulu idi.

Tibb elmi sahəsində də böyük dünyagörüşə malik olan Heydər Əliyev tibb elmi və səhiyyənin qarşısında duran vəzifələri ətraflı işıqlandırırdı. Böyük uğurlarla yanaşı, SSRİ-də tibbi yardımın səviyyəsinin hələ adamların artan tələbatına cavab vermədiyini göstərirdi.

Qarşıda duran vəzifələrdən danışan Heydər Əliyev diqqəti ölkə üçün həyati əhəmiyyət kəsb edən müalicə müəssisələrinin işinin xeyli yaxşılaşdırılması, xəstəliyin azaldılması, tibb elminin, səhiyyə qurumlarının və başqa sosial institutların birgə fəaliyyəti nəticəsində ömrün uzadılması, ürək-damar xəstəliklərinin azaldılması, gənc nəslin sağlamlığının möhkəmləndirilməsi problemlərinə yönəldirdi. Bu problemlərin həll edilməsində elmi tədqiqatların, bütün sağlamlıq mühafizə sisteminin işinin intensivləşdirilməsi, onun keyfiyyətinin yüksəldilməsi, elm və texnikanın nailiyyətlərinin sürətlə mənimsənilməsi ana xətt olmalı idi. Azərbaycanın böyük oğlunun bütün İttifaqda tibb elmi və səhiyyəsinin

inkişaf etdirilməsində qarşıya qoyduğu vəzifələr o dövrün tələblərinə cavab verirdi və bütün ölkədə insanların sağlamlığı keşiyində duran tarixi əhəmiyyətli perspektiv proqram idi.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi vaxt humanist, sülhsevər siyasətin təbliğ edilməsi və həyata keçirilməsində, bəşər sivilizasiyasının bərqərar olması, cəmiyyətin gələcək taleyi naminə xidmətləri danılmazdır. Onun 1985-ci il sentyabrın əvvəlində Moskvada keçirilən beynəlxalq kitab sərgi-yarmarkası iştirakçılarına və qonaqlara SSRİ Nazirlər Soveti adından göndərdiyi təbrik məktubu ümumbəşəri və böyük humanist arzuları əks etdirən bir tarixi sənəddir. Təbrik məktubunda deyilirdi: "SSRİ hökuməti Beşinci beynəlxalq Moskva kitab sərgi-yarmarkası iştirakçılarını və qonaqları ürəkdən təbrik edir! Onun "Kitab sülhün və tərəqqinin xidmətindədir" xeyirxah devizi ədəbiyyatın əsl humanist mahiyyətinin ən gözəl ifadəsindən başqa bir şey deyildir. İnsanlara bilik, zənginlik, əbədi mənəvi sərvət gətirir, adamlar və xalqlar arasında qarşılıqlı anlaşma körpüsü yaradır, ədalət və sülhü qoruyurdu".

Dahi siyasətçi beşinci beynəlxalq kitab sərgi-yarmarkasının faşizm üzərində qələbənin qırxilliyinin bayram olunduğu dövrdə keçirildiyini qeyd edərək xatırladır ki, beynəlxalq birliyin yadındadır ki, dünyada nə qədər sayagəlməz qurbanlar olmuşdur. Kitabları ocaqlarda yandıran faşist vandallarının vəhşiliyi üzündən dünya mədəniyyəti böyük itkilərə düçar olmuşdur. Tarixin dərsləri bizim hamımızı dünyada sülhün, sivilizasiyanın taleyi, bəşəriyyətin gələcəyi uğrunda daha böyük məsuliyyətə çağırır. Bu baxımdan təbrik məktubunda Heydər Əliyev dühasından öz ifadəsini tapan aşağıdakı sətirlər böyük çağırış idi: "Qoy ənənəvi Moskva kitab sərgi-yarmarkası Helsinki müşavirəsinin "Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Yekun Aktı"nın yerinə yetirilməsinin inandırıcı sübutlarından biri olsun. Bütün nəşriyyatçıları və kitab yayanları əsl humanizmin təsdiq edilməsi, sosial ədalət, dünyada nüvə təhlükəsinin ləğv edilməsi uğrunda mübarizədə birləşdirsin". Nazirlər Sovetinin beynəlxalq Moskva kitab sərgisi yarmarkası iştirakçılarına və qonaqlara təbrik məktubunun mətni SSRİ Nazirlər Sovetinin 5 sentyabr 1985-ci il tarixli qərarı ilə təsdiq edilmişdi.

1987-ci il martın 15-18-də Heydər Əliyevin Volqoqrad vilayəti zəhmətkeşləri ilə görüşü keçirilirdi. Görüş və söhbətlərin əsas məzmunu əhalinin artan tələbatının ödənilməsi məsələlərinə həsr edilmişdir. Yeni şəraitdə təsərrüfatçılığa keçid dövründə yüngül sənayenin işi əsas diqqət mərkəzində idi. Görüş zamanı aydın oldu ki, bir çox müəssisələr tam təsərrüfat hesablı fəaliyyətə başlamağa hazırlıqlı olmamışdı. Heydər Əliyev Kamninski pambıq-parça kombinatında, corab-trikotaj və ayaqqabı fabriklərindəki görüşlərində vəziyyətlə ətraflı tanış oldu və bu müəssisələrdə bazar tələbatına uyğun məhsul buraxılmadığını aşkar etdi.

Heydər Əliyev yüngül sənaye, ümumiyyətlə xalq istehlakı malları istehsal edən başqa müəssisələrin, ticarət və xidmət sahələri işçilərinin fəallar yığıncağındakı çıxışında 1987-ci il yanvar ayından yüngül sənayenin təsərrüfat hesabı ilə işləməsinə baxmayaraq, bu sahədə ciddi nöqsanlar olduğunu göstərir. Belə ki, yüngül sənayedəki çatışmazlıqlarla yanaşı, əhalinin xalq istehlakı mallarına tələbatının artmasına baxmayaraq, yerli sənaye məhsulları bu tələbatı ödəmirdi. Yerli sənaye məhsulları ildə 48 milyon manatlıq məhsul buraxırdı ki, bu da olduqca az idi.

Volqoqrad vilayətində hər nəfərə düşən məhsul istehsalı Rusiya Federasiyasına nisbətən 211 manat azlıq təşkil edirdi. Kəmiyyətlə yanaşı, keyfiyyətin də aşağı olduğu qeyd edilirdi.

Volqoqrad traktor zavodu ilə tanışlıqda zavodun buraxdığı məhsulun səviyyəsinin möhkəm maddi bazanın tələblərinə və zavodun yüksək texniki səviyyəsinə cavab vermədiyi meydana çıxmışdı.

Heydər Əliyev insanların həyat şəraiti ilə də yaxından maraqlanırdı. Mərkəzi bazarda, mağazalarda, ictimai xidmət müəssisələrində olur və camaatla söhbət edirdi. Klinik xəstəxanadakı görüşündə sağlamlıq idarələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında tapşırıqlar verirdi. Böyük nəqliyyat birləşməsi olan Volqoqradda M. Qorki adına dəmiryolu stansiyasında, çay nəqliyyatı vağzalında olur, sürətli tramvayda gəzintiyə çıxırdı. Məktəblərdə, uşaq bağçalarında, uşaq kombinatında olurdu. Politexnik İnstitutunda şəhər ali məktəbləri rəhbərliyi ilə görüşündə ali təhsilin yenidən qurulması problemləri müzakirə edilirdi. Heydər Əliyevin Volqoqradda görüş və söhbətlərinin əhəmiyyəti Mərkəzi və vilayət qəzetlərində geniş işıqlandırılmışdır. Heydər Əliyev SSRİ hökuməti adından xarici dövlətlərin nümayəndə heyətlərini qəbul etməsi və onlarla söhbətləri hər zaman SSRİ rəhbərliyində yüksək səviyyədə qiymətləndirilirdi. 1983-cü il sentyabrın 8-də Sov.İKP MK Siyasi bürosunun iclasında Heydər Əliyevin Amerika hökumət nümayəndəsinin başçısı ABŞ kənd təsərrüfatı naziri C. Blokla danışıqlarının yekunları müzakirə edilirdi. Sov.İKP MK-nın Baş katibi K. U. Çernenko Heydər Əliyevin Amerika nümayəndə heyətinin başçısı, kənd təsərrüfatı naziri C. Blokla danışıqları haqqında məsələnin müzakirəsində qeyd etmişdi: "Yoldaş Əliyev ABŞ-ın kənd təsərrüfatı naziri C. Blokla danışıqları haqqında müfəssəl məlumat vermişdi. Bildiyiniz kimi, söhbət zamanı Sovet – Amerika münasibətlərinin vəziyyəti və xüsusilə, taxıl üzrə yeni müqavilənin əhəmiyyəti məsələlərinə toxunulmuşdur. C. Blok Amerika Birləşmiş Ştatlarına qayıtdıqdan sonra belə məzmunda məlumat vermişdir. Hesab edirəm ki, Əliyev yoldaşın apardığı söhbəti bəyənmək olar". Sov.İKP MK Siyasi bürosunun iclasında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin ABŞ kənd təsərrüfatı naziri ilə söhbətinin məzmununun bəyənilməsi qərara alınır.

SSRİ-nin Şərq ölkələri, Afrika ölkələri, müsəlman dövlətləri ilə əlaqələrinin yaradılması və inkişafında Heydər Əliyevin böyük rolu vardır. Sovet hökuməti bu ölkələrlə münasibətləri, əlaqələri, adətən, Heydər Əliyevin vasitəsilə həyata keçirirdi.

Sovet İttifaqı Vyetnam Sosialist Respublikası ilə dostluq və əməkdaşlıq əlaqələrinin yaradılmasına böyük əhəmiyyət verirdi. 1983-cü ilin oktyabrında Sovet-Vyetnam dostluq və əməkdaşlıq haqqında müqaviləsinin beş illiyi münasibətilə Vyetnam Sosialist Respublikasında təntənəli tədbirlər keçirilirdi. Tədbirlərdə iştirak etmək üçün Heydər Əliyevin başçılığı ilə SSRİ nümayəndə heyəti Hanoya göndərilmişdi. Oktyabrın 28-də nümayəndə heyətini Vyetnam partiya və hökumət rəhbərləri, Vyetnam KP MK-nın baş katibi Le Zuan, VKP Siyasi bürosunun üzvü, VSR dövlət Şurasının sədri Çıonq Tin, VKP Siyasi bürosunun üzvü, Nazirlər Şurasının sədri Fam Van Donq yüksək səviyyədə qarşılamışdılar. Söhbət zamanı Heydər Əliyev Le Zuan və başqa rəhbərlərin onları səmimi, yüksək səviyyədə, qəbul etdiyindən razı qaldığını bildirmişdi.

Oktyabrın 31-də Hanoyda SSRİ ilə Vyetnam Sosialist Respublikası arasında bağlanan dostluq və əməkdaşlıq haqqında müqavilənin beş illiyi münasibətilə mitinq keçirildi. Mitinqdə Vyetnam tərəfindən mitinqi açan Nazirlər Sovetinin sədri Fan Van Donq VKP MK Siyasi bürosunun üzvü, Nazirlər Soveti sədrinin müavini To Xıu çıxışında beynəlxalq vəziyyətin gərginləşməsini təhlil edərək göstərdilər ki, Amerika dövləti başqa qüvvələrlə birlikdə itirdikləri mövqelərini qaytarmaq məqsədilə güclü silahlanma siyasəti həyata keçirir, hərbi üstünlüyünü təmin etmək məqsədilə Avropada ortamiqyaslı nüvə raketlərini yerləşdirməyə cəhd edir. Bu da sülh və sabitliyin pozulması üçün ciddi təhlükədir. Vyetnam rəhbərləri bildirirdilər ki, Sov.İKP MK-nın baş katibi Y.V.Andropovun 1983-cü il sentyabrın 28-də verdiyi bəyanatı və onun "Правда" qəzetindəki müsahibəsini Avropadan nüvə silahının çıxarılmasında prinsipial və məsuliyyətli bir addım hesab edirlər. Vyetnam xalqının Kuba və Nikaraqua xalqları ilə həmrəy olduqlarını, Cənub-Şərqi Asiyanın sülh zonasına, sabitlik və əməkdaşlıq zonasına çevrilməsi uğrunda ardıcıl mübarizə aparacaqlarını qeyd edirdilər.

Mitinqdə Heydər Əliyev böyük və məzmunlu nitq söyləyib, beş il əvvəl imzalanan müqavilənin hər iki ölkənin qarşılıqlı münasibətlərini keyfiyyətcə yeni mərhələyə qaldırdığını göstərdi. Müqavilənin həyata keçirilməsi SSRİ ilə Vyetnam Sosialist Respublikasının birliyinin və əməkdaşlığının möhkəmlənməsinə xidmət edir, siyasi, təsərrüfat, elmi-texniki və mədəni sahədə əlaqələrinin faydalı inkişafını təmin edirdi. Mitinqdəki çıxışında Heydər Əliyev Sovet - Vyetnam dostluğunun ildən-ilə möhkəmlənməsini böyük razılıqla qeyd etmişdi.

Sovet nümayəndə heyətinin başçısı Heydər Əliyevin çıxışı mitinq iştirakçıları tərəfindən böyük ruh yüksəkliyi və alqışlarla qarşılandı. Onun Sovet İttifaqı ilə Vyetnam Sosialist Respublikası və başqa ölkələrlə Asiyanı sülh regionuna və qarşılıqlı qonşuluq əməkdaşlığına çevrilməsində fəaliyyətlərinin böyük beynəlxalq əhəmiyyət daşıması haqqında fikirləri hamı tərəfindən müdafiə edildi. Bununla da, Heydər Əliyev Cənub-Şərqi Asiyada Vyetnam Sosialist Respublikası xətti ilə sülh, əməkdaşlıq zonasının yaradılmasında özünün böyük tarixi xidmətini göstərmiş oldu.

1984-cü il martın 12-də Heydər Əliyevin Suriyaya rəsmi səfəri Yaxın Şərqdə sülhün, təhlükəsizliyin qorunmasında o dövrdə mühüm əhəmiyyət kəsb edirdi. Heydər Əliyevin Suriya prezidenti H. Əsədlə danışıqlarında beynəlxalq vəziyyət və Yaxın Şərqdə şərait məsələləri hərtərəfli müzakirə edildi. Hər iki tərəf SSRİ ilə Suriya Ərəb Respublikası arasında dostluq və əməkdaşlığa əsasən ikitərəfli münasibətlərin inkişafı və möhkəmləndirilməsində təşəbbüslərin əhəmiyyətini qeyd etmişdilər. Heydər Əliyev tərəfindən Suriya Ərəb Respublikasının Yaxın Şərqdə antiimperialist kursunun Sovet İttifaqında müdafiə edildiyi, Suriyanın regionda bütün ərəb ölkələrində milli-azadlıq hərəkatında böyük rol oynadığı qeyd edilmişdi.

1985-ci il martın 12-də Dəməşqdə Heydər Əliyevin C. Xauinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə Yaxın Şərqdə, o cümlədən Livanda vəziyyətin aktual məsələləri üzrə fikir mübadiləsi aparılmışdı. Heydər Əliyev Livanın müstəqilliyi, ərazi bütövlüyünün saxlanılması uğrunda mübarizəsində həmrəyliyini bildirmişdi.

1985-ci ilin dekabrında Anqola Əmək Partiyasının MPLA ikinci qurultayında Sov.İKP nümayəndə heyətinə Heydər Əliyev başçılıq edirdi. Qurultayda onun çıxışı böyük hərarətlə qarşılanmışdı. Anqola 10 il idi ki, Xalq Respublikası elan edilmişdi. Heydər Əliyev çıxışında Anqolanın Xalq Respublikası elan olunmasında, xalqın mübarizəsinə rəhbərlik etməsində, daxili və xarici irticanın qarşısının alınmasında Anqola Əmək Partiyasının xidmətlərinə yüksək qiymət vermişdi. O, Anqola Əmək Partiyasının yaradıcısı və onun ilk rəhbəri Aqostino Nettonun xidmətlərini Afrikanın tarixində mühüm səhifə kimi qiymətləndirir, on il müddətində Anqola xalqının müstəqillik yolunda ciddi müvəffəqiyyətlər qazandığını, Anqola dövlətinin dünya miqyasında nüfuzunun artdığını, onun müstəmləkəçiliyə və irqçiliyə qarşı mübarizədə fəal iştirak etdiyini yüksək dəyərləndirirdi.

Heydər Əliyev Anqola Əmək Partiyasının sədri, dövlətin prezidenti Joze Eduard Duş Santuşun məruzəsini proqram sənədi kimi qiymətləndirir, nümayəndələrin çıxışlarını qələbəyə inam, tarixi optimizm hissləri ilə aşılanmış çağırış adlandırırdı.

Heydər Əliyev öz çıxışında Sovet İttifaqının xarici siyasətinin əsas istiqamətlərini açıqlayırdı. Afrika ölkələrində azadlıq mübarizəsinə SSRİ-nin həmrəy olduğunu göstərirdi: "Biz Afrika ölkələrinin öz müstəqilliyini xarici qüvvələrin müdaxiləsindən qorumaq sahəsindəki cəhdləri ilə həmrəyik. İrqçilərin azad olmuş ölkələrə, o cümlədən, Anqolaya qarşı cəhdlərini qətiyyətlə ittiham edirik".

Heydər Əliyev müstəqillik və azadlıq uğrunda hüquqlarının müdafiəsində Namibiya və Cənubi Afrika xalqlarının mübarizəsinin indi və gələcəkdə də təmsil etdiyi ölkə adından tərəfdarı kimi çıxış edəcəyini bildirirdi.

Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin Uzaq Şərq ölkələri arasında əlaqələrin, münasibətlərin inkişafında da mühüm xidməti olmuşdur. 1986-cı il iyulun 2-də SSRİ ilə Koreya Xalq Demokratik Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilənin 25 illiyi münasibətilə Moskvada keçirilən təntənəli tədbirlərdə iştirak etmək üçün gəlmiş nümayəndə heyəti ilə Heydər Əliyevin söhbətləri, görüşlərinin əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Qonaqları hökumət adından təbrik edən Heydər Əliyev 1961-ci ildə imzalanan müqavilənin böyük siyasi əhəmiyyətini, ölkələr arasında getdikcə daha çox səmərə verdiyini və inamın artdığını qeyd edirdi. Bu müqavilənin Uzaq Şərqdə sabitlik və təhlükəsizliyin saxlanmasında mühüm vasitə olduğunu göstərirdi. Asiyada vəziyyətin yaxşılaşdırılmasında 25 il əvvəl mühüm addım atılmışdır, bu addım nəticəsində Şimalla Cənub arasında faydalı dialoq yaradılması ilə Koreya yarımadasında gərginlik zəiflədilmişdi. Xarici müdaxilə olmadan Koreyanın dinc demokratik yolla birləşdirilməsində əlverişli real şərait yaranmışdır. Heydər Əliyev keçmiş illəri nəzərdən keçirərək göstərirdi ki, 25 il bundan əvvəl bağlanmış müqavilə hər iki xalq və dövlətin mənafeyinə xidmət edir, Uzaq Şərq regionunda təhlükəsizliyin təmin edilməsinə real töhfələr verir.

Koreya Xalq Demokratik Respublikası nümayəndə heyətinin başçısı, Koreya Əmək Partiyası Siyasi bürosunun üzvü, MK-nın katibi Kim Xvan da müqavilənin əhəmiyyətini qeyd edərək sovet rəhbərliyinə, xalqına öz minnətdarlığını bildirmişdi.

Heydər Əliyev 1986-cı il noyabrın 12-də Laos Xalq İnqilab Partiyasının dördüncü qurultayında Sov.İKP nümayəndə heyətinin başçısı kimi iştirak etmişdi. Yenə həmin il sentyabrın 18-də Yəmən Sosialist Partiyası Siyasi bürosunun üzvü, Nazirlər Soveti sədrinin müavini, Yəmən Xalq Demokratik Respublikası daxili işlər naziri S. Mas-Seyili qəbul edərkən səmimi dostluq şəraitində keçən söhbətdə Sovet İttifaqı və Yəmən Demokratik Respublikası arasında münasibətlərin daha da inkişafı məsələləri müzakirə edilmişdi.

1987-ci il aprelin 15-də Heydər Əliyev Ukrayna Nazirlər Sovetinin dəvəti ilə Sovet İttifaqında səfərdə olan Xorvatiya (Yuqoslaviya) Sosialist Respublikası Saborunun İcraiyyə Veçesinin sədri A.Miloviçi qəbul etmişdi. İkitərəfli münasibətlərin bəzi məsələləri ətrafında fikir mübadiləsi aparılaraq, bu kontekstdə SSRİ-nin respublikaları ilə, xüsusilə Ukrayna Respublikası ilə Xorvatiya Sosialist Respublikası arasında əlaqələrin inkişafının əhəmiyyəti qeyd edildi, onun Sovet İttifaqı - Yuqoslaviya xalqları arasında qarşılıqlı anlaşma və hərtərəfli əməkdaşlığın möhkəmlənməsində mühüm xidməti olduğu göstərildi.

1987-ci il oktyabrın 14-də Heydər Əliyev Küveytin neft naziri Əli əl-Xəlifi qəbul etmişdi. Söhbətdə Sovet- Küveyt münasibətlərinin müxtəlif aspektləri, həmçinin İran körfəzində vəziyyət və İran-İraq konflikti ətrafında məsələlər müzakirə edilmişdi.

Heydər Əliyev göstərirdi ki, Sovet İttifaqı İraqla İran arasında müharibənin tezliklə dayandırılmasına çalışır. Belə bir qəti inam bildirilirdi ki, bu istiqamətdə çıxış yolu imkan mübahisənin siyasi vasitələrlə, ədalətli yolla, müharibə edən hər iki tərəfin qanuni mənafelərinin nəzərə alınması ilə həll edilməlidir.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsindən irəli çəkilərək SSPİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilməsindən sonra da doğma respublikasının vəziyyəti ilə hər zaman maraqlanır, daim ona qayğı göstərməyə çalışırdı. Bakının Lenin (indiki Sabunçu) rayonunun zəhmətkeşləri 1984-cü ildə SSRİ Ali Sovetinə deputatlığa Heydər Əliyevin namizədliyini irəli sürmüşdülər. Həmin il fevralın 23-də Lenin rayonu seçicilərinin deputatlığa namizəd Heydər Əliyevlə görüşü keçirildi. Heydər Əliyev söylədiyi nitqində SSRİ-də iqtisadi-siyasi və sosial vəziyyəti dərindən təhlil etdi, qarşıda duran vəzifələrlə seçiciləri tanış etdi. Azərbaycanda həyata keçirilən sosial-iqtisadi və mədəni quruculuq planlarının yekunlarını işıqlandırdı. Ölkə qarşısında duran vəzifələrin həyata keçirilməsində Azərbaycan zəhmətkeşlərinin də layiqli payı olduğunu qeyd etdi. Əvvəlki seçkilərdən keçən beş il ərzində respublika təsərrüfat və mədəni quruculuğun bütün sahələrində xeyli irəli getdiyi, 1983-cü ildə Azərbaycan SSR Ümumittifaq sosializm yarışında yenidən, on dördüncü dəfə keçici Qırmızı Bayraqla təltif edildiyi xüsusi vurğulandı.

Qeyd etmək lazımdır ki, bu müvəffəqiyyətlər Heydər Əliyevin vaxtı ilə işləyib hazırladığı beşillik planın həyata keçirilməsi nəticəsində mümkün olmuşdu.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyən vaxtda da Heydər Əliyev əsas diqqətini Azərbaycanda hələ həll edilməmiş problemlərə, istifadə edilməmiş ehtiyat və imkanlara yönəldirdi. O əsas diqqəti istehsalın intensivləşdirilməsi, elmi-texniki tərəqqi məsələləri ləng həll edilməsinə yönəldərək kənd

təsərrüfatında əkinçilik və heyvandarlıqda istehsal mədəniyyətinin daha da yüksəldilməsinə ehtiyac olduğunu göstərirdi.

Heydər Əliyevin seçicilərlə görüşündəki parlaq nitqi Azərbaycan rəhbərliyi üçün mühüm proqram sənədi idi.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin rəhbərlik etdiyi sahələrdən biri də təhsil məsələsi idi. On birinci çağırışı SSRİ Ali Sovetinin birinci sessiyasında (aprel 1984-cü il) Təhsil üzrə İslahat Komissiyasının sədri Heydər Əliyev "Ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri haqqında" məruzə ilə çıxış edərək, Sovet İttifaqında təhsil sistemində qarşıya qoyulan islahatları hərtərəfli işıqlandırmış, onun təhsil sisteminin inkişafında əhəmiyyətini əsaslandırmışdı.

SSRİ Ali Soveti Heydər Əliyevin "Ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri haqqında" məruzəsini dinləyib müzakirə etdikdən sonra qeyd etmişdi ki, müzakirəyə təqdim edilən məruzənin ölkənin, cəmiyyətin iqtisadi, sosial-siyasi və mənəvi tərəqqisində çox mühüm əhəmiyyəti vardır. Məktəb islahatlarının əsas istiqamətləri ümumxalq müzakirəsində bəyənilmiş və müdafiə edilmişdi. 1984-cü il aprelin 12-də SSRİ Ali Soveti Heydər Əliyevin məruzəsi əsasında "Ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri"ni bəyənməsi haqqında qərar qəbul etmişdi. Qərarda islahatın həyata keçirilməsi sahəsində təhsil sistemi ilə əlaqədar olan bütün qurumlar, təsisatlar qarşısında təxirəsalınmaz, perspektiv vəzifələr qoyulur, islahatın həyata keçirilməsi mexanizmi, təhsil işçilərinin vəzifələri göstərilirdi.

Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin imzaladığı SSRİ Nazirlər Sovetinin 1985-ci il 3 sentyabr tarixli sərəncamı ilə Bakıda Azərbaycan SSR Səhiyyə Nazirliyinin Mamalıq və Ginekologiya Elmi-Tədqiqat İnstitutu yaradılmış, Azərbaycan SSR Səhiyyə Nazirliyinin Bakıdakı N.K.Krupskaya adına Ana və Uşaqları Mühafizə İnstitutu Azərbaycan SSR Səhiyyə Nazirliyinin N.K.Krupskaya adına Pediatriya İnstitutuna çevrilmişdi.

Heydər Əliyevin zəngin təcrübəsini, bacarığını, işin öhdəsindən layiqincə gəlməsini nəzərə alaraq SSRİ Nazirlər Sovetinin Rəyasət Heyətinin 5 iyun 1985-ci il tarixli iclasının qərarı ilə ona Nazirlər Sovetində SSRİ Yüngül sənayesi, SSRİ Ticarət Nazirliyi, Sentrosoyuz; "B" qrupu sahəsinin inkişafının ümumi məsələlərinə, həmçinin SSRİ ticarət nazirliklərinin məsələlərinə baxılması və nəzarət həvalə edildi.

Yenidənqurma siyasəti dövründə də Heydər Əliyevin zəngin iş təcrübəsindən istifadə olundu. Sov.İKP MK və SSRİ Nazirlər Soveti yenidənqurma siyasətinin həyata keçirilməsində sosial idarəetmə işinin

təkmilləşdirilməsinin zəruriliyini qeyd etmişdi. 1986-cı il oktyabrın 16-da sosial inkişaf üzrə SSRİ Nazirlər Sovetinin bürosunun yaradılması qərara alınmış, SSRİ Nazirlər Sovetinin 1986-cı il 16 oktyabr tarixli qərarı ilə Heydər Əliyev SSRİ Nazirlər Sovetinin sosial inkişaf üzrə bürosunun sədri təsdiq edilmişdi.

SSRİ Nazirlər Sovetinin sosial inkişaf üzrə bürosunun vəzifə və səlahiyyətləri, əhatə sahəsi olduqca geniş, məsuliyyətli idi. O, 12 nazirlik, idarə və komitəyə rəhbərlik edirdi. 1986-2000-ci illərdə iqtisadi və sosial inkişafın cari və perspektiv inkişaf planları layihələrinin işlənməsi və baxılmasında iştirak edir, nazirlik və idarələrin işlərini əlaqələndirir, onların fəaliyyətinin təkmilləşdirilməsi və digər məsələlərlə məşğul olurdu.

SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin 5 sentyabr 1987-ci il tarixli, SSRİ Nazirlər Soveti sədrinin birinci müavinləri arasında vəzifə bölgüsündə qismən dəyişiklik edilməsi qərarı ilə Heydər Əliyevin diqqətinin SSRİ Nazirlər Sovetinin sosial inkişaf üzrə büronun işlərinə yönəldilməsi zərurətindən, SSRİ Nazirlər Sovetində nəqliyyat məsələlərinə rəhbərlik Nazirlər Soveti sədrinin digər birinci müavini Q. Q. Vedernikova tapşırıldı.

M. S. Qorbaçovun başçılığı ilə keçən əsrin 80-ci illərinin sonlarında Sov.İKP MK Siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə qarşı düşmənçilik münasibəti yarandı. Vaxtilə Azərbaycanda cəzalandırılaraq partiyadan və vəzifədən çıxarılanlar da "qəhrəmana" çevrildilər. Onlar Ə. Vəzirovun himayəsi ilə respublika mətbuatına, mərkəzi mətbuata, radio və televiziyaya ayaq açdılar. Özlərini təmizə çıxarmaq üçün hər cür böhtanlara və şantaja keçdilər. Halbuki həmin adamlar Heydər Əliyevin 1969-cu ildən respublikada həyata keçirdiyi prinsipial, insanlara humanist və cinayətkarlara qarşı mübariz siyasəti ilə bir araya sığışa bilməmiş, cəmiyyət həyatının qanuni inkişafı onları süpürüb kənara atmışdı. Böhtançı yazıların qəhrəmanları da həmin adamlar idi. M. Qorbaçovun dəm tutanları o vaxtkı Azərbaycan KP MK-nın birinci katibi Ə. Vəzirov respublikada onları "qəhrəman" kimi üzə çıxarırdı, müdafiə edirdi. Həyat özü onları layiq olmadıqları vəzifə kürsüsündən uzaqlaşdırmışdı. Mərkəzi mətbuatda M. S. Qorbaçova xoş gəlmək üçün başdan-ayağa böhtançı, uydurma və təhqiredici məqalələr çap edilirdi. Onu da qeyd edək ki, bu qərəzli ruhda məqalə yazanlar yalnız bir-iki nəfər idi. Vəzifədən ciddi qüsurlarına görə, sui-istifadə edib cinayət törədənlər idi. "Бурные аплодисменты" *("Литературная газета", 21 sentyabr 1988-ci il);* "В золожниках у клана" *("Социалистическая индустрия", 23 oktyabr 1988-ci il);* "Алиевщина, или Плач по сладкому времени" *("Правда" qəzeti, 4 fevral 1990-cı il)* kimi böhtançı cızma-qaralar meydana çıxmışdı. Respublikada o cızma-qaralara qarşı xalqda böyük mənfi reaksiya yaranmışdı. Bunları təkzib edən məqalələr çap edilirdi. "Бурные аплодисменты" məqaləsinin müəllifi Arkadi Vaksberq respublika Ali Sovetində 10 il

əvvəl, 1978-ci ildə baş vermiş bir hadisəni şişirdərək həmin dövr üçün xarakterik bir hadisə kimi qələmə verməyə can atırdı. 1978-ci ilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin doqquzuncu çağırış doqquzuncu sessiyasında 1979-cu ildə respublikanın sosial-iqtisadi inkişafı üzrə dövlət büdcəsinin müzakirəsində son illərdə qazanılan müvəffəqiyyətlərin üstünə kölgə salmaq niyyətində olan bir nəfər deputatın çıxışına qarşı deputatların əksəriyyətinin etirazını çox təmtəraqlı verməklə o vaxtkı rəhbərlik haqqında neqativ fikir yaratmaq istəyirdi. Lakin hələ 10 il əvvəl Azərbaycan SSR-nin Ali Sovetinin sessiyası həmin çıxışa özünün obyektiv münasibətini bildirmişdi. Sessiyaya sədrlik edən xalq şairi Süleyman Rüstəm deputat Qambay Məmmədovun çıxışına deputatların etirazını görüb "onun çıxışını davam etdirməyə ehtiyac varmı?" sualını verəndə, yerdən "Ehtiyac yoxdur" cavabı verilmişdi. Çıxışa yazılan 60 deputatdan 17-si çıxış edib onun dediklərini rədd etmişdilər. Tarixi reallığı yada salmaq naminə bu çıxışlardan bəzilərini qeyd edək.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov: "Sizə yaxşı məlumdur ki, Azərbaycan zəhmətkeşləri böyük ruh yüksəkliyi ilə işləyir. Biz Heydər Əliyev yoldaşın xidmətlərini xüsusi qeyd edirik... Mənə belə gəlir ki, Məmmədov provokasiya edir və bizim sessiyanın işinə mane olmaq istəyir. MSİ-nin məlumatına şübhə ilə yanaşmaq provokasiyadan başqa bir şey deyildir..."

İ. Qurbanov: (Neftçala rayon partiya komitəsinin birinci katibi) "Məmmədovun çıxışı bizi elə bir vaxtda təəccübləndirir ki, respublikamızın indiki qələbəsinə Leonid İliç Brejnev özü yüksək qiymət vermişdir".

Abşeron rayon partiya komitəsinin birinci katibi T.Hümbətova: "İndi biz bir-birimizin gözünə düz baxa bilərik... Bu, Heydər Əliyevin gərgin əməyinin sayəsində mümkün olmuşdur".

Mirbəşir (indiki Tərtər) rayon partiya komitəsinin birinci katibi D. Məmmədov: "Bizim respublikamızda heç vaxt hələ Heydər Əliyev kimi rəhbər olmamışdır".

Bərdə rayon partiya komitəsinin birinci katibi R. Səfərəliyev: "Azərbaycan partiya təşkilatının müvəffəqiyyətləri yalnız bizim ölkəmizin sadiq oğlu Heydər Əliyevin rəhbərliyi altında mümkün olmuşdur. Belə bir vaxtda isə böhtançı Məmmədov partiyamızın liderinin bizim işimizə nə qədər qiymət verdiyini görmək istəmir. Böhtançı rədd olmalıdır".

Yevlax rayonundan pambıqçı Ş. Əliyeva: "Hətta üç yaşlı uşaq da radiodan eşidir ki, Azərbaycan nə qədər pambıq toplayıbdır. Hansı pripiskadan danışmaq olar? Mən heç bir pripiska eşitməmişəm. Biz Heydər Əliyev yoldaşın kursunu tamamilə müdafiə edirik".

Şamaxı rayon partiya komitəsinin birinci katibi F. Mustafayev: "Əliyev yoldaş bizim fəxrimizdir, bizim respublikanın və xalqımızın dahi oğludur. Burada isə hansısa Məmmədov çıxır və böhtan atmağa başlayır".

Bütün çıxış edənlər Məmmədovu böhtançı adlandırır və cavab verməsini tələb edirlər. Heydər Əliyevin rəhbərlikdən uzaqlaşdırılmasından sonra Q. Məmmədov və başqaları qəhrəman kimi mətbuat səhifələrinə çıxarıldı və bununla da Heydər Əliyevdən qisas almaq kampaniyası başlandı. Lakin heç kəs və heç nə Heydər Əliyevi sındıra, susdura bilmədi. Çünki tarix sübut edib ki, həqiqət həmişə güclü olur, qalib gəlir.

"Социалистическая индустрия" qəzetinin 30 aprel 1989-cu il tarixli nömrəsində Dağlıq Qarabağ Muxtar Vilayəti Xüsusi İdarəçilik Komitəsinin sədri A.Volski ilə aparılan müsahibə haqqında verilən yazı daha çox təhriflər, yalan informasiyalar, böhtanlar, milli münasibətlərin kəskinləşdirilməsi ilə seçilirdi.

Moskvanın, xüsusilə də, M. S. Qorbaçovun göndərdiyi Volski hadisələrin səbəblərini örtbasdır etməyə çalışır və utanmadan Dağlıq Qarabağ hadisələrinin səbəblərini Azərbaycan rəhbərinin, o cümlədən Heydər Əliyevin boynuna yıxmağa cəhd etməkdə heç nədən çəkinmirdi. Tarixi həqiqətlərə qara yaxmaqla, Heydər Əliyevi günahlandırmağa can atmaqla onlar özlərinin tarix və Azərbaycan xalqı qarşısında məsuliyyət daşımadıqlarını göstərirdilər. Heydər Əliyev Sov.İKP MK-nın plenumunda çıxışı zamanı Azərbaycanda rəhbərliyi vaxtı DQMV-də normal, stabil şəraiti yaratdığını, Vilayətin sosial-iqtisadi inkişaf göstəricilərinə görə Azərbaycan və Ermənistanın orta göstəricilərindən xeyli üstün olduğunu dəlillərlə sübut etdi və böhtanlara öz etirazını bildirdi. Ən dəhşətlisi o idi ki, onlar utanmadan göstərməyə çalışırdılar ki, guya Dağlıq Qarabağ uzun illər inkişaf etməmişdir.

Dağlıq Qarabağın ən qədim Azərbaycan torpağı olmasını bilə-bilə özündən müştəbeh olan "filosof" kimi A. Volski belə bir bədnam fikir söyləməyə cəsarət edirdi: "Torpaq bugünkü insanlara, onu əkib-becərənlərə, qulluq edənlərə, ondan məhsul götürənlərə, kim burada ev tikib onlara məxsusdur. Bu mənim şəxsi fikrimdir, mən buna əminəm". Bununla kifayətlənməyərək inandırmağa çalışırdı ki, guya bu gün zonaların, dairələrin sərhədlərini milli inteqrasiya yox, iqtisadi inteqrasiya müəyyən edir. Yeni "nəzəriyyəçi" bilmirdi ki, əvvəllər Dağlıq Qarabağın iqtisadi inteqrasiyası tarix boyu Azərbaycanla, onun paytaxtı Bakı ilə bağlı olmuşdur. İkincisi, milli əlamətlər həmişə olduğu kimi həmin dövrdə də dövlət qurumunun əsasını təşkil edir.

Ermənilərin Moskva himayəçisinin, elçisinin amalı bu idi. Bu isə Dağlıq Qarabağı Azərbaycandan ayırmaqdan başqa bir şey deyildi.

Azərbaycan sovet hakimiyyəti vaxtı Dağlıq Qarabağa Muxtar Vilayət statusunun verilməsindən başlayaraq, onun bütün tarix boyu inkişaf etdirilməsi faktları belə sərsəm fikirləri alt-üst edirdi. Burada bir epizodu qeyd etmək yerinə düşər.

Azərbaycan KP MK və Nazirlər Soveti 1980-ci ilin mayında Dağlıq Qarabağ Muxtar Vilayətinin daha da inkişaf etdirilməsi haqqında xüsusi qərar qəbul etmişdi. Doqquzuncu beşillikdə Dağlıq Qarabağda Sərsəng su-elektrik stansiyası, Ağdam-Xankəndi (Stepanakert) dəmir yolu, qaz kəməri, aeroport tikildi. İri avtotəmir zavodunun tikintisinə başlanmışdı. 1974-cü ildə Xankəndi (Stepanakert) Pedaqoji İnstitutu açılmışdı. Dərslər erməni, Azərbaycan və rus dillərində aparılırdı. Hər il Dağlıq Qarabağdan 30-40 gənc güzəştli şərtlə respublika ali məktəblərinə qəbul edilirdi. Vilayət partiya təşkilatının rus dilində qəzet çıxarılması haqqında xahişi yerinə yetirilmişdi. Dağlıq Qarabağda elmi mərkəz yaradılması Vilayət rəhbərliyinin xahişi ilə Azərbaycan Elmlər Akademiyası tərəfindən həyata keçirilirdi.

1979-cu il yanvar ayında Ağdam-Xankəndi (Stepanakert) dəmir yolu xəttinin açılışı münasibətilə Xankəndində (Stepanakert) DQMV zəhmətkeşlərinin mitinqi keçirilmişdi. Mitinqdə Sov.İKP MK Siyasi bürosunun üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev çıxış edərək demişdi ki, bu gün vilayətin mərkəzi Xankəndilə (Stepanakert) Azərbaycanın paytaxtı Bakı şəhərini birləşdirən dəmir yolu xəttinin açılması böyük bir hadisədir. Bu, Azərbaycan SSR-nin və DQMV-nin sosial-iqtisadi inkişafı planının praktiki həyata keçirilməsinin təzahürüdür.

Ağdam-Xankəndi (Stepanakert) dəmir yolu tikintisinin qısa bir müddətdə başa çatdırılması Azərbaycan rəhbərliyinin DQMV-nin iqtisadi inkişafının sürətləndirilməsinə diqqətinin və qayğısının nəticəsi idi.

Mitinqdən sonra Heydər Əliyev DQMV partiya təşkilatının XXVIII konfransında iştirak etmişdi. Bu onun Dağlıq Qarabağın inkişafına böyük diqqət və qayğısını göstərirdi.

1979-cu il yanvar ayının 16-da Dağlıq Qarabağ Muxtar Vilayəti partiya təşkilatının XXVIII konfransında Heydər Əliyev böyük nitq söyləmişdi. Hesabat məruzəsində və çıxışlarda DQMV-də sosial-iqtisadi inkişafın ümumi mənzərəsi təhlil edildi. Azərbaycan Kommunist Partiyası təşkilatı və respublika hökumətinin muxtar vilayətin inkişafına böyük qayğı göstərdiyi və diqqət verdiyi qeyd edildi.

Heydər Əliyev vilayətin iqtisadi, mədəni inkişafında görülən işlərə yüksək qiymət verdi, əsas diqqəti qarşıda duran vəzifələrin həyata keçirilməsinə yönəltdi. Azərbaycan partiya təşkilatının gələcəkdə də vilayətin sosial-iqtisadi və mədəni inkişafına xüsusi diqqət verəcəyinə əmin etdi...

Bütün bu tarixi xidmətlərə baxmayaraq, artıq fərdi pensiyaçı Heydər Əliyev böhtanlara cavab verməyə məcbur oldu. 1989-cu il aprelin sonunda Sov.İKP MK-nın plenumundakı çıxışında bu böhtanlara cavab verərək bildirdi ki, son dövrdə mətbuat səhifələrində mənim Azərbaycan KP MK-nın birinci katibi işlədiyim dövrdə fəaliyyətimə dair tənqidi məqalələr çap edilir. Əgər onlar obyektiv xarakter daşıyırsa, sağlam mövqedən yazılıbsa, onları qəbul edərdim. Lakin onlar obyektivlikdən də, sağlam mövqedən də uzaq olduğuna görə məndə etiraz hissi doğurur, mənəvi cəhətdən sıxır. Bu məqalələrlə vaxtınızı almaq istəməzdim, amma hesab edirəm ki, deyəm, mən onları qərəzli, qeyri-obyektiv, sübutsuz kimi rədd edirəm.

"Qeyd etmək istəyirəm ki, bütün bu məqalələr mənim Azərbaycanda işlədiyim dövrdə sui-istifadələrə və müxtəlif pozuntulara görə yüksək vəzifələrdən azad edilən və partiya məsuliyyətinə cəlb edilən ayrı-ayrı şəxslərin göstərişi ilə yazılır".

Heydər Əliyev Dağlıq Qarabağ hadisələri ilə əlaqədar ünvanına yazılan böhtanlara tutarlı cavab verirdi. O, Sov.İKP MK plenumunda çıxışında tənqidlərin əsassız və sübutsuz olduğunu göstərmişdi. Çünki Heydər Əliyev 1982-ci ildə Azərbaycandan Moskvaya yüksək vəzifəyə irəli çəkilmişdi, Dağlıq Qarabağ hadisələri isə 1988-ci ildə başlamışdı. Heydər Əliyevin Azərbaycanda işlədiyi vaxtda Dağlıq Qarabağda vəziyyət normal olmuşdu, milli münasibətlər zəminində heç bir neqativ hadisə olmamış, insident baş verməmişdi. Özü tez-tez Dağlıq Qarabağda olmuşdu, xeyirxahlıqla, rəğbətlə qarşılanmışdı və onun qarşısında milli münasibətlər zəminində heç bir məsələ qoyulmamışdı. Yaxud Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxması haqqında heç bir məktub belə daxil olmamışdı.

Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişaf səviyyəsinin göstəriciləri Azərbaycan və Ermənistanın göstəricilərindən üstün olmuşdur.

XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq keçmiş SSRİ-də iqtisadi-siyasi və milli münasibətlərin inkişafının təzadları nəticəsində müttəfiq respublikalarda, o cümlədən, Azərbaycanda dövlət müstəqilliyinə doğru aparan milli-azadlıq hərəkatı başlanmışdı. Hələ bundan xeyli əvvəldən sovet cəmiyyətində başlanan iqtisadi tənəzzül artıq real bir fakt kimi 1980-ci illərin başlanğıcında açıq şəkildə təzahür edirdi. M. S. Qorbaçovun hakimiyyəti illərində *(1984-1991)* həmin dövrü "durğunluq dövrü" adlandıraraq bu vəziyyətdən çıxmaq üçün "yeni" konsepsiyalar işlənib hazırlanmağa, həyata keçirilməyə başlandı.

SSRİ-nin digər respublikalarından fərqli olaraq Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni inkişafının mahiyyəti heç də durğunluq dövrünün spesifik xüsusiyyətlərinin respublikamıza aid olmadığını göstərirdi. Bu dövr əslində Azərbaycanda yüksək inkişafla, coşğun irəliləyişlə səciyyələnirdi. Heydər Əliyevin rəhbərlik etdiyi dövrü əhatə edən illərdə *(1969-1982)* respublikamız bütün sahələrdə keçmiş İttifaqda fərqlənirdi. Ona görə də M. S. Qorbaçovun irəli sürdüyü "yenidənqurma" siyasətinə Azərbaycanı da süni surətdə daxil etməsi respublikamızda mənfi tendensiyalara, arzuolunmaz nəticələrə səbəb oldu. Onun Azərbaycanda coşqun və sürətli inkişafın təşkilatçısı və rəhbəri olan Heydər Əliyevə qarşı qərəzli şəxsi münasibəti vəziyyəti daha ağırlaşdırdı. M. S. Qorbaçovun həyata keçirdiyi ermənipərəst siyasət, Azərbaycan ərazisini ermənilərə "hədiyyə etmək" sahəsindəki xəyanətkarlığı respublikamızda ictimai-siyasi prosesləri daha da mürəkkəbləşdirib, respublikada daxili ziddiyyətlərə geniş yol açdı.

1988-ci ildən Sovet rəhbərliyi tərəfindən süni surətdə qızışdırılan və geniş müdafiə olunan Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün genişlənməsi bir tərəfdən qonşu respublikada separatçılıq hərəkatının güclənməsi ilə bağlı idisə, digər tərəfdən, onların arxasında duran Qorbaçov və onun antiazərbaycan siyasəti yeridən ermənipərəst "komanda"sının respublikamızda genişlənən milli-azadlıq hərəkatının qarşısını almağa yönəldilmiş ümumi "parçala və hökmranlıq et" ənənəvi rus siyasətinin tərkib hissəsi idi.

SSRİ-də rəhbərlik səviyyəsinə yüksəlməyə şans qazanmış Heydər Əliyev Azərbaycandakı proseslərin qarşısını almaqla ermənipərəst M.S.Qorbaçovun qarşısında ən böyük maneələrdən biri idi. Sov.İKP MK Siyasi Bürosunun üzvü, siyasi rəhbərlikdə böyük nüfuz qazanmış Heydər Əliyevin tez-tez dəyişilən SSRİ rəhbərliyində birinci şəxs olması ideyası artıq yüksək dairələrdə müzakirə edilir, etiraf edilirdi. O dövrdə SSRİ-nin görkəmli siyasi xadimlərindən olan Andrey Nikolayeviç Qromıko öz oğlu ilə söhbətində qeyd edirdi ki, "Bizim Siyasi Büroda ancaq üç adam nisbətən cavandır: Romanov, Qorbaçov və Əliyev. Axırıncı mənə daha xoş gəlir. Onun vaxtında Azərbaycan, xüsusən onun kənd təsərrüfatı çox sürətlə inkişaf etmişdir. Əliyev gözəl təşkilatçıdır, təmiz və abırlı adamdır. Amma təəssüf ki, onun namizədliyi istisna olunur...". Oğlunun "Nəyə görə, milliyyətinə görəmi?" - sualına cavabında A. M. Qromıko açıq şəkildə etiraf etmişdi: - "Bu məsələdə - hə. Milliyyətinə görə". SSRİ Dövlət Plan Komitəsinin keçmiş sədri N. K. Baybakov Heydər Əliyevin Moskvada işi barəsində qeyd edir ki, o, bu və ya digər qərarı qəbul etməzdən əvvəl hər şeyi ətraflı ölçüb-biçirdi, məsələni diqqətlə öyrənirdi, mütəxəssislərlə məsləhətləşir və bundan sonra qərar qəbul edirdi. Qərarlar qəbul etdikdən sonra mütləq onları həyata keçirirdi.

"Kaş, bizim Rusiyada da belə adamlar olaydı..."

Azərbaycanın ərazi bütövlüyünün pozulması, ermənilərin respublikamızın ərazisinin bir hissəsini işğal etməsi planı hələ əvvəllərdən hazırlanmışdı. Bu plan M. S. Qorbaçovun yanında və Kremldə mərkəzi rəhbərlikdə oturan ermənilər və ermənipərəst qruplar tərəfindən müdafiə edilirdi, bu mənfur siyasəti həyata keçirmək üçün ciddi hazırlıq işləri görülürdü. Ona görə də M. S. Qorbaçov ermənilərin təhriki ilə ilk növbədə Heydər Əliyevin vəzifədən uzaqlaşdırılmasına çalışırdı.

1987-ci ildə keçmiş SSRİ-nin böyük dövlət və siyasi xadimi Heydər Əliyevin həyatında olduqca çətin bir dövr başlandı. Həmin il oktyabrın 21-də keçirilmiş Sov.İKP MK-nın plenumu haqqında məlumatda deyilirdi ki, "Səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar plenum Sov.İKP MK Siyasi Bürosunun üzvü vəzifəsindən azad edilməsi barədə H. Ə. Əliyev yoldaşın xahişini təmin etmişdir".

Həmin il oktyabrın 24-də "Правда" qəzetində dərc edilmiş məlumatda isə deyilirdi: "SSRİ Ali Sovetinin Rəyasət Heyəti səhhətinə görə pensiyaya çıxması ilə əlaqədar SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilməsi barədə Heydər Əliyev yoldaşın xahişini təmin etmişdir". SSRİ Ali Sovetinin 1988-ci ildə mayın 26-da çıxardığı qətnamədə də göstərilmişdi ki, Heydər Əliyev tutduğu vəzifədən səhhəti və pensiyaya çıxması ilə bağlı azad edilib.

SSRİ kimi böyük bir ölkədə vicdanla işləyən, işində heç bir qüsuru olmayan, bütün dünyada tanınan və böyük siyasi nüfuza malik olan görkəmli siyasi və dövlət xadimi haqqında bu məlumatlar tezliklə bütün dünyaya yayıldı, böyük əks-səda doğurdu.

Türkiyəli publisist İrfan Ülkü "Qızıl ulduzdan hilala doğru" kitabında bu məsələdən danışarkən yazır: "Əliyevin Siyasi Büro üzvlüyündən istefa verməsi, bütün vəzifələrindən əl çəkməsi xəbəri Azərbaycana yayılanda bütün ölkəni yas və gərginlik bürüdü. Azərbaycanın "Müasir Dədə Qorqud"u sayılan şair Bəxtiyar Vahabzadə bu xəbəri eşidəndə oturduğu kreslosunda çöküb: "Eyvah, Moskvadakı yeganə və ən böyük qalamız yıxıldı", - deyə təəssüflənmişdi".

Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən öncə, ermənipərəst M.S.Qorbaçovun Azərbaycana qarşı mənfur siyasətini reallaşdırmaq üçün əvvəlcədən düşünülmüş planlarını həyata keçirmək kimi çirkin məqsədindən irəli gəlirdi. H. Ə. Əliyev 1990-cı il fevralın 9-da Rusiya televiziyasının aparıcısı Andrey Karaulovla söhbətində iştirak edən "Vaşinqton post" qəzetinin Moskva müxbiri Devid Remnikin sualına cavabında həmin səbəbləri belə izah edirdi: "Səbəblər odur ki, işlədiyim son dövrdə Qorbaçov tərəfindən özümə qarşı qeyri-səmimi münasibət hiss edirdim. Bu, çox şeydə özünü büruzə verirdi. Mən vicdanla işləyirdim, işimdə heç bir qüsur görmürdü. M. Qorbaçov isə subyektiv hisslərinin əsiri oldu,

vəssalam". Heydər Əliyevin istefaya göndərilməsinin səbəblərindən biri də SSRİ-nin siyasi rəhbərliyini ələ almış erməni lobbisinin, erməni mafiyasının təsiri və təzyiqi idi. Onların bu işdə məqsədləri və çoxdan hazırlanmış niyyətləri var idi. Lakin bu işə bizim bəzi milli bədxahlarımız və manqurtlarımız da qoşulmuşdular.

Heydər Əliyevin rəhbərlikdən uzaqlaşdırılmasının əsl səbəbləri tezliklə aşkar oldu. O, bu haqda demişdi ki, "Siyasi bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbeqyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" - demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm".

Heydər Əliyev hələ istefaya getməzdən bir neçə ay əvvəldən erməni millətçiləri, erməni mafiyası tərəfindən ona qarşı yönəldilən təhlükələrlə, hədə-qorxularla qarşılaşır və mərdliklə onları dəf edirdi. O yazırdı ki, mən 1987-ci ilin may ayında xəstələndim, sağalandan sonra 1-2 ay işlədim. O dövrdə Ermənistandan bir məktub aldım. Müəllifi Qarabağ Cəmiyyətinin rəhbərlərindən olan İqor Muradyan idi. Məktubda mən təhqir olunur, hədələnirdim. O, bildirirdi ki, mənimlə mübarizə aparacaqlar, çünki Qarabağın Ermənistana verilməsinə mane oluram.

Zori Balayan Ermənistanda rus dilində çıxan "Боль и надежда Арцаха" adlı məqaləsində Heydər Əliyev haqqında çox hədyanlar yazır, Qarabağın Ermənistana verilməməsində onu günahlandırırdı. Məqalədə göstərilirdi ki, S.Kaputikyanla o, Heydər Əliyev haqqında Moskvaya cürbəcür məktublar göndərib, İ.Muradyan isə Heydər Əliyevin məhkəməyə cəlb olunmağını tələb etmişdir. Heydər Əliyev qeyd edirdi: "Sonralar bildim ki, Moskvada işləyərkən erməni millətçiləri Balayan, Kaputikyan, Muradyan mənim haqqımda cürbəcür məktublar göndərmişlər".

Pensiyaya çıxdıqdan sonra Heydər Əliyev Moskvada ciddi nəzarət altında, təqiblər şəraitində fəaliyyət göstərirdi. 30 il sıralarında fəaliyyət göstərdiyi Dövlət Təhlükəsizliyi Komitəsi də onu sovet quruluşu əleyhinə olan bir şəxs kimi təqib etməyə başlamışdı. Təxribat yolu ilə onu aradan götürməyə və bununla da mübarizəni dayandırmağa məcbur etmək istəyirdilər. Lakin Heydər Əliyevi heç nə susdura bilmədi. O, 1988-ci ildə "Литературная газета"da onun haqqında dərc edilmiş böhtançı yazıya cavab göndərdi. İmkan düşdükcə rəsmi

yerlərdə, xüsusilə 1989-cu ilin aprel ayında Sov.İKP MK plenumunda dərin məzmunlu çıxışında mətbuat səhifələrindəki qərəzli yazılara tutarlı cavab verdi...

Heydər Əliyev həmin plenumdakı çıxışında demişdi: "Bakıda və Moskvada çalışarkən mən doğru-düzgün və vicdanla işləmişəm, vaxtıma qənaət etmədən işləmişəm, özümü bütünlüklə işə həsr etmişəm, heç kimi təqib etməmişəm, heç bir tayfam, dəstəm olmamışdır, sui-istifadələrə, mənfi hallara qarşı fəal mübarizə aparmışam və nəticədə özümə çoxlu düşmən qazanmışam, geniş ürək infarktı keçirmişəm".

Heydər Əliyev cismən Moskvada yaşasa da, qəlbən Azərbaycanda idi. "Səkkiz il ərzində mən Azərbaycanda olmamışam, amma ürəyim Azərbaycanla, Azərbaycan xalqı ilə olub". Qarabağ məsələsi ortaya atılan vaxt Moskvada bu məsələ onu ciddi narahat edirdi. Sov.İKP MK-nın baş katibi M.S.Qorbaçovla, onunla mümkün olmadıqda Liqaçovla, Çebrikovla, Kryuçkovla görüşüb Qarabağ məsələsinin həll edilməsi barəsində danışmaq istəmişdi. "Əlimdə sənədlər, sübutlar var, Qarabağ Azərbaycanın öz torpağıdır - deyirdim. Onların mənə cavabı isə bu idi: "Biz Qarabağda erməni - azərbaycanlı münaqişəsi ilə bağlı problemi özümüz həll edəcəyik".

Əslində erməni təcavüzünün qarşısını almaq üçün İttifaq dövləti və şəxsən M.S.Qorbaçov heç bir tədbir görmək istəmir, müxtəlif yollarla yalançı çıxışlarla ermənilərin təcavüzünün güclənməsinə şərait yaradırdı, öz fəaliyyəti ilə Dağlıq Qarabağı Ermənistanın tabeliyinə keçirirdi.

Azərbaycana o zaman rəhbərlik edən şəxslər, hakimiyyət orqanları da Moskva hökuməti qarşısında acizlik göstərirdi. Azərbaycan rəhbərliyinin fəaliyyətsizliyi, təslimçilik mövqeyi Qarabağda Ermənistanı mövqeyini möhkəmləndirirdi. Ermənilər Qarabağ məsələsində addım-addım irəliləyirdi. Azərbaycanda hakimiyyət davası, xəyanətkarlıq, satqınlıq və səriştəsiz rəhbərlik nəticəsində nəinki Dağlıq Qarabağ Muxtar Vilayəti, həmçinin ora daxil olmayan, keçmiş vilayətin ətrafında yerləşən ərazilər, rayonlar da işğal edilirdi.

Heydər Əliyevin 1987-ci il oktyabrın 21-də Sov.İKP MK-nın siyasi bürosundan istefa verməsindən 15 gün sonra əvvəlcədən hazırlanmış qondarma "Dağlıq Qarabağ məsələsi" irəli sürülmüşdüsə də, bundan üç ildən çox müddət keçməsinə baxmayaraq, "Dağlıq Qarabağ məsələsi" nə Azərbaycan SSR Ali Sovetinin sessiyasında, nə də başqa hakimiyyət orqanlarında bir ümummilli məsələ kimi ciddi və hərtərəfli müzakirə edilməmiş, təsirli tədbirlər görülməmişdi.

1987-ci ilin son aylarında "Qarabağ məsələsi" qalxdı, onda da qarşısı alına bilərdi, lakin alınmadı. 1988-ci ilin fevral ayında yenə böhran yarandı, onda da qarşısını almaq mümkün idi. Ancaq alınmadı. Ona görə də

erməni millətçiləri Dağlıq Qarabağı ələ keçirmək üçün güclü siyasi kompaniyaya başladılar. Azərbaycan rəhbərliyi o kompaniyanın qarşısını ala bilmədi. M. S. Qorbaçov və onun komandası da erməniləri dəstəklədi. Mərkəz addım-addım Dağlıq Qarabağı Azərbaycandan ayırmağa başladı. 1988-ci ilin mart ayında Sov.İKP MK, SSRİ Nazirlər Soveti Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı üçün qərar qəbul etdilər. Həmin qərarda Ermənistan Respublikasının rəhbərliyinə Dağlıq Qarabağın işlərinə qarışmaq üçün ixtiyar verilirdi. Heydər Əliyev tamamilə düzgün olaraq o qərarı "Azərbaycan Respublikasının, Azərbaycan xalqının, necə deyərlər, kürəyinə süngü sancmaq" kimi qiymətləndirirdi.

Sonrakı proseslərlə bağlı aşağıdakıları qeyd etmək olar. 1988-ci ilin iyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə olundu. Azərbaycandan olan deputatlarla yanaşı, qanuna zidd olaraq Ermənistandan olan deputatlar eyni hüquqda orada iştirak edirdilər. Heydər Əliyev Ermənistan deputatlarının sessiyada iştirakının təmin edilməsini tamamilə qeyri-qanuni hesab edir və göstərirdi ki, "Axı Ermənistan Respublikasından olan deputatlar nə hüquqla orada iştirak etməli idilər?" Bu da M.S.Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan oldu.

1989-cu il yanvarın 12-də SSRİ Ali Sovetinin Rəyasət heyəti "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında" fərman vermişdi. İttifaq rəhbərliyinin bu addımı Azərbaycan xalqına qarşı ən böyük xəyanət kimi qeyd edilməlidir. Dağlıq Qarabağda A.Volskinin xüsusi idarə üsulu yaradıldı. Ermənipərəst Arkadi Volskinin başçılıq etdiyi Xüsusi İdarə Komitəsi birbaşa Moskvaya tabe idi. Dağlıq Qarabağda Azərbaycanın bütün dövlət və ictimai orqanların səlahiyyəti dayandırıldı. XİK-nin fəaliyyəti nəticəsində DQMV Azərbaycandan, demək olar ki, ayrı salındı, eyni zamanda azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlandırılmasına və silahlı quldur dəstələrinin yaradılmasına geniş imkan verildi. Dağlıq Qarabağa qonşu olan keçmiş Şaumyan və Xanlar rayonlarının ərazilərində də ermənilərin silahlı dəstələri yaradılmışdı. XİK və Sovet Ordusunun köməyi ilə iyul ayında Xankəndində yaşayan bütün azərbaycanlılar oradan qovulub çıxarıldı.

Heydər Əliyev Azərbaycanın o zamankı siyasi rəhbərliyinin fəaliyyətindən təəssüflənir və qeyd edirdi ki, o dövrdə Azərbaycanın siyasi rəhbərliyi bu idarənin yaranmasını böyük qələbə kimi qiymətləndirir və bu idarəyə çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında SSRİ Ali Soveti tərəfindən 1989-cu il noyabrın 28-də A.Volskinin antiazərbaycan üsul-idarəsi ləğv olundu.

Azərbaycanda isə xalq hərəkatına ilk vaxtlar səriştəsiz rəhbərlik, separatçılıq, xəyanətkarlıq və digər mənfi hallar respublikanı ağır siyasi vəziyyətə salmışdı.

Mərkəzi hakimiyyətdə oturan M.S.Qorbaçov və onun ermənipərəst ətrafı bir tərəfdən Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsinə şərait yaradır, digər tərəfdən isə, Azərbaycanda genişlənən milli-azadlıq hərəkatını boğmaq üçün müxtəlif vasitələrə əl atırdılar.

Beləliklə, Azərbaycanda milli-azadlıq mübarizəsi bir tərəfdən müstəqillik əldə etmək tələbləri ilə genişlənirdisə, digər tərəfdən, Ermənistan tərəfindən Azərbaycan torpaqlarını işğaldan qorumağa, erməni təcavüzünün qarşısını almağa yönəldilirdi. Erməni təcavüzü get-gedə daha da fəallaşırdı. Bütün bunlar "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün Azərbaycana qarşı, azərbaycanlılara qarşı geniş miqyaslı hərbi təcavüzə, kütləvi qırğınlara çevrilmişdi. 1988-ci ilin fevral ayının 19-da Yerevan şəhərində keçirilən mitinqdə "Ermənistanı türklərdən (Azərbaycan türklərindən ) təmizləməli", "Ermənistanda ancaq ermənilər yaşamalıdır" və s. şüarlar səsləndi və tələblər irəli sürüldü. Dağlıq Qarabağda erməni millətçilərinin zorakılıqları və siyasi aksiyaları genişlənməyə başladı. Xankəndində mitinqlər, nümayişlər keçirilir, Dağlıq Qarabağı Azərbaycandan ayırmaq və Ermənistana birləşdirmək tələbləri irəli sürülürdü. Yerevanda əvvəl gizli, sonradan *(1987-ci ilin oktyabrından)* açıq fəaliyyətə başlayan "Qarabağ Komitəsi" Azərbaycanda, xüsusilə Dağlıq Qarabağdakı yerli təşkilatları vasitəsilə güclü separatçılıq təbliğatı aparır, "Krunq" ("Durna") adı altında açıq fəaliyyət göstərirdi. Ermənilər içərisində "Miatsum" ("Birləşmə") ideyası yayılırdı.

Azərbaycanda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən təxribatlar, terror aktları, qəsdlər ictimai-siyasi vəziyyəti getdikcə gərginləşdirirdi. Hələ 1986-cı ildə ermənilərin xüsusi silahlı dəstələri Ermənistanın Qafan və Mehri rayonlarında yaşayan azərbaycanlıları zorla qovub çıxartmışdılar. İlk qaçqınlar Azərbaycana pənah gətirmiş, Sumqayıt şəhərində və onun ətrafında məskunlaşmışdılar. Qorbaçov başda olmaqla mərkəzdə oturan ermənipərəst rəhbərlər və ermənilər isə münaqişənin qarşısını almaq əvəzinə, hadisələri daha da qızışdırırdılar. Moskvadan göndərilən nümayəndələr isə sözdə erməniləri və azərbaycanlıları sakitləşdirməyə, dostluq şəraitində yaşamağa çağırır, əslində heç bir əməli tədbir görmür, erməni separatçılarının xeyrinə fəaliyyət göstərirdilər. İki xalqı qarşı-qarşıya qoymaqla artıq başlanmış milli-azadlıq hərəkatını yatırtmağa çalışırdılar. 1988-ci ilin fevralında Azərbaycanda siyasi vəziyyət xarici və daxili qüvvələrin təsiri ilə olduqca gərginləşmişdi. Milli münasibətlər, erməni və azərbaycanlılar arasında qan tökülməsi ilə nəticələnmişdi. Fevralın 24-də Dağlıq Qarabağ Muxtar Vilayətinin Əsgəran rayonunda 2 nəfər gənc azərbaycanlı ermənilər tərəfindən öldürülmüş, 19 nəfər yaralanmışdı. Fevralın 27-28-də Sumqayıtda ermənilər tərəfindən planlı şəkildə irəlicədən düşünülmüş qırğın törədildi. Bunun da təşkilatçısı ermənilər idi. Məqsəd Azərbaycanı dünyada təcavüzkar ölkə kimi qələmə vermək və bu yolla özlərinin antiazərbaycan siyasətinə haqq qazandırmaq idi. Sumqayıtda hələ fevralın 20-dən Ermənistanda azərbaycanlılara qarşı edilən

vəhşiliklərlə əlaqədar mitinqlər başlamışdı. Təhrikçi qüvvələr bundan istifadə etməyə başladı. Sonradan məlum oldu ki, hadisə törədilənə qədər bütün varlı ermənilər əmanət kassalarından öz pullarını götürüb getmişdilər. Fevralın 27-də Sumqayıtda böyük mitinq oldu. Səhəri günü əvvəlcədən hazırlanmış ssenari üzrə erməni talanları başlandı. Sumqayıt hadisələrinin təşkili və gedişi də ermənilərlə bağlı idi. Ermənilər bu hadisəni törətməklə Qarabağ hadisələri barəsində ermənilərin xeyrinə dünyada hay-küy qaldırmaq və azərbaycanlıları günahkar kimi tanıtmağa çalışırdılar. Özünü azərbaycanlı kimi qələmə verən E. Qriqoryan adlı erməni qırğının əsas təşkilatçısı idi. O özü beş erməni öldürmüşdü. Cəmi 32 nəfər öldürülmüşdü ki, bunlardan 26 nəfəri erməni, 6 nəfəri azərbaycanlı idi.

Sumqayıt hadisələrinin ermənilər tərəfindən irəlicədən təşkil edildiyi bir də onunla sübut edilir ki, hadisə baş verən yerlərdə hadisəni bütün dünyaya çatdırmaq üçün əvvəlcədən çoxlu telefoto operatorlar, jurnalistlər yerləşdirilmişdi. Nəzərdə tutulan plan həyata keçirildi. Düşünülmüş, düzəldilmiş Sumqayıt hadisələri saxtakarlıqla, uydurmalarla dünyaya yayıldı.

Milli azadlıq hərəkatının mərkəzi olan Bakıda da 1990-cı ilin yanvarında Sumqayıt ssenarisinə uyğun təxribatlar hazırlanmışdı. Bakıda yerli milis tərk-silah edilmişdi, mərkəzdən daxili qoşun hissələri şəhərə gətirilmişdi. Bakıda əhalinin müqavimətini qırmaq üçün planlı şəkildə hazırlıq görülmüşdü. 1990-cı il yanvarın 13-də Bakıda bir ermənini iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas səbəb oldu.

Ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən tədbir görülmədi. Çünki hakimiyyət orqanları iflic vəziyyətində idi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Hadisələrin qarşısını almaq üçün yerli hüquq-mühafizə orqanlarından istifadə etmək olardı. Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışan Ə.Vəzirov bu aksiyaların nəinki qarşısını almaqda acizlik göstərdi, çünki onu heç kəs eşitmirdi. Əslində o, bunları bəhanə edərək sovet qoşunlarının Azərbaycana müdaxiləsinə şərait yaratmaq, xalq hərəkatını yatırtmağa və ona rəhbərlik edənlərə, xüsusilə Xalq Cəbhəsi üzvlərinə divan tutmağa çalışırdı. Yanvarın 14-də Azərbaycan KP MK-nın bürosunda vəziyyət müzakirə edildi və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Soveti sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda və sərhəd boyunda fövqəladə vəziyyət elan edilməsi, eləcə də lazım gələrsə, mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul edildi. Azərbaycan SSR Ali Sovetinin Rəyasət heyətinin müraciəti ilə SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də "Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Eyni zamanda SSRİ Ali Soveti respublikanın Bakı, Gəncə şəhərlərində, eləcə də, başqa yaşayış məntəqələrində

qadağan saatlarının tətbiq edilməsi və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

Mərkəzdən Azərbaycana, xüsusilə Bakı ətrafına əlavə qoşun hissələri, hərbi texnika gətirilməyə başlandı. Bununla da Bakı şəhərinə qoşun yeridilməsinə hazırlıq əməliyyatları üçün ilkin tədbirlər görüldü. Xalq Cəbhəsi guya ordunun şəhərə daxil olmasının qarşısını almaq üçün şəhərin girəcəklərində və Bakı qarnizonu ətrafında sədlər, barrikadalar yaratmağa başladı. Yük və minik maşınları, avtobus və trolleybuslardan və başqa vasitələrdən barrikadalar quruldu, piketlər düzəldildi. Az keçmədi ki, 20 Yanvar Bakı qırğınında bu düzgün olmayan taktika çoxlu sayda dinc əhalinin qırılmasına, yaralanmasına və itkin düşməsinə səbəb oldu.

Yanvar hadisələri ərəfəsində Moskva hökuməti SSRİ Ali Soveti ittifaq Sovetinin sədri Y.Primakovu və Sov.İKP MK katibi A.Girenkonu Bakıya göndərmişdi. Onlar AXC-nin həm radikal, həm də liberal qanadlarının nümayəndələri ilə görüşlər keçirdi, lakin nəticəsi olmadı.

Yanvarın 17-də isə Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürülmüşdü. Mitinqdə xalqa xəyanətdə günahlandırılan respublika partiya və dövlət hakimiyyəti rəhbərləri üçün simvolik dar ağacları qurulmuşdu. Onsuz da siyasi müqəvvaya çevrilmiş Ə. Vəzirovun yerinə namizədlərin irəli sürülməsi məsələsi hərraca qoyulmuşdu.

Mitinqlər Azərbaycanın başqa yerlərində də geniş miqyas almışdı. Mərkəz Naxçıvan MR-ə da təzyiq göstərmək üçün cəhdlər etsə də, buna nail ola bilmədi. Xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti 1990-cı il yanvarın 19-da SSRİ tərkibindən çıxmaq haqqında qərar qəbul etdi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət heyəti Konstitusiyaya zidd olaraq Azərbaycan SSR Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Fövqəladə vəziyyətin başlanma vaxtı gizlin saxlanıldı. Moskvanın və respublikanın səlahiyyətli nümayəndələri isə ordunun şəhərə girməyəcəyi haqqında xalqa yalan vədlər verirdilər. Fərmanda yanvarın 20-si saat 00-da fövqəladə vəziyyət elan edilməsinə (əslində fövqəladə vəziyyət haqqında fərman yanvarın 20-də saat 06:00-da elan edilmişdi) baxmayaraq, yanvarın 19-da saat 21:00-da Türkan-Qala tərəfdən şəhərə ilk qoşun yeridildi. Bakı qarnizonunun əsgərləri, gətirilən hissələr, hərbi gəmilərdə saxlanılan desant

hissələri də şəhərə yeridildi. Bakıdakı bu əməliyyatlara keçmiş SSRİ müdafiə naziri D.Yazov özü rəhbərlik edirdi.

Qanlı 20 Yanvarda Bakıda və digər yaşayış məntəqələrində sovet ordusunun basqını vaxtı 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuşdu.

Ümumiyyətlə, Azərbaycanda siyasi vəziyyətin faciəli xarakter almasının əsas səbəbi ondan ibarət idi ki, Azərbaycan rəhbərliyi, şəxsən Ə. Vəzirov azadlıq hərəkatının qarşısını almaq, erməniləri müdafiə etmək, Qorbaçov qarşısında qulluq göstərmək üçün müxtəlif tədbirlərə əl atırdı. Azərbaycanda Moskvanın elçisi kimi fəaliyyət göstərən Ə. Vəzirovun zor işlətmək, təzyiqlər etmək, təxribatlar törətmək, həbslər keçirmək, erməniləri müdafiə etmək, mərkəzə müraciətlər etməklə oradan kömək göndərilməsini təşkil etmək kimi antimilli fəaliyyət göstərməsi geniş miqyas almışdı. Bundan əlavə, M. S. Qorbaçovun elçisi olan Ə.Vəzirov azadlıq hərəkatının diqqətini əsas tələblərdən uzaqlaşdırmaq məqsədi ilə özünün "Azərbaycanı kompüterləşdirmək", "ekoloji təmizlik həyata keçirmək", "kəndlərdə hamam tikmək" kimi gülünc və ağılsız "proqramları" ilə çıxış edirdi.

1990-cı il yanvarın 20-nə keçən gecə Azərbaycanda milli azadlıq mübarizəsini boğmaq məqsədilə Bakıya iri qoşun hissələri yeridildi və əhali silahdan keçirildi. Günahkar Ə. Vəzirov Azərbaycandan qaçmışdı, digər Azərbaycan rəhbərləri isə susurdu. Moskvada təzyiq və təqiblər altında yaşayan pensiyaçı Heydər Əliyev səhər tezdən bundan xəbər tutub, çox həyəcan keçirdi və qəzəbləndi. Ertəsi gün yanvarın 21 -də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək yığıncaqda çıxış etdi, 20 Yanvar hadisəsinə öz kəskin etirazını bildirdi, doğma xalqına başsağlığı verdi, onunla həmrəyliyini ifadə etdi. O demişdi: "Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvadakı kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətini bildirmək istəyirəm. Azərbaycanın Moskvada daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın".

Heydər Əliyev ilk dəfə olaraq 20 Yanvar hadisəsinə yeganə düzgün siyasi qiymət verdi: "... Mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm". Eyni zamanda onun müqəssirlərini göstərdi. İlk növbədə Azərbaycan Kommunist Partiyası MK-sının birinci katibi Ə.Vəzirovu ittiham etdi. Heydər Əliyev çıxışında göstərirdi ki, o, Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi kimi yüksək vəzifədə olduğu müddətdə vəziyyəti

sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə yaramaz iş üslubu, fırıldaq, siyasi manevrləri ilə vəziyyəti daha da gərginləşdirmişdi. Haqlı olaraq onun istefası tələbi irəli sürülürdü. Qoşun yeridilməsinə çalışırdı. Bakı şəhərinə ordu yeridildikdən, əhali silahdan keçirildikdən sonra Vəzirov Bakıdan qaçmışdır.

Heydər Əliyev qeyd edirdi ki, Sovet Ordusunun, SSRİ DİN-in böyük kontingentinin Bakı şəhərinə yeridilməsi haqqında qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Ona görə də qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır. Heydər Əliyev Azərbaycan xalqına başsağlığı göndərdi. Çox çətinliklə Bakıya, bəzi şəxslərə zəng vuraraq rica etdi ki, başsağlığı Azərbaycan qəzetlərində dərc edilsin, yaxud matəm mitinqində oxunsun. Lakin, təəssüf ki, bu xahişlərin heç birinə əməl edilmədi. Bu çıxış 20 Yanvar hadisələri haqqında ilk düzgün siyasi qiymət idi. Azərbaycan rəhbərliyi hələ bir müddət buna lazımi siyasi qiymət verməsə də, sonralar yenə də məhz Prezident Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra onun təkidi və tələbi ilə 20 Yanvar faciəsinə düzgün və əsaslandırılmış siyasi qiymət verdi.

Bakı şəhərinə qoşun yeridilməsi və qanlı faciələr əhalinin ciddi nifrət və etirazına səbəb oldu. Əhali həyəcan içərisində idi. Fövqəladə vəziyyət şəraitində fəaliyyət göstərmək olduqca çətin idi. Deputatların bir hissəsinin təşəbbüsü ilə, xüsusilə xalq şairi Bəxtiyar Vahabzadənin, yazıçılardan Anar və mərhum İsmayıl Şıxlının tələbi ilə 1990-cı il yanvarın 21-22-də Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar fövqəladə sessiyası çağırıldı. Sessiya Bəxtiyar Vahabzadənin sədrliyi ilə Azərbaycan Elmlər Akademiyasının böyük dairəvi akt zalında keçirildi.

Azərbaycan SSR Ali Sovetinin "Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında" qərarında 20 Yanvar faciəsinə tam olmasa da, siyasi qiymət verilməsinə müəyyən təşəbbüs göstərildi. Belə ki, qərarda Sovet Ordusu qoşun bölmələrinin respublikaya yeridilməsi, onun "respublikanın paytaxtı Bakı şəhərində dinc əhaliyə qanlı divan tutması, yüzlərlə adamın öldürülməsi və yaralanması ilə əlaqədar Azərbaycan xalqının qəzəb və hiddətini ifadə edərək, SSRİ-nin ali hakimiyyət orqanları tərəfindən SSRİ-nin təşkili haqqında müqavilənin şərtlərinin və SSRİ Konstitusiyasının kobud surətdə pozulduğunu, suveren Azərbaycan Sovet Sosialist Respublikasının razılığı olmadan Bakı şəhərində fövqəladə vəziyyət elan olunması və buraya qoşunlar yeridilməsi haqqında qərar çıxarıldığını, bunun da nəticəsində Azərbaycan SSR-in suveren hüquqlarının açıq-aşkar tapdalandığını təsdiq edərək" qəbul etdiyi qərarda SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar tarixli fərmanını Azərbaycan SSR-in suverenliyinə qarşı təcavüz aktı, Bakıda və onun ətrafında yüzlərlə adamın ölümünə və yaralanmasına səbəb olan bu fərmanın icrasına sərəncam vermiş adamların hərəkətləri Azərbaycan xalqına qarşı cinayət kimi qiymətləndirildi. Eyni zamanda qərarda Dağlıq Qarabağ

Muxtar Vilayəti və Ermənistanla həmsərhəd rayonların sərhəd zolaqları istisna olmaqla, Bakı şəhərində və Azərbaycan SSR-in digər rayonlarında fövqəladə vəziyyət rejiminin dayandırılması, bütün qoşun hissələri və bölmələrinin Bakı şəhərindən və respublikanın rayonlarından ən qısa müddətdə çıxarılması, vətəndaşlara qanlı divan tutulmasının bilavasitə təşkilatçılarını, müqəssir olanları aşkar etmək üçün deputat istintaq komissiyası yaradılması tələb olunurdu.

Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermək məsələsi Azərbaycan KP MK-nın ilk partiya təşkilatında da irəli sürülmüşdü. Partiya təşkilatının bəzi üzvlərinin tələbi ilə (Ç. Həsənov, A. Nəsibov, N. Ramazanov və başqaları) ilk partiya təşkilatının yığıncağı keçirilmiş, yığıncaqda MK-nın birinci katibi Ə.Vəzirovun Sov.İKP sıralarından azad edilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi məsələsi qoyulmuş və 20 Yanvar hadisəsinə geniş siyasi qiymət verilməsi tələbi irəli sürülmüşdü. Lakin bu məsələ də sonralar ört basdır edilmişdi.

1990-cı il yanvarın 24-25-də Azərbaycan KP MK-nın plenumu keçirildi. Plenumda yanvar hadisələrinin və respublikada yaranmış ictimai-siyasi vəziyyətin müzakirə edilməsi məsələsi irəli sürüldü. Plenum bəzi iştirakçıların təkidi ilə "Respublikada siyasi vəziyyət haqqında" məsələni müzakirə etdi. Bu məsələnin müzakirəsi zamanı Azərbaycanın suverenliyinə qarşı təcavüzə, sovet qoşunlarının heç bir qanuna sığmayan hərəkətlərinə siyasi qiymət verilməsini tələb edən partiya üzvlərinin tələbləri nəzərə alınmadı. İclasa sədrlik edən Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçkonun və başqa rəhbərlərin təzyiqi ilə bu məsələ barəsində qərar qəbul edilmədi. Plenum yalnız 19-20 yanvarda Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi səbəblərini araşdırmaq üçün komissiya yaratmaqla kifayətləndi. Plenumda Azərbaycan KP MK-nın ilk partiya təşkilatının keçmiş birinci katibi Ə. Vəzirovun partiya sıralarından xaric olunması və onun fəaliyyətinin xalqa zidd kimi qiymətləndirilməsi haqqında qərarına da laqeyd yanaşılmışdı. Nəticədə onun yalnız tutduğu vəzifədən azad edilməsi və onun işlədiyi dövrdəki fəaliyyətini öyrənmək üçün komissiya yaradılması haqqında qərar qəbul edilmişdi. Sonralar isə Azərbaycan KP MK-nın növbəti plenumunda Ə. Vəzirovun tərəfdarlarının səyləri nəticəsində bu qərar xeyli yumşaldılmış, bununla keçmiş birinci katib məsuliyyətdən xilas edilmişdi. Belə ki, 1990-cı il yanvarın 24-də Azərbaycan KP MK-nın plenumunda Ə. Vəzirovun fəaliyyətini yoxlamaq üçün yaradılan komissiyanın hazırladığı məlumata yalnız Mərkəzi Komitənin 2 iyun 1990-cı il tarixli plenumunda baxıldı. Əsas günahkar Ə. Vəzirova "cəza" verildi və Azərbaycan KP MK-nın üzvlüyündən azad edildi.

Beləliklə, Azərbaycan KP MK-nın 1990-cı il yanvar, mart və iyun plenumlarında da 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmədi, günahkarlar aşkar edilmədi, bununla da məsələnin üstü ört-basdır edildi.

1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Soveti fövqəladə vəziyyətin ləğv edilməsi haqqında fərman verdi. Bu tarixi faktı yada salmalıyıq ki, Ali Sovetin 22 yanvar 1990-cı il tarixli sessiyasında "SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali Sovetlərinə, Sovet İttifaqı xalqlarına, dünyanın bütün ölkələrinin parlamentlərinə, Birləşmiş Millətlər Təşkilatına, Azərbaycan SSR-də yaşayan bütün millətlərə və xalqlara müraciətlər" qəbul edilmişdi. Yanvar faciəsində müqəssirləri aşkara çıxarmaq məqsədilə Azərbaycan SSR Ali Sovetinin deputatlarından ibarət istintaq komissiyası yaradılmışdı.

İstintaq komissiyası bir il müddətində yoxlanışı başa çatdırıb hesabat verməli idi. Lakin məsələnin həlli uzadıldı, yalnız iki ildən sonra 1992-ci il yanvarın 19-da Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası "1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının səbəblərinin təhqiqi üzrə Azərbaycan Respublikası Ali Sovetinin komissiyasının işinin yekunlarına dair" qərar qəbul etdi. İstintaq komissiyasının təqdim etdiyi məlumat olduqca səthi olub əsl həqiqəti aşkar etməkdən çox-çox uzaq idi.

20 Yanvar faciəsinin 4-cü ildönümünün qeyd edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev dörd il müddətində 20 Yanvar hadisəsi ilə bağlı qəbul edilən qərarlarla, görülən işlərlə, sənədlərlə ciddi tanış olanda aşkar etmişdi ki, məsələyə siyasi qiymət verilməsi tamamilə kənara atılıb, əslində hadisələrin mahiyyəti ört-basdır edilib. Onun tanış olduğu qərarlardan biri isə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarı idi.

Heydər Əliyev 1994-cü il yanvarın 12-də 20 Yanvar faciəsinin dördüncü ildönümü ilə bağlı Dövlət Komissiyasının iclasında demişdi: "...Mənə Milli Şuranın (indiki Milli Məclis) 19 yanvar 1992-ci il tarixli qərarı təqdim edildi... Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə indiyə qədər siyasi qiymət verilməyib". Həmin qərar haqqında Heydər Əliyevin ciddi, düşünülmüş, tutarlı fikri hadisəyə hüquqi-siyasi qiymətin verilməsində mühüm istiqamətdir. O göstərirdi: "Mənim fikrim belədir ki, bu qərarın qəbul edilməsi bəlkə də Azərbaycan xalqına 20 Yanvar 1990-cı ildə olan faciə kimi böyük bir xəyanətdir".Qeyd etmək lazımdır ki, Yanvar hadisələrindən 4 il keçməsinə baxmayaraq, respublikada bu qanlı cinayətlərə dövlət səviyyəsində lazımi siyasi qiymət verilməmişdi. Hələ 1992-ci il yanvarın 19-da faciədən iki il sonra Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının bu barədə müvafiq qərarı olmasına baxmayaraq, həmin qərar 2 il ərzində yerinə yetirilməmiş qalmışdı. Həm də bu qərarda Yanvar hadisələrinin əsl səbəbləri açıqlanmamış və həqiqi günahkarlar aşkar edilməmişdi.

Yalnız Heydər Əliyevin Azərbaycan Respublikası Prezidenti seçilməsindən sonra 1990-cı il qanlı 20 Yanvar hadisələrinin səbəblərinin açıqlanması və bu işdə günahkarların aşkar edilməsi üçün dövlət səviyyəsində tədbirlər həyata keçirildi. Prezidentin 5 yanvar 1994-cü il tarixli "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" fərmanı ilə iki istiqamətdə fəaliyyət proqramının həyata keçirilməsi - 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi, eləcə də, Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi üçün Dövlət Komissiyası yaradılır.

Bu fərmanla Azərbaycan Respublikasının Milli Məclisinə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi məqsədilə xüsusi sessiya keçirilməsi tövsiyə olunur.

1994-cü il yanvarın 12-də Prezident Heydər Əliyevin sədrliyi ilə Dövlət Komissiyasının geniş iclası keçirildi. İclasda Dövlət Komissiyasının sədri, Baş nazirin müavini komissiyanın hazırladığı tədbirlər planı, irəli sürülmüş təkliflər haqqında geniş məlumat verdi. O, Prezidentin 5 yanvar tarixli fərmanının əhəmiyyətindən danışarkən qeyd elədi ki, ".. .Prezidentin bu fərmanı bugünkü Azərbaycanın tarixinin, taleyinin, mənəviyyatının kontekstində son dərəcə böyük əhəmiyyətə malikdir. Ötən dörd ildə ilk dəfədir ki, Prezident fərmanı ilə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi qarşıya qoyulur".

Belə ki, yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşər ki, Heydər Əliyev məhz 20 Yanvar faciəsi zamanı xalqımıza qarşı törədilən qanlı hərbi təcavüzə görə Sov.İKP sıralarını tərk etmişdi. 1991-ci il iyulun 19-da fərdi pensiyaçı, Sov.İKP üzvü Heydər Əliyev partiya sıralarından çıxmaq barədə SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına bəyanat vermişdi. Bəyanatın mətni iyulun 23-də Moskvada çıxan "Независимая газета"da, iyulun 26-da Bakıda "Azadlıq" qəzetində dərc edilmişdi. Bəyanatda deyilirdi: "Sizin nəzərinizə çatdırıram ki, mən Sov.İKP-dən çıxmaq qərarına gəldim. Dərhal xəbərdarlıq edirəm ki, bu sadəcə "dəbə" uymaq deyil, son illər ərzində keçirdiyim ağır məyusluqlar yolunun məşəqqətlərini və hadisələrini yenidən qiymətləndirməyimin yekunudur. Məni bu addımı atmağa məcbur edən başlıca səbəblər aşağıdakılardı: Birincisi, hələ 1990-cı ilin yanvarında Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi altında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP sıralarından çıxmaq fikri yarandı... İkincisi, üç ildən artıqdır ki, Mərkəzin ikiüzlü siyasəti nəticəsində Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyi ilə DQMV-də yaranmış kəskin münasibət saxlanmaqdadır... Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud surətdə pozulub... Üçüncüsü, bütün cəmiyyətin demokratikləşməsi, siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə Azərbaycanda ərazi

bütövlüyünün müdafiəsinə qalxmış geniş demokratik hərəkat və cəmiyyətin demokratikləşməsi Sov.İKP-nin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyi ilə boğuldu".

Heydər Əliyev bəyanatında qeyd edirdi ki: "1943-cü ildə 20 yaşımda ikən öz taleyimi bolşeviklər partiyasına bağlamışam. Kommunist Partiyasının ideallarının varlığına inanmışam və onun planlarının həyata keçirilməsində fəal iştirak etmişəm. İndi bütün inamlarım məhv olub...Sov.İKP sıralarını tərk edərkən mən bütün təmiz və namuslu kommunistlərə hörmət bəslədiyimi bildirirəm".

*Mənbə: İradə Hüseynova. Müstəqil Azərbaycanın qurucusu. Bakı, 2004, səh. 71-121*

# Naxçıvan dövrü
# (1990-1993)

Moskvada ciddi təqiblər, nəzarət altında yaşayan fərdi pensiyaçı Heydər Əliyev 1990-cı ilin iyul ayında Vətənə - Azərbaycana - Naxçıvana qayıtdı. Naxçıvan əhalisi onu böyük ruh yüksəkliyi ilə qarşılayır, ona böyük ümid bəslədiklərini bildirir, milli adət-ənənəyə görə ayağının altında qurbanlar kəsilirdi.

Moskva mətbuatı Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti haqqında ardıcıl məlumatlar verməyə başladı.

Heydər Əliyev Naxçıvanda olarkən, "İnterfaks" agentliyinin məlumatında deyilirdi: "Heydər Əliyev siyasi fəaliyyətlə məşğul olmağı davam etdirir. Belə ki, iyulun 22-də Naxçıvan şəhərinin mərkəzi meydanında onun yerli əhali ilə görüşü keçirilmişdir. Bəzi məlumatlara görə, 30 minə qədər adam toplanmışdı.

Mitinqdə çıxış edərək Heydər Əliyev qeyd etmişdi ki, Azərbaycan xalqı respublikanın ərazi bütövlüyü, suverenliyi və dövlət müstəqilliyi, azad Azərbaycan uğrunda mübarizə aparacaqdır".

"Известия" qəzetinin məlumatında isə deyilirdi: "İyulun 22-də axşam, Naxçıvanda Lenin adına meydanda Heydər Əliyevin əhali ilə görüşü keçirilmişdir. Görüşdə 30 min adam iştirak etmişdir."

"Известия" qəzeti 30 avqust 1990-cı il tarixli nömrəsində "Heydər Əliyevlə müsahibə" başlığı altında məqalədə yazırdı: "Bakıda çıxan "Respublika" qəzetində Sov.İKP Siyasi Büronun keçmiş üzvü Heydər Əliyevlə müsahibə dərc edilmişdi... Heydər Əliyev müsahibəsində xüsusi olaraq bildirmişdi ki, bu ilin yanvar ayında Sovet ordusunun Bakıya yeridilməsini və onların dinc əhaliyə qarşı aksiyasını ittiham edir. O, bütün azərbaycanlıları birliyə çağırırdı. Əliyev hesab edir ki, xalq respublikanın real suverenliyinə nail olmaq naminə birləşməlidir."

"АиФ"-in müxbiri xəbər verirdi ki, Naxçıvan Muxtar Respublikası Culfa rayonunun kəndlərindən birində yerli əhalinin Azərbaycanın Ali Sovetinə deputatlığa namizəd, Sov.İKP Siyasi bürosunun keçmiş üzvü Heydər Əliyevlə görüşü keçirilmişdir. Əhali öz həmyerlilərini hərarətlə salamladı və qədim Azərbaycan adətinə görə qurban kəsdilər. Naxçıvan Muxtar Respublikasının partiya təşkilatı və hökumətinin məsul işçiləri də Heydər Əliyevlə birlikdə seçkiqabağı səfərdə iştirak edirdilər.

«КоМСОМ(**М**bСК^ правда» qəzeti Azərbaycan Respublikası Ali Sovetinə seçkilərdən sonra "Əliyev qayıdır başlıqlı məqalədə yazırdı: "Uzun fasilədən sonra öz vətəninə qayıdan Heydər Əliyevin ayaqlarının

altında xalq adətinə görə kəsilən qurbanların qanı hədər yerə axıdılmadı. Doğma Naxçıvan torpağına qayıdan Siyasi büronun keçmiş üzvü zamanın çağırışına cavab verməyi qərara almışdı. Və səhv etmədi. Kommunist Heydər Əliyev respublikada mandat uğrunda səslərin 95 faizini toplayan, parlaq qələbə qazanan yeganə şəxsdir".

Qəzet Heydər Əliyevin parlamentə seçilməsini onun siyasi nüfuzunun təsirinin genişlənməsi və parlamentdə ciddi siyasi mövqe dəyişikliyinə təsir edəcəyini yazırdı.

1991-ci il sentyabrın 4-də Naxçıvan MR Ali Məclisinin sessiyası Azərbaycan Respublikası və Naxçıvan MR-nın xalq deputatı Heydər Əlirza oğlu Əliyevi Ali Məclisin sədri seçdi. "Həyat" qəzetinin 5 sentyabr 1991-ci il tarixli nömrəsində dərc olunmuş hesabatda deyilirdi: "Heydər Əliyev dərhal söz alaraq namizədliyini geri götürdüyünü bildirmişdir. Lakin bir neçə deputat təkidlə onun namizədliyi üzərində dayanmışdır. Deputat Heydər Əliyev dəfələrlə tribunaya qalxıb razı olmadığını israrla bildirsə də, Məclis əksər səslə onu Ali Məclisin sədri seçmişdi".

"Şərq qapısı" qəzeti 2№-li xüsusi buraxılış səhifəsində Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrliyinə seçilməsinə dair "Məclis iflic vəziyyətindən çıxır" başlıqlı məqalədə bu hadisənin Naxçıvanın müqəddəratında həlledici əhəmiyyəti olduğunu böyük inamla qeyd edirdi. Məqalədə Heydər Əliyevin xalqın tələbi ilə seçilməsi göstərilirdi. Hələ sentyabrın 2-də Naxçıvan şəhərində çoxminli mitinqdə Naxçıvan MR Ali Məclisinin yarımçıq qalmış növbədənkənar sessiyasının (növbədənkənar sessiya avqustun 26-da çağırılmışdı) çağırılmasını və Heydər Əliyevin Ali Məclisin sədri seçilməsini tələb edirdilər.

Sentyabrın 3-də çətinliklə də olsa, yetərsay toplanır, sessiya öz işinə başlayır. Bu vaxt Naxçıvanın hər yerindən Ali Məclisin binası qarşısında əllərində Heydər Əliyevin portretləri olan seçicilər toplanmışdı. Xahiş edirdilər ki, Naxçıvan MR Ali Məclisinə Heydər Əliyevi sədr seçsinlər. AXC Naxçıvan Vilayət şöbəsinin fəallarının əksəriyyəti isə bildirdilər ki, Heydər Əliyev sədr seçilərsə, onun əleyhinə geniş kampaniyaya başlayacaqlar. Lakin seçicilərin təzyiqi ilə deputatlar Naxçıvan MR Ali Məclisinin sədrliyinə Heydər Əliyevin namizədliyini irəli sürdülər. Heydər Əliyev üç dəfə çıxış edib, namizədliyini geri götürdüyünü bildirsə də, bu bir nəticə vermədi. Sessiyada iştirak edən 75 deputatdan 70 nəfəri lehinə səs verməklə, 5 nəfəri bitərəf qalmaqla Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildi.

Heydər Əliyevin sədrliyi ilə işini davam etdirən Milli Məclisin sessiyası Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Respublikası prezidentinin seçkilərinin dayandırılması haqqında yekdilliklə qərar qəbul etmişdir.

Bəzi qüvvələr Azərbaycan prezidenti seçkilərinin Naxçıvan Muxtar Respublikasında dayandırılmasını onun Azərbaycandan ayrılmaq cəhdi kimi qələmə verməyə çalışırdılar.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi belə uydurmaları ifşa edərək 7 sentyabr 1991-ci il tarixdə qərar qəbul etmişdi.

Qərarda belə cəhdlərin heç bir əsası olmadığı, böhtançı xarakter daşıdığı açıqlanırdı. Naxçıvanda baş verən demokratik proseslər haqqında yanlış məlumat verildiyi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və onun sədri Heydər Əliyev haqqında böhtanlar yağdırıldığı qeyd edilirdi. Ali Məclis göstərirdi ki, qəbul edilən sənədlərdə, bütün deputatların, Ali Məclisin sədrinin sessiyadakı və sentyabrın 5-də Naxçıvan televiziyası ilə çıxışlarında "Azərbaycanın bütövlüyü və onun bölünməzliyi haqqında qətiyyətlə fikir söylənilmiş" və "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkib hissəsidir" kimi fikirlər xüsusi vurğu ilə səslənmişdir. Bütün çıxışlarda Azərbaycan xalqının birliyə və milli razılığa çağırışlar səslənmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası bildirirdi ki, belə hərəkətlər Muxtar Respublikaya qarşı irticaçı mövqe tutan Azərbaycan televiziyasının və Azərbaycanın Kommunist rəhbərliyinin təşkil etdiyi təxribatdır. Qəbul edilən qərarda Azərbaycan televiziyası və radiosunun rəhbərliyindən özünün bütün informasiya kanalları vasitəsi ilə Ali Məclisin bu qərarını elan etməsini və Naxçıvan Muxtar Respublikasının Ali Məclisindən və əhalisindən üzr istənilməsini tələb edirdi.

Heydər Əliyev bu barədə sentyabrın 6-da Azərinforma xüsusi bəyanat da göndərmişdi.

Həmin bəyanat Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 6 sentyabr 1991-ci il tarixli iclasında müzakirə edilmiş və bəyanatın mətni bəyənilmişdi. Bəyanatın mətninin bütün informasiya vasitələrinə göndərilməsi qərara alınmışdı.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin bəyanatında Azərbaycanın Kommunist rəhbərliyinin Muxtar Respublikaya qarşı qərəzli, təxribat xarakterli mövqeyinin səbəbləri açıqlanır və ona obyektiv qiymət verilirdi. Aydınlıq, inandırıcılıq və tarixi həqiqətin aşkarlığı naminə Heydər Əliyevin həmin bəyanatını bütövlükdə burada verməyi lazım bilirik:

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il sentyabrın 4-də cari ilin sentyabr ayının 8-nə təyin edilmiş, Azərbaycan Respublikası Prezidenti seçkilərinin Muxtar Respublika ərazisində dayandırılması haqqında qərar qəbul etmişdir.

Belə bir qərarın qəbul edilməsi üçün aşağıdakılar əsas olmuşdur:

Prezidentlik vəzifəsinə namizədliyə yalnız Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi A.Mütəllibov alternativsiz əsasda irəli sürülmüşdür.

Yeganə müxalifət qüvvəsi olan Xalq Cəbhəsi təzyiq və qanunsuzluq şəraitində prezident seçkilərində iştirakdan imtina etmişdir. Seçki komissiyaları və məntəqələrinin üzvləri Kommunist Partiyası orqanlarının birbaşa göstərişi ilə təyin olunmuşlar.

Avqustun 19-da ölkədə dövlət çevrilişi etmiş SSRİ Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti ilə bağlı olaraq dövlət çevrilişində iştirakına və cinayət etdiyinə görə Sov.İKP Siyasi Bürosu və Sov.İKP Mərkəzi Komitəsi buraxılmışdır. Sov.İKP Siyasi Bürosunun üzvü, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Ayaz Mütəllibov mənsub olduğu təşkilatla birlikdə bu cinayətlə bağlıdır və hər hansı bir seçkilərdə onun iştirak etməsinə hüququ yoxdur. Azərbaycanda Kommunist Partiyasının fəaliyyəti, onun Mərkəzi Komitəsinin diktator rejimi davam edir.

1990-cı il yanvarın 19-da Bakıya qoşun yeridilməsi zamanı insan tələfatına səbəb olmuş Azərbaycan xalqına qarşı hərbi təcavüzdə Mütəllibovun iştirakına dair əsaslı məlumatlar vardır.

A.Mütəllibov ölkədə dövlət çevrilişi yapmış SSRİ Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini bəyənmişdir.

Azərbaycan Respublikasının Kommunist rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə və Muxtar Respublika sakinlərinin iradəsinə hər cür təzyiqlər göstərilir. Ali Məclisin 1991-ci il 3 sentyabrında keçirilməsi nəzərdə tutulmuş sessiyanın işinin pozulması məqsədilə Azərbaycan Kommunist rəhbərliyi heç bir əsas olmadan Ali Məclisin 40-dək deputatının, şəhər və rayon sovetləri, onların icraiyyə komitələrinin sədrlərinin Bakı şəhərinə çağırılmasını təşkil etmişdir.

Sentyabrın 2-də Naxçıvan şəhərinə Azərbaycanın 9 xalq deputatı, o cümlədən, 2 general və hüquq-mühafizə orqanlarını rəhbər işçiləri gəlmişdir. Bu deputatlar qrupu özünü Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etməmiş, öz fikrini açıq şəkildə bildirməmiş və anlaşılmayan bir fəaliyyətlə məşğul olmuşdur. Elə bu günlərdə məlum olmayan səbəblərə görə Azərbaycan Daxili İşlər Nazirinin müavini başda olmaqla Azərbaycan Daxili İşlər Nazirliyi işçilərinin böyük bir qrupu Naxçıvana gəlmişdir.

Bütün bunlar bir daha inandırıcı şəkildə ona dəlalət edir ki, Azərbaycanın Kommunist rəhbərliyi respublikanın ali qanunvericilik orqanının fəaliyyətinə, onun əhalisinə təzyiq göstərməyə can atır və Naxçıvan Muxtar Respublikasında baş verən demokratik prosesləri boğmağa çalışır.

Bütün bu qeyri-qanuni hərəkətlərə etiraz edərək, Sovet İttifaqının bütün demokratik təşkilatlarına, bütün demokratik beynəlxalq təşkilatlara, müstəqil jurnalistlərə müraciət edərək Naxçıvan Muxtar Respublikasındakı vəziyyətin obyektiv şəkildə öyrənilməsi üçün, xüsusən, Azərbaycan prezidenti seçkilərinin keçirilməsi nəzərdə tutulmuş gün - sentyabrın 8-də öz nümayəndələrini Muxtar Respublikaya göndərmələrini xahiş edirəm.

*Heydər ƏLİYEV*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri*

*6 sentyabr 1991-ci il*

Azərinformun məlumatına görə, Heydər Əliyev "Azərbaycan Respublikasının kommunist rəhbərliyini Muxtar Respublikanın ali qanunvericilik orqanının fəaliyyətinə və sakinlərinə təzyiq göstərməyə, demokratik prosesləri boğmağa" çalışmaqda təqsirləndirir və bu qanunsuz hərəkətlərə qarşı etirazını bildirirdi. "Həyat" qəzetinin bölgə müxbirinin qəzetdə çap etdirdiyi yazıda deyilirdi: "Həyat"ın oxucularına tam səmimiyyət və məsuliyyətlə bildirirəm ki, sessiyanın beş gün davam edən iclaslarında əvvəldən axıradək iştirak etmişəm, Naxçıvan Muxtar Respublikasının Azərbaycandan ayrılması barədə bir nəfərin də olsun eyham vurmasını belə eşitməmişəm. Əksinə, ilk günündən Məclisin sədri öz çıxışında Naxçıvanın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğunu bildirmiş, bütün naxçıvanlıların müstəqil Azərbaycan dövləti uğrunda mübarizə aparacağını elan etmişdir. Çıxış edən deputatların hamısının mövqeyi belə olmuşdur. Sessiyanın gedişi radio vasitəsilə translyasiya edilmiş, videoyazısı televiziya ilə göstərilmişdir. Heydər Əliyevin nitqi yerli qəzetdə dərc olunmuşdur.

Sessiya yekdilliklə həmin məsələ barəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatını qəbul etmişdi. Bəyanatda Muxtar Respublika Ali Məclisinin sessiyasında qəbul edilmiş sənədlərə, bütün deputatların və Ali Məclisin sədri Heydər Əliyevin həm sessiyada, həm də Naxçıvan televiziyası ilə çıxışında Azərbaycanın bütövlüyü və bölünməzliyi haqqında cəmiyyətin fikir söylədiyi, Naxçıvan Muxtar Respublikanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu bir daha təsdiq edilir. Bəyanat Muxtar Respublikanın televiziyası və radiosu ilə oxunmuşdur.

Naxçıvan Muxtar Respublikasına qarşı böhtanlar lap yüksək səviyyədə aparılırdı. Bunların biri də 1991-ci il sentyabrın 9-da mərkəzi televiziyanın "Время" proqramında Azərbaycan prezidenti A.Mütəllibovun mətbuat konfransı haqqında reportajda Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qərarının təhrif edilməsi və saxtalaşdırılması idi. A. Mütəllibov prezident seçkilərinin Naxçıvan Muxtar Respublikası ərazisində dayandırılması haqqında qərar vermiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ünvanına qərəzli fikirlər söyləyərək hədə-qorxu gəlmiş, "Biz elə edərik ki, onlar özlərinə gələrlər" demişdi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Rəyasət Heyəti belə hərəkətlərə qarşı öz münasibətini bildirmiş və 1991-ci il sentyabrın 10-da xüsusi bəyanat vermişdi.

Bəyanatda bu cür hərəkətlər demokratiya prinsiplərinin pozulması, təzyiq göstərilməsi və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin tutduğu diktatura yolunun davamı kimi qiymətləndirilirdi. A. Mütəllibovun bu cür hərəkətlərinin xüsusilə yolverilməz olduğu göstərilirdi.

Naxçıvan Muxtar Respublikası bu dövrdə həm də informasiya blokadasına alınmışdı. Halbuki Bakıya Naxçıvan haqqında müntəzəm məlumat verilirdi. Eyni zamanda bu faktı da qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin son 5 gündə davam edən növbədənkənar sessiyası haqqında müntəzəm olaraq məlumat verilməsinə baxmayaraq, bu məsələ Azərbaycanın informasiya orqanları tərəfindən qətiyyən işıqlandırılmırdı. Buna baxmayaraq, Azərbaycan televiziyası Naxçıvan Muxtar Respublikası haqqında yalan və böhtanlarla dolu verilişlər təşkil edir, Azərbaycan ictimaiyyətinə yanlış məlumat verirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Azərbaycanın Kommunist rəhbərliyi tərəfindən təşkil olunmuş antidemokratik hərəkətlərə qarşı öz etirazını bildirmiş və onları Naxçıvan Muxtar Respublikasında gedən demokratik prosesləri boğmaq cəhdi kimi qiymətləndirmişdi.

Heydər Əliyevin Azərbaycana qayıtması, xalq deputatı seçilməsi barəsində cürbəcür şayiələr yayanlar var idi. O özü bu şayiələrə belə cavab verirdi: "Mənim Azərbaycana qayıtmağım, xalq deputatı seçilməyim barədə cürbəcür şayiələr yayılıb. Bunlara cavab olaraq bəyan edirəm ki, doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq, kimdənsə qisas almaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüquqlardan heç kəs məhrum edə bilməz". Bu fikirləri, bəyanatı Heydər Əliyev 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasında söyləmiş və həmin il sentyabr ayının 4-də Naxçıvan MR Ali Məclisinin sədri seçilmişdir. O, bütün Azərbaycandakı siyasi vəziyyətlə məşğul olur, eyni zamanda 20 Yanvar faciəsinə hərtərəfli hüquqi-siyasi qiymət verilməsinə xüsusi diqqət

verirdi. Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MR Ali Məclisi noyabr ayının 21-də qəbul etdiyi qərarda 20 Yanvar faciəsini işğalçı siyasət və düşünülmüş hərbi təcavüz kimi qiymətləndirir və BMT-nin İnsan Hüquqları Bəyannaməsinin kobud şəkildə pozulması faktı hesab edir. Qəbul edilən qərarda

1) Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən, demokratik proseslərə qəsd kimi qiymətləndirilir;

2) Dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilir;

3) Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR Ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat istintaq komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə cəlb olunmamasına qəti etiraz olunur. Azərbaycan SSR Ali Sovetindən tələb edilir ki, ən qısa müddətdə həmin məsələ parlamentin müzakirəsinə çıxarılsın;

4) Bu qərar qəbul edilən andan 20 Yanvar gününün hər il Naxçıvan MR-da Milli Matəm günü kimi qeyd olunması qərara alınır;

5) Azərbaycan SSR Ali Sovetindən xahiş olunur ki, 20 Yanvar günü hər il Azərbaycan SSR-də Milli Matəm günü kimi qeyd edilsin.

Azərbaycan SSR xalq deputatı Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən birinci sessiyasında iştirak etdi.

Parlamentdə onun çıxışı hay-küylə qarşılandı. Danışmağa imkan vermirdilər, lakin heç nə möhkəm iradəli deputatı sındıra bilmədi. Cəsarətlə, təmkinlə, mübariz əhvali-ruhiyyədə öz fikirlərini söylədi. Deputat V.P.Polyaniçkonun DQMV-də vəziyyəti normal hala salmaq haqqında məlumatından sonra, 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin on ikinci çağırış birinci sessiyasında 340 N-li Nehrəm seçki dairəsindən seçilmiş deputat Heydər Əliyev müzakirə edilən məsələ haqqında olduqca ciddi çıxış etdi. DQMV-də yaranmış gərgin vəziyyətin köklərini açıb-göstərdi: "Uzun sürən erməni təcavüzünün qarşısını almaq üçün İttifaq dövləti, birinci növbədə şəxsən M.S.Qorbaçov və respublika rəhbərliyi tərəfindən qəti tədbirlər görülməmişdir. 3 ildir ki, Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də vəziyyət haqqında ətraflı, dərin, lazımi səviyyədə məsələ müzakirə olunmayıb, səmərəli tədbirlər görülməyib".

Heydər Əliyevin Azərbaycan Respublikasının 12-ci çağırış birinci sessiyasında çıxışı *(7 fevral 1991-ci il)* mühüm əhəmiyyətli bir tarixi sənəddir. İlk dəfə olaraq bu sənəddə 1988-ci ildən başlayaraq Azərbaycanda baş verən siyasi hadisələrə düzgün qiymət verilirdi. Heydər Əliyev Sovet İttifaqında və Azərbaycanda mövcud olan vəziyyət haqqında öz fikir və təkliflərini Ali Məclisə çatdırdı. Heydər Əliyevin çıxışında irəli sürülən fikirlər bütün ölkədə siyasi, iqtisadi və dövlət üsuli-idarəsinin keçirdiyi böhranı dərk etməyə kömək etdi. Yaranmış vəziyyətin səbəblərini açıb göstərdi: "Hər şeydən əvvəl, keçmişdə müxtəlif vaxtlarda buraxılmış səhvlərin də rolunu qeyd etməklə əsas səbəblər "perestroyka" adlandırdığımız dövrdə həyatımızın bütün sahələrində buraxılmış ciddi, kobud və bağışlanmaz səhvlərdir. Təəssüf ki, bunların üstü ört-basdır edilir, rəsmi dairələr və kütləvi informasiya vasitələri ancaq keçmişi atəşə tuturlar. Tam qətiyyətlə demək olar ki, 1985-ci ildə başlanmış dəyişikliklərin, siyasi və iqtisadi əsaslarla işlənib-hazırlanmış uzunmüddətli strategiyası və tələm-tələsik şəkildə həyata keçirilmiş, bəzən bir-birinə zidd olan tədbirlər təbiidir ki, müsbət nəticə verməmişdir." Bu səbəblər sırasında milli siyasət sahəsində buraxılmış böyük səhvlərin ölkənin bir çox respublikalarında faciəli vəziyyət yaratması da göstərilirdi. Çünki bu siyasət nəticəsində müttəfiq respublikaların hüquqları tapdalanmış, mərkəzin imperiya siyasəti ağır nəticələr vermişdi. Cəmiyyəti fəlakət həddinə gətirib çıxarmışdı. Heydər Əliyev göstərdi ki, ölkədə yaranmış vəziyyətin günahkarları hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, o cümlədən partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur. Ölkədəki vəziyyətə Heydər Əliyev qiyməti mühüm elmi, siyasi əhəmiyyət daşıyırdı.

Heydər Əliyev öz çıxışında Dağlıq Qarabağ "probleminin" yaradılması, onun tarixi torpaqlarının ermənilər tərəfindən ələ keçirilməsi və onun səbəblərinin təhlilinə mühüm yer verirdi. 1988-ci ildə Dağlıq Qarabağ məsələsi qaldırılan vaxt Azərbaycan hökuməti qarşısını ala bilərdi. Qorbaçov və onun ətrafında olan erməni müşavirləri, erməni millətçiləri Azərbaycanın bacarıqsızlığından, zəifliyindən və xəyanətindən istifadə edib vəziyyəti daha da gərginləşdirdi.

Heydər Əliyev ilk günlərdən Dağlıq Qarabağ "məsələ"sində Mərkəzin xəyanətkar addımlarının xronikasını və Azərbaycan rəhbərliyinin səhvlərini şərh etmişdi.

1988-ci il mart ayında Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti Dağlıq Qarabağın siyasi, iqtisadi-siyasi inkişafına dair qərar qəbul etmişdi.

Heydər Əliyev bu qərarı Azərbaycan Respublikasının, necə deyərlər, kürəyinə sancılmış ox kimi qiymətləndirirdi. Həmin qərar Ermənistana Dağlıq Qarabağın işlərinə qarışmağa ixtiyar verirdi. O qərarın qəbul olunmasına yol vermək olmazdı. Sonra SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında *(1988-ci ilin*

*iyul ayı)* Qarabağ məsələsi müzakirə olunan vaxt Azərbaycan deputatları ilə yanaşı, Ermənistan deputatları da eyni hüquqla iştirak edirdilər. Bu da səhv idi. Sonra A.Volski idarə-üsulu Dağlıq Qarabağı Azərbaycandan tamamilə ayırmağı təmin etdi.

Həmin sessiyada A.Volski, Z. Balayan, Poqosyan, Dadamyan da Azərbaycandan deputat hüququ ilə iştirak edirdilər. "Onlar orada bizim Azərbaycana daha da böyük xəyanət etmək üçün böyük hüquqlara" malik olduqlarını göstərirdilər.

Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında Dağlıq Qarabağ haqqında danışmaqla Azərbaycan tarixi üçün daha bir həqiqəti aşkar etdi. Azərbaycan torpaqlarının tarixən ermənilər tərəfindən işğal edilməsi faktlarını meydana çıxardı. Hələ 1918-ci ildən Ermənistan Respublikasının Azərbaycan torpaqlarının fasilələrlə ələ keçirməsi nəticəsində Azərbaycan ərazisi 1918-ci ildəki 114 min kvadrat kilometr sahədən 1990-cı ildə 86 min kvadrat kilometrədək azaldığını qeyd etdi. Qeyd etmək lazımdır ki, torpaq məsələsi Heydər Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikasının Ali Məclisində bundan əvvəl də müzakirə edilmişdi. Müzakirədə aşkar edilmişdi ki, 1929-cu ildən sonra Naxçıvan Muxtar Respublikasının ərazisindən 625 kvadrat kilometr torpaq sahəsi, yəni 6 kənd Ermənistana verilmişdir. Bu da 62 min hektar kənd təsərrüfatına yararlı torpaq idi. Buna baxmayaraq, Naxçıvan həmişə öz torpaqlarını müdafiə etmiş, son dövrdə ərazi bütövlüyünü qoruyub saxlamışdır.

Heydər Əliyev torpaq məsələsinin xalqımızın tarixində əsas amal olduğunu göstərdi. "Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirmişdir. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparmışdır, ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qorumuş, onun yolunda canlarını və övladlarını qurban verməkdən çəkinməmişdir".

Bu mülahizədən nəticə çıxararaq deputat Heydər Əliyev sessiyada təkcə Dağlıq Qarabağ məsələsinin yox, torpaq məsələsinin daha geniş qoyulmasını təklif etdi. Təklif etdi ki, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın, hansı dövrdə nə qədər torpaq sahələri verilib, müəyyən olunsun. Torpaqlar məsələsində Heydər Əliyevin söylədiyi bu fikirlər yalnız həmin dövr üçün deyildi. Nə qədər ki torpaqlarımız qaytarılmayıb, bu, Azərbaycan xalqı, Azərbaycan gəncləri qarşısında tarixi vəzifə kimi qoyulurdu.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev çıxışının sonunda belə bir taleyüklü, tarixi əhəmiyyət daşıyan məsələ üzərində dayandı: "...bizim sessiyamız Ermənistanı necə bir

təcavüzkar dövlət kimi adlandırmalıdır. Biz bu barədə qərar qəbul etməliyik. ...bunu bütün dünyaya bəyan etməliyik."

Ermənistanın təcavüzkar dövlət kimi tanınması proqramı sonralar çətinliklərlə də olsa dünyaya tanıtdırıldı.

Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin başçısı, Avropa Şurası PA-nın sədr müavini millət vəkili İlham Əliyevin böyük səyi nəticəsində Ermənistanın Avropa Şurasının sənədlərində işğalçı dövlət kimi qeyd etdirilməsinə nail olundu.

Heydər Əliyevin çıxışı iqtidarda olanlar və bir çox deputatlar tərəfindən, necə deyərlər, top-tüfənglə qarşılandı. Mikrofon qarşısında növbəyə dayananlar natiqi "ittiham" etməyə, ona böhtanlar atmağa başladılar. DQMV-də vəziyyətdən danışmaq əvəzinə onunla haqq-hesab çəkməklə məşğul oldular. Bu antimilli kompaniya o zamankı rəhbərlik tərəfindən təşkil edilmişdi.

Sessiyada Heydər Əliyevə qarşı çıxanlar kimlər idi? "Независимая газета" müxbirlərinin suallarına akademik Cəlal Əliyev aydın və inandırıcı cavab verirdi: "Bunlar sadəcə olaraq pis adamlardır. Mən deyərdim ki, respublika rəhbərliyinin öyrədilmiş adamlarıdır". Məsələn, öz çıxışında Heydər Əliyevin işlərini yoxlamaq üçün komissiya yaradılmasını tələb edən Məmməd Quliyev keçmiş prokurorluq işçisidir, özünün "qara" işlərinə görə oradan qovulmuşdur. İndi isə deputat "seçilmişdir". Yaxud Nadir Mehdiyev. Külli miqdarda oğurluğa görə onu mühakimə etmək istəmişdilər, sonra bəraət qazandırdılar və... deputat "seçdilər". İndi Heydər Əliyevə qarşı böhtan atırlar. Demblokdan olan Rəhim Qazıyev də qatı böhtançı, şərçi kimi çıxış etmişdi. Ümumiyyətlə, respublika rəhbərliyi Xalq Cəbhəsi rəhbərliyini də ələ almışdı, onlardan da deputat "seçdirmişdi".

Parlamentdə böhtanla çıxış edənlərin arxasında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində və Azərbaycan Ali Sovetinin Rəyasət Heyətində oturanlar dururdu. Onlar Heydər Əliyevin Bakıya qayıtmasını istəmirdilər. Halbuki hamısını vəzifəyə o gətirmişdi: Ayaz Mütəllibov, Elmira Qafarova, Əfrand Daşdəmirov, Telman Orucov və başqalarını vəzifəyə o gətirmişdi.

"Независимая газета" sessiya haqqında yazırdı ki, Ali Sovetin sessiyasında söz alan Heydər Əliyev kürsüyə çıxan kimi Azərbaycan prezidenti A.Mütəllibov o saat iclas zalından çıxmışdı. Azərbaycan və Naxçıvan MR-nın deputatı Heydər Əliyevin nitqində Qorbaçovun və Mərkəzin siyasəti ciddi tənqid edildi. Nitq, əsasən, Dağlıq Qarabağ probleminə həsr edilmişdi. Bu çıxışdan sonra H.Əliyevə qarşı şantaja keçdilər.

M.Quliyev Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrdə fəaliyyətini yoxlamaq haqqında komissiya yaradılması təklifini verdi. Bu şantaja cavab olaraq Heydər Əliyev tələb etdi ki, "deputatın qanuni hüquqları pozulmamalı və onun statusuna hörmət edilməlidir". Parlamentdə komissiya yaradılması haqqında təklif qəbul edilmədi. Bəzi şərhçilər hesab edirdilər ki, Heydər Əliyev sessiyada qarşıdurma yaradacaq, heç də belə olmadı. Aydın oldu ki, onu nəinki xalq deputatları, eyni zamanda ziyalıların böyük əksəriyyəti müdafiə edirlər.

Heydər Əliyevin sessiyada çıxışından sonra üç gün Bakıda ona qarşı hücumlara cavab olaraq narazılıq dalğası davam etmişdi. Heydər Əliyevi müdafiə mitinqi keçirir, Heydər Əliyevin yaşadığı qardaşının evinə zənglər vurur, bir çoxları evə gəlib onu müdafiə etdiklərini bildirirdilər.

Heydər Əliyevin mövqeyini müdafiə etməkdə yalnız deputat xalq şairi B.Vahabzadənin və Ali Sovetin sədrinin müavini A.Cəlilovun çıxışları müstəsnalıq təşkil etmişdi.

Bəxtiyar Vahabzadə çıxış edənlərin böhtanlarına, təhqirlərinə dözməyərək, onlara qəti etirazını bildirmişdi. O, qeyd edirdi ki, iclasın birinci günü televiziyada çıxışları dinləyib (çünki həmin gün özünü pis hiss etdiyi üçün iclasda iştirak etməmişdi.): "Çox təəssüfləndim. Biz son 70 illik tariximizdə həmişə vəzifədə olanın yaltağı, vəzifədən gedənin isə qənimi olmuşuq. Əliyev yoldaşa hücumdansa, gəlin görək o nə dedi. Nə olar. Yəni dünən o kişi bizim rəhbərimiz deyildi? Ayıb deyil? Dünən o kişi bizim rəhbərimiz olub, o kişiyə "bəli", "bəli" deyib buralarda nə qədər əl çalmışıq. Bu taxta, divar şahiddir".

Xalq şairi B.Vahabzadə Heydər Əliyevi dediklərinin həqiqət olduğunu ciddi müdafiə etdi: "O bizə nə demək istəyirdi. O bizə onu demək istəyirdi ki, Qarabağ məsələsində bu üç illik mübarizədə bizim vahid və işlənmiş konsepsiyamız olmayıb. Yalandır? Biz bunu müzakirə etməli ikən, bu mühüm məsələni kənara qoyub, ondan keçmiş intiqamımızı almağa çalışdıq. Danışanlarımızı da yaxşı tanıyıram. Mən dünən bu gecəni yata bilməmişəm. Axı dədələrimiz belə namərdliyi eləməzdi". Bəxtiyar Vahabzadənin çıxışını kəsmək məqsədilə sədrlik edən T.Orucov ona guya məsələdən danışmadığını bildirdi, "gündəlikdə olan məsələyə dair fikrinizi deyin" - deməklə, sözünü kəsmək istədi. Bəxtiyar Vahabzadə isə ona qısaca olaraq: "elə mən ondan danışıram" - deyə cavab verdi və sözünə davam etdi.

Əslində isə Heydər Əliyev çıxışının əsas hissəsini Dağlıq Qarabağa həsr etmişdi. Heydər Əliyev sessiyadan sonra "Независимая газета" nın müxbirinə müsahibəsində bildirmişdi ki, sessiyada mənim barəmdə baş verənləri onu təşkil edən adamların, o qüvvələrin məğlubiyyəti kimi qiymətləndirirəm.

Martın 5-nə kimi Ali Sovetin sessiyasında fasilə elan edildi. Martın 5-də sessiya öz işini davam etdirdi.

Müzakirə olunan problemlərdən biri də SSRİ-nin saxlanıb-saxlanmaması haqqında məsələ idi. Heydər Əliyev referendumda iştirak etməyin əleyhinə çıxdı. Öz təklifini hərtərəfli əsaslandırdı. Lakin Ali Sovetin sessiyasında Azərbaycanın referendumda iştirak etməsi səs çoxluğu ilə qəbul edilmişdi. "Həyat" qəzeti "Çoxluq referenduma tərəfdardır" adlı sessiya-dan reportajında yazırdı: "Deputat Heydər Əliyevin də ətrafında yığışanlar çox idi. Onun bugünkü çıxışı da salonda səs-küyə səbəb oldu. Hətta az qalmışdı ki, müzakirə olunan məsələ yenə yaddan çıxsın".

Martın 5-dəki çıxışında yaranmış vəziyyət ətraflı təhlil edildi. Azərbaycan rəhbərliyinin mövqeyi kəskin tənqid edildi və vəziyyətdən düzgün çıxış yolu göstərildi.

Azərbaycanda vəziyyətin ağırlığının səbəbinin respublikada Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud və bağışlanmaz səhvlər olduğunu izah edən Heydər Əliyevə qarşı yenə də zaldan hay-küy qaldırdılar. Natiq təmkinlə və prinsipiallıqla öz aramını pozmadan "Mən çox xahiş edirəm ki, sessiyada heç bir deputatı öz sözünü deməkdən məhrum etməyəsiniz", - deyərək çıxışını axıra qədər davam etdirdi. Natiq inandırıcı dəlillərlə il yarım bir müddətdə Bakıda fövqəladə vəziyyət rejiminin saxlanmasını, bu rejimin fəaliyyəti ilə Azərbaycan Respublikasının bir sıra məsələlərinin həll olunmasına ümid edilməsini, Sovet İttifaqı Kommunist partiyasının dağılmasına baxmayaraq, onun tərkib hissəsi olan Azərbaycan Kommunist partiyasının saxlanılmasını, 20 yanvar faciəsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, indiyə qədər o hadisəyə siyasi qiymət verilməməsini, günahkarların göstərilməməsini və bütün bunlara görə məsuliyyət daşıyan Azərbaycan rəhbərliyini ciddi tənqid etdi. Bütün bu məsələləri aydınlaşdırmadan Azərbaycanda prezident seçkilərinin keçirilməsinin qeyri-mümkün olduğunu göstərdi. Eyni zamanda Azərbaycan Respublikasının parlamentinin buraxılması və yenidən seçkilərin keçirilməsinin zəruri olduğu əsaslandırdı. Çıxışının sonunda Heydər Əliyev demişdi: "Mən belə kəskin çıxış edərkən düşünürəm ki, indi mənim çıxışımdan sonra xüsusi hazırlanmış adamlar çıxıb mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrənmişəm. Ona görə də heç narahat olmayın. Mən öz vicdanım qarşısında cavabdeh olaraq bu gün bu çıxışı edirəm".

Qeyd etmək lazımdır ki, bu çıxışdan sonra Heydər Əliyev Bakıya qayıdanadək, 1993-cü il iyunun 9-dək, Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında iştirak etməmişdir.

Lakin Naxçıvan MR Ali Məclisinin martın 14-də keçirdiyi birinci sessiyası referendumda iştirak etməməyi qərara almışdı. Naxçıvan Muxtar Respublikası iştirak etmədən martın 17-də Azərbaycanda saxta yolla SSRİ-nin saxlanması barədə referendum keçirildi.

SSRİ-nin saxlanması üzrə keçirilən saxta referendumda Naxçıvan Muxtar Respublikası seçicilərinin cəmi 20 faizi iştirak etmişdir ki, bunların da əksəriyyəti muxtar respublika ərazisində xidmət edən hərbi qulluqçular və onların ailə üzvləri idilər.

Qeyd etmək lazımdır ki, milli azadlıq hərəkatına ilk vaxtlar rəhbərlik edən Azərbaycan Xalq Cəbhəsi sonralar öz mövqeyini zəiflətdi. Bu, özünü iqtidar - AXC sövdələşməsində göstərdi. İqtidar və AXC liderləri 1990-cı il mayın ortalarında məşvərət şurası yaratdılar. Məşvərət Şurasının razılığı ilə Azərbaycan SSR Ali Sovetinin sessiyası mayın 19-da Prezident vəzifəsi təsis etdi. İyulda Ali Sovetə keçirilən seçkilərdə "demblok" 360 deputat mandatından cəmi 30-nu qazandı.

Hərəkatda rəhbərlikdə yeni liderə böyük ehtiyac var idi. Heydər Əliyevin Naxçıvana gəlməsi və Naxçıvan MR Ali Məclisinin sədri seçilməsi, Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetinə deputat mandatı qazanması və bu vəzifələrdə fəaliyyəti Azərbaycanın azadlıq mübarizəsində, müstəqillik uğrunda mübarizəsində böyük əhəmiyyəti oldu. Onun sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan parlamentinin sessiyası Muxtar Respublikanın adından "Sovet Sosialist" sözlərini götürdü. "Ali Sovet" sözünü "Ali Məclis" sözü ilə əvəz etdi. Azərbaycan Xalq Cümhuriyyətinin *(1918-1920)* üçrəngli bayrağını özünün dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Qərarda deyilirdi: "İlk Azərbaycan Demokratik Respublikasının üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsis edilsin. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi - dövlət gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin". Eyni zamanda Azərbaycan Demokratik Respublikasının üçrəngli dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-nin dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilməsi haqqında qərar qəbul edildi.

Naxçıvan MR Ali Məclisi milli-azadlıq hərəkatını boğmaq üçün SSRİ rəhbərliyinin 20 yanvarda Bakıda törətdiyi cinayətə düzgün siyasi qiymət verdi. Naxçıvanda keçirilən demokratik tədbirlər bütün Azərbaycan üçün nümunə olmuşdu. Demokratik qüvvələrin tələbi ilə Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı - "Azərbaycan SSR" adı dəyişdirilərək

"Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq edildi.

Tarix Heydər Əliyevin uzaqgörənliyini tezliklə təsdiq etdi - SSRİ dağıldı. Azərbaycan Respublikasının rəhbərliyi əvvəl 19-21 avqust dövlət çevrilişini müdafiə etmək mövqeyi tutmuşdursa da, sonda xalqın artan təzyiqi ilə və həmçinin özünün hakim mövqeyini qoruyub saxlamaq üçün 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa edilməsi haqqında" Bəyannamə qəbul etdi.

1991-ci il oktyabrın 16-18-də Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyasında dövlət müstəqilliyi haqqında Konstitusiya aktı layihəsinin müzakirəsi keçirildi. Gərgin şəraitdə keçən müzakirələrdən sonra "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Müzakirə oktyabrın 18-nə kimi davam etdi. Müzakirələrdə belə bir fikir də irəli sürülmüşdü ki, Azərbaycan xalqı dövlət müstəqilliyi məsələsinə öz münasibətini referendum yolu ilə bildirməlidir.

Əlbəttə, bu, məsələnin həllini yenə də uzada bilərdi. Ona görə də Ali Sovet irəli sürülmüş düzəlişlər və qeydlər nəzərə almaqla oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın bütövlükdə qəbul edilməsi haqqında qərar qəbul etdi.

Yalnız bir aydan sonra, 1991-ci il noyabrın 15-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə respublika referendumunun keçirilməsi haqqında" Ali Sovet qərar vermişdi.

Azərbaycan Respublikasında dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir sual yazılmışdı. "Siz Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?"

Səsvermə hüququ olanların 95 faizindən çoxu referendumda iştirak etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

1992-ci ilin mayında Milli Məclis Azərbaycan Respublikasının dövlət himnini, 1993-cü ilin yanvarında isə dövlət gerbini təsdiq etdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyası bu məsələyə öz münasibətini bildirdi və qəbul etdiyi qərarda Ali Sovetin qərarına öz tənqidi müddəalarını qeyd etməklə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə əlaqədar 1991-ci il dekabrın 29-da Naxçıvan Muxtar Respublikasında referendum keçirilməsini

qərara aldı. Qərarda 1991-ci il martın 17-də SSRİ-nin qorunub saxlanması ilə əlaqədar Azərbaycan Respublikasında keçirilmiş referendumun nəticələrini saxtalaşdırılmış hesab edildiyi qeyd olunur və onların ləğv edilməsi haqqında Azərbaycan Respublikası Ali Soveti tərəfindən qərar verilməsi xahiş edilirdi.

Naxçıvan MR rəhbərliyi Azərbaycanda baş verən hadisələr fonunda Muxtar Respublikanın mənafeyinin müdafiə edilməsi ilə ciddi məşğul olurdu. Eyni zamanda Azərbaycan rəhbərliyinin DQMV barəsində fəaliyyətini diqqətlə izləyir, ona öz münasibətini bildirirdi. Heydər Əliyev Naxçıvana erməni təcavüzünün qarşısının alınması üçün Ermənistan Ali Sovetinin sədri L.Ter-Petrosyanla telefon vasitəsilə danışıqlar aparırdı.

Dağlıq Qarabağ münaqişəsində vasitəçilik etmək məqsədilə RSFSR prezidenti B.Yeltsinin, Qazaxıstan prezidenti N.Nazarbayevin, Azərbaycan prezidenti, Ermənistan Ali Sovetinin sədri, DQMV-nin rəhbərləri, muxtar vilayətin azərbaycanlı və erməni icmalarının nümayəndələrinin iştirakı ilə sentyabrın 23-də Jeleznovodskda danışıqlar aparılmış və danışıqların yekunlarına əsasən birgə rəsmi məlumat imzalanmışdı. Lakin bu rəsmi məlumatda Azərbaycanın mənafeyi lazımınca əks olunmamışdı. Naxçıvan MR Ali Məclisi rəsmi məlumat barədə oktyabrın 8-də xüsusi bəyanat qəbul etmişdi. Ali Məclis DQMV-də vəziyyəti normal hala salmaq yolunda RSFSR prezidenti B.Yeltsinin və Qazaxıstan prezidenti N.Nazarbayevin vasitəçilik işini razılıq hissi ilə qarşıladığını qeyd edir, lakin danışıqlarda Ermənistanın bərabərhüquqlu tərəf kimi iştirak etməsini Azərbaycan Respublikasının daxili işlərinə müdaxilə kimi qiymətləndirirdi. Göstərilirdi ki, Azərbaycana qarşı hər cür ərazi iddialarından Ermənistanın rəsmən imtina etməsi danışıqların başlanması və rəsmi məlumatın imzalanması üçün əsas şərt olmalı idi.

Bəyanatda deyilirdi: "....rəsmi məlumatda Azərbaycan Respublikasının milli mənafelərinə toxunan müddəalar var ki, bunlar gözlənilməz nəticələr verə bilər. Sənədin bəzi müddəaları ziddiyyətli, qeyri-müəyyən xarakter daşıyır... Təəccüblüdür ki, rəsmi məlumatda Kərki kəndinin qaytarılmasının zəruriliyi öz əksini tapmamışdı".

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin ikinci sessiyasının "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etməsi Naxçıvanda yüksək əhvali-ruhiyyə ilə qarşılandı. Bu münasibətlə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev "Həyat" qəzeti redaksiyasına teleqram göndərmişdi. Teleqramda deyilirdi: "Naxçıvan Muxtar Respublikasının əhalisi 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət

müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsi münasibətilə bütün Azərbaycan xalqını təbrik edir və bunu tarixi hadisə kimi qəbul edir...

Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikasının ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər.

Heydər Əliyevin Naxçıvanda respublika üçün apardığı taleyüklü işlər dünya mətbuatının, xarici ölkə vətəndaşlarının, siyasi xadimlərinin, jurnalistlərin, habelə Azərbaycanda çıxan qəzetlərin, siyasi partiyaların nümayəndələrinin diqqətini cəlb edirdi. Onlar Naxçıvana gəlirdilər. Heydər Əliyevin mətbuat konfranslarında çıxışlarını dinləyir, onun qəbulunda olur, Muxtar Respublika haqqında, Azərbaycandakı vəziyyət və respublikanın gələcəyi, onun siyasi mövqeyi haqqında suallar verir və qaneedici cavablar alırdılar.

Mərkəzdən - Bakıdan da Naxçıvana qarşı, Heydər Əliyevə qarşı təxribatlar hazırlanır, ona mane olmağa çalışır, hakimiyyətdən getməsi üçün təzyiqlər edilirdi. Böyük siyasətçi, mübariz, dönməz rəhbər öz mövqeyində möhkəm dayanmışdı. Xalqa arxalanmışdı, xalq həmişə onu müdafiə edirdi. Heydər Əliyev böyük razılıqla deyirdi: "Mən xalqıma minnətdaram".

3 avqust 1993-cü ildə "Российский фермер" qəzetinin müxbiri ilə söhbətində Heydər Əliyev demişdi: "Biz blokada şəraitində yaşayırdıq... Xalq Cəbhəsi hökuməti bu blokadanın aradan götürülməsi üçün tamamilə mümkün olan tədbirləri qəsdən görmürdü. Onlar məndən qorxur və riyakarlığa bax ki, ümid edirdilər - Naxçıvanın müsibəti məni hörmətdən salacaq və yenə də hakimiyyətdən uzaqlaşdıracaqlar... Amma əllərindən bir iş gəlmədi".

AXC-nin apardığı yararsız kadr siyasəti Naxçıvanda daxili vəziyyəti kəskinləşdirmişdi. Azərbaycan Respublikası daxili işlər nazirinin Bədən Tərbiyəsi İnstitutunu bitirmiş, daxili işlər orqanlarında heç bir təcrübəsi və səriştəsi olmayan, AXC-nin fəal üzvü S.Mustafayevin Naxçıvan Muxtar Respublikasında daxili işlər naziri təyin edilməsi bölgədaxili münasibətlərin gərginləşməsinə və qarşıdurmaya gətirib çıxartdı. 1 sentyabr 1992-ci il tarixli Naxçıvan MR Daxili İşlər Nazirliyi polis əməkdaşlarının bəyanatında bu qərarın şəxsi heyətin ciddi etirazına səbəb olduğu və daxili işlər orqanlarının siyasi məqsədlərə tabe etdirən hərəkətlərə və cəhdlərə yol verilməyəcəyi bildirilmişdi. Naxçıvan MR Ali Məclisinin sessiyasında Naxçıvan MR daxili işlər naziri təyin edilməsi haqqında məsələyə baxıldı və səs çoxluğu ilə qəbul edilmədi. 1992-ci il oktyabrın 24-də AXC Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən Naxçıvanda dövlət çevrilişi cəhdi göstərildi. Muxtar Respublikanın televiziya şirkətini, texniki istismar rabitə idarəsinin elektrik

mərkəzini, Daxili İşlər Nazirliyini tutdular. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Xalq Cəbhəsinin rəhbərlərindən öz qanunsuz hərəkətlərinə son qoymağı, tutduqları yerləri boşaltmağı tələb etmişdi. Lakin bu müsbət nəticə verməmişdi. Belə şəraitdə Naxçıvan MR Ali Məclisinin qarşısında izdihamlı mitinq keçirildi. Mitinq iştirakçıları Heydər Əliyevlə həmrəy olduqlarını bildirir, silahlı dəstələrdən Daxili İşlər Nazirliyinin və teleradio verilişləri komitəsinin binasını boşaltmağı tələb edirdilər. Heydər Əliyev bir neçə dəfə AXC sədri, Azərbaycan prezidenti Ə.Elçibəylə telefonla danışaraq AXC Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoyulmasını tələb etmişdi: "Oktyabr ayının 24-də Naxçıvanda çevriliş edib məni ordan qovmaq istəyəndə mən 9 dəfə Əbülfəz Elçibəylə telefonla danışdım, dedim, bu adamları yığışdırın, o, mənə deyir, nə cür yığışdırım? Dedim, bunlar Xalq Cəbhəsinin qeyri-qanuni silahlı adamlarıdır. Siz, Xalq Cəbhəsinin sədrisiniz, göstəriş verin yığışdırsınlar. Siz bilirsinizmi ki, o, bu göstərişi vermədi?. Nəhayət, 15 min Naxçıvan əhalisi - qoca, cavan, uşaq, qadın, kişi toplaşdılar ora, o camaatı oradan dağıtdılar".

Oktyabrın 25-də Heydər Əliyev Naxçıvan radiosu ilə əhaliyə müraciət etdi. Elə həmin gün Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası keçirilmiş, 24 oktyabr dövlət çevrilişi cəhdi pislənilmiş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 25 oktyabr tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin 1992-ci il oktyabrın 24-də Naxçıvan Xalq Cəbhəsi və onun silahlı qüvvələri tərəfindən işğal olunması, bu dövlət orqanlarının işinin bir neçə saat ərzində iflic vəziyyətinə salınması və beləliklə, bütün əhaliyə mənəvi zərbə vurulması Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi kimi qiymətləndirilmişdi. Məclis AXC silahlı qüvvələrinin üç gün ərzində tərk-silah olunması haqqında qərar qəbul etmişdi. Oktyabrın 27-də Naxçıvandakı Azadlıq meydanında keçirilən ümumrespublika mitinqinin iştirakçıları Azərbaycan prezidentindən Naxçıvana göstərilən zorakılıq hərəkətlərinin qarşısını almağı tələb etmişdilər.

Oktyabrın 28-də "Real" agentliyi xəbər vermişdi ki, üç gün davam edən gərgin vəziyyətdən sonra Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın başqa bölgələrində nisbi sakitlik yaranmışdır. Naxçıvan MR Ali Məclisində idarə, müəssisə, nazirlik, müxtəlif partiyaların, ictimai təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən müşavirədə Heydər Əliyev demişdi: "Hazırda xalqımız müharibə şəraitində yaşayır. Belə vəziyyətdə sabitliyi pozmaq, xalq arasında münaqişə salmaq ümumi işimizə mənfi təsir göstərir".Naxçıvanda Heydər Əliyevin siyasəti və təşkilatçılığı nəticəsində xalq dövlət çevrilişi cəhdinin qarşısını ala bildi.

Müstəqillik əldə edilməsi üçün Azərbaycan xalqı çətin və mürəkkəb mübarizə yolu keçmişdir. Son vaxtlara qədər bu məsələlərin işıqlandırılmasında və həqiqi qiymətinin verilməsində təhriflərə və

saxtalaşdırmalara yol verilirdi. Məhz Heydər Əliyev Azərbaycanda müstəqillik uğrunda mübarizə məsələlərinə aydınlıq gətirdi. O, müstəqillik əldə edilməsini ayrı-ayrı qurumların şəxsən öz adlarına çıxması fikirlərinin yolverilməz olduğunu izah etməklə Azərbaycanın dövlət müstəqilliyinin bütün Azərbaycan xalqının milli sərvəti olduğunu bildirirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev AXC-yə, onun sədri Ə.Elçibəyə qarşı sərt müxalifətdə, ümumiyyətlə, müxalifətdə olmamışdı. 1993-cü ilin fevralına qədər Heydər Əliyevlə Ə.Elçibəy arasında heç vaxt görüş olmamışdı. Yalnız fevral ayında Bakıda prezident Ə.Elçibəylə Heydər Əliyevin ilk görüşü olmuşdu. Bu görüşdə Heydər Əliyev Ə.Elçibəylə bir çox məsələləri müzakirə etmişdilər. Naxçıvan MR Ali Məclisinin sədri Azərbaycan prezidentinə öz məsləhətlərini, arzularını, tövsiyələrini söyləmişdi. Heydər Əliyev qeyd etmişdi ki, Ə.Elçibəylə görüşdən sonra da "...Bizim münasibətlərimiz normal olmuşdur".

Naxçıvan MR Ali Məclisinin sədri işlədiyi dövrdə Heydər Əliyevin Ə.Elçibəylə nadir hallarda telefon söhbətləri olmuşdu. Bu söhbətlərdə Naxçıvana diqqət yetirilməsi məsələləri irəli sürülmüşdü. Ə.Elçibəy çətin vəziyyətdə yaşayan Naxçıvana lazımi diqqət yetirmirdi. Ona görə də onlar arasında münasibətlər Heydər Əliyev Bakıya qayıtdıqdan sonra ilk günlərdə özünün qeyd etdiyi kimi "əslinə qalsa, hansısa sərt qarşıdurma ilə deyil, məhz bu cür xarakterizə edilirdi".

Azərbaycanda siyasi şəraitin ağırlaşması, respublika rəhbərliyinin səriştəsizliyi, daxili çəkişmələrin artması nəticəsində respublikanın dövlət müstəqilliyi üçün təhlükə yaradırdı. 1992-ci il oktyabrın 16-da Azərbaycanın bir qrup ziyalısı Heydər Əliyevə müraciətlə, Yeni Azərbaycan siyasi partiyası yaradılması və onun bu partiyanın fəaliyyətində iştirak etməsini xahiş etdilər. Heydər Əliyev oktyabrın 24-də ziyalıların müraciətinə cavab verdi və belə bir partiyanın yaradılmasının tarixi zərurətdən doğduğunu və belə bir partiya yaradılarsa, onun fəaliyyətində iştirak etməyə hazır olduğunu bildirdi. Noyabrın 5-də Yeni Azərbaycan Partiyası təşkilat komitəsinin yığıncağında Heydər Əliyev təşkilat komitəsinin sədri seçildi. Noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Təsis konfransında Azərbaycanın müxtəlif regionlarından 550 nəfərdən çox nümayəndə iştirak edirdi. Bunlar təəssübkeş qrupların nümayəndələri idilər. Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi. Konfransda YAP-ın proqram və nizamnaməsi qəbul edildi.

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının əsas məqsəd və vəzifələrini belə şərh edirdi: "Yeni Azərbaycan - parlament tipli partiyadır və qəbul etdiyi proqramına uyğun olaraq aşağıdakıları özünün

məqsədləri hesab edir: Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi; milli, dini və dil mənsubiyyətlərindən asılı olmayaraq, bütün vətəndaşlarının bərabər hüquqlara malik olduğu sivilizasiyalı, demokratik, hüquqi dövlət yaradılması. Lakin ön planda Azərbaycanın qarşısında duran ən mühüm və təxirəsalınmaz problemlərin həlli dayanır - hər şeydən əvvəl, respublikanın geniş miqyaslı xarakter almış müharibə vəziyyətindən çıxarılması, Qarabağ probleminin həll olunması, habelə ağır sosial-iqtisadi böhranın dəf edilməsi".

Naxçıvan MR Ali Məclisinin sədri Naxçıvanı erməni təcavüzündən qorumaq sahəsində böyük işlər görürdü. 1992-ci il mayın 18-də Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun ərazisinə Ermənistan tərəfindən hərbi hücum təşkil edilmiş, toplardan və başqa silahlardan atəş açılmaqla hərbi təcavüz başlanmışdı. Naxçıvan üçün ağır imtahan idi. İtkilər olmuşdu, dağıntılar var idi. Hadisə başlayan kimi Heydər Əliyev təcili olaraq Ali Məclisin iclasında müzakirə keçirdi, həm siyasi xarakterli tədbirlər, həm də müdafiə tədbirləri görüldü. Ali Məclisin sədri Heydər Əliyev hücum başlandığı ilk gündən dünya ictimaiyyətinə, televiziya ilə respublika əhalisinə müraciət etdi. Müraciətin sonunda Heydər Əliyev demişdi: "Bir daha Naxçıvan əhalisinə bildirmək istəyirəm ki, narahat olmasınlar, bizim öz torpağımızı qorumağa qüdrətimiz var və bütün imkanlardan istifadə edib Naxçıvan Muxtar Respublikasında əmin-amanlığı təmin edəcəyik". İlk növbədə Türkiyənin baş naziri Süleyman Dəmirəl, xarici işlər naziri Hikmət Çətin, baş nazirin birinci müavini Ərdal İnönü ilə əlaqə yaratdı. Türkiyənin Nazirlər Kabineti bəyanat verdi. Həmin gündən başlayaraq Türkiyənin bəyanatı bütün dünyaya yayıldı. Bunlar mühüm mənəvi yardım idi. Mayın 18-də gecə Türkiyənin Nazirlər Kabinetinin qəbul etdiyi bəyanatın mühüm cəhəti haqqında Heydər Əliyev göstərmişdi ki, "Bu bəyanatda Türkiyə hökumətinin 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvan Muxtar Respublikası haqqında xüsusi səs sahibi olması, qarant rolunu oynaması məsələsi qeyd olunubdur və bu da bütün dünyaya çatdırıbdır".

Naxçıvana xarici müxbirlərin axını başlanmışdı. Onlar gündə bir neçə dəfə Ali Məclisdən məlumatlar alırdılar. Heydər Əliyev deyirdi: "Mən şəxsən gündə bir neçə dəfə onlarla görüşmüşəm, vəziyyət haqqında məlumat vermişəm. Onlar da çox operativ hərəkət edərək, məlumatları bütün dünya informasiya orqanlarına çatdırmış və bunun nəticəsində dünya ictimaiyyətində böyük bir ciddi rəy yaranmışdır...".

Bütün operativ informasiya tədbirlərinin nəticəsində mayın 22-nə qədər 57 dövlət rəsmi surətdə Ermənistan Respublikasının Naxçıvana hərbi təcavüzünü pisləyib və çox ciddi bəyanatlar vermişdi.

Naxçıvan bir tərəfdən müharibə alovu içərisində idi, digər tərəfdən quruculuq işi ilə məşğul idi. Ağır günlərdə 1992-ci il mayın 28-də Sədərəkdə Araz çayı üzərində salınmış Naxçıvanla Türkiyə arasında körpünün

rəsmi açılışı oldu. Körpünün rəsmi açılışında Türkiyə Cümhuriyyətinin baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük nümayəndə heyəti gəlmişdi. Heydər Əliyev həmin körpünü "arzu və ümidlərin körpüsü" adlandırmışdı.

Körpünün açılışı münasibəti ilə Naxçıvana gəlmiş S.Dəmirəl körpünün açılışını Azərbaycan və Türkiyə arasında əməkdaşlığın yeni dövrünün başlanğıcı adlandırdı.

Dünya azərbaycanlılarının birliyi və həmrəyliyinin yaradılmasında Heydər Əliyevin böyük tarixi xidməti olmuşdur. 1989-cu ildə Naxçıvanda "Sərhəd hərəkatı" başlanan vaxt, yəni tarixi bir ərazidə yaşamış azərbaycanlıların iki yerə parçalanmasına qarşı Araz çayı boyunca bu xalqın əlaqəsini, birliyini qıran sərhədlərin aradan götürülməsi tələbi ilə SSRİ-nin dövlət sərhədi boyunca çəkilmiş sərhəd çəpərlərinin elliklə sökülməsinə başlanmışdı. O dövrdə Sov.İKP Mərkəzi Komitəsi və onun tərkib hissəsi olan Azərbaycan KP MK bu hərəkata böhtançı qiymət vermiş, onun qarşısını almaq üçün ciddi tədbirlər görmüşdülər. Moskvada olarkən Heydər Əliyev "Sərhəd hərəkatı"nın cinayətkar bir tədbir kimi qiymətləndirildiyinin şahidi olmuşdu. O, bu hərəkatı vətənpərvər gənclərin hərəkatı kimi qiymətləndirirdi. Heç də təsadüfi deyildir ki, 1989-cu ildən başlayan "Sərhəd hərəkatı"na qiymət vermək məqsədi ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sessiyasında xüsusi məsələ - dünya azərbaycanlıların milli həmrəylik və birlik günü haqqında məsələ müzakirə edilmişdi. İclası Heydər Əliyev aparmışdı. Məsələ geniş müzakirə edildikdən sonra o, müzakirələrə yekun vuraraq, sərhəd hərəkatının böyük əhəmiyyətini göstərmişdi: "...iki il bundan əvvəl vətənpərvər gənclərin bu hərəkatı başlanmış və onlar heç bir təhlükədən qorxmayaraq bu tədbiri həyata keçirmişlər... Mən belə hesab edirəm ki, bu hərəkatın qurbanı olanların xatirəsi əbədiləşdirilməlidir".

Naxçıvan Muxtar Respublikası Ali məclisi "31 dekabr - Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü haqqında" qərar qəbul etdi. Qərarda deyilirdi:

- ✓ 31 dekabr Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.
- ✓ 31 dekabrın Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin.

Naxçıvanın blokada şəraitində olduğu vaxt Heydər Əliyev xariclə əlaqə saxlayıb diyarın mövqeyini möhkəmləndirirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev iqtisadi blokada şəraitində dağılmış təsərrüfatı bərpa etmək, əhalinin yaşayış təminatını qaydaya salmaq sahəsində ciddi tədbirlər həyata keçirirdi. Muxtar Respublikanın Ali Məclisi, Nazirlər Kabineti və başqa nazirlik və idarələr Heydər Əliyevin məsləhətləri və göstərişləri ilə müəyyən tədbirlər həyata keçirə bilmişdilər.

Naxçıvan Ali Məclisinin sədri kimi Heydər Əliyev qonşu Türkiyə və İranın rəhbərləri ilə köhnə tanışlığından istifadə edərək muxtar respublikaya yardım kredit, humanitar kömək, elektrik enerjisi ilə təchiz etmək və digər məsələlər haqqında razılığa gəlməyə müvəffəq olmuşdu. Türkiyə Naxçıvan Muxtar Respublikasına 100 milyon dollar kredit vermişdi.

Qonşu dövlətlər - Türkiyə və İranla yaradılan münasibətlər vəziyyətə xeyli təsir etmişdi. Naxçıvan MR Ali Məclisi ilə Türkiyə hökuməti arasında 1992-ci il martın 24-də Ankarada iş birliyi protokolu imzalanmışdı. Bu protokola əsasən Türkiyə hökuməti muxtar respublikaya mal-material yardımı etmişdi ki, bu da kənd təsərrüfatını ağır vəziyyətdən çıxarmağa, məhsul istehsalına müəyyən müsbət təsir etmişdi.

1992-ci il avqustun 24-də Tehranda Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə İran İslam Respublikası arasında protokol imzalanmışdı. Bu protokola əsasən, İran İslam Respublikası ərazisində Naxçıvanla Bakı arasında şose yolu açılmışdı.

Türkiyə Respublikasının "Qızıl Ay" cəmiyyəti, İran İslam Respublikasının "Hilal Əhməd" cəmiyyəti vasitəsilə Muxtar Respublikaya humanitar yardımı edilirdi.

1992-ci il mayın 24-də Ankarada Türkiyə ilə Naxçıvan Muxtar Respublikası, 1992-ci il avqust ayının 24-də Tehranda İran İslam Respublikası ilə Naxçıvan MR arasında imzalanan müqavilələrə əsasən, Naxçıvana ərzaq və yanacaq məhsulları göndərilirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 7 dekabr 1992-ci il tarixli qərarında göstərilirdi ki, Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına ərzaq malları alınması üçün ayrılmış kredit hesabına son dörd ayda muxtar respublikaya 293 ton mal əti, 250 ton kərə yağı, 700 ton marqarin, 363 ton günəbaxan yağı, 460 ton toyuq əti, 2283 ton şəkər tozu, 400 ton düyü, 600 ton makaron, 6000 ton un gətirilmişdi. Bakıdan isə Naxçıvana cəmi 15 ton mal əti, 219 ton kərə yağı, 35 ton şəkər tozu, 164 ton düyü, 2 ton makaron, 3200 ton un göndərilmişdi.

Oktyabr-noyabr aylarında İran İslam Respublikasından 520 ton dizel yanacağı, 540 ton mazut, 220 ton daş kömür, 955 ton kartof, 350 ton un 97 ton soğan göndərilmişdi. 1992-ci il dekabr ayının 3-də İran İslam

Respublikasından Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanmışdı. Türkiyədən (İqdır şəhəri) Naxçıvana çəkilən elektrik xəttinin çəkilişi başa çatmaq üzrə idi.

Qeyd etmək lazımdır ki, çətin şəraitdə yaşayan Naxçıvan Azərbaycan rəhbərliyindən kömək almırdı. Muxtar Respublikaya sosial-iqtisadi məsələlərin həll edilməsində heç bir yardım edilmirdi. Əksinə, Azərbaycanın bəzi rəhbərləri Muxtar Respublikaya kömək əvəzinə, onun rəhbərliyinə, şəxsən Heydər Əliyevə təzyiq göstərməyə cəhd edir, onu hakimiyyətdən uzaqlaşdırmağa çalışırdılar. Heydər Əliyevin xalq tərəfindən müdafiəsi isə getdikcə möhkəmlənirdi. Naxçıvanda 24 oktyabr dövlət çevrilişinə cəhdin xalq tərəfindən ləğv edilməsi bunu bir daha sübut etdi.

Naxçıvan Muxtar Respublikasına Quzey Kıbrıs Türk Cümhuriyyəti də yardım göndərmişdi. Quzey Kıbrıs Türk Cümhuriyyətinin Naxçıvan torpağına ilk ayaq basmış vətəndaşı - Quzey Kıbrıs Türk Cümhuriyyəti Cümhur başqanının müşaviri Ahmed Qazioğlunu 1991-ci il dekabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev qəbul etmişdi. Ahmed Qazioğlu Heydər Əliyevə Quzey Kıbrıs Türk Cümhuriyyətinin Cümhur başqanı Rauf Denktaşın salamını və Quzey Kıbrıs Türk Cümhuriyyətinə rəsmi dəvətini yetirmişdi. Heydər Əliyev dəvət üçün təşəkkürünü bildirmiş və Naxçıvana rəsmi səfərə dəvətini Rauf Denktaşa çatdırmağı xahiş etmişdi.

Ahmed Qazioğlu bildirmişdi ki, Kıbrısdakı türklər Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin önündə gedən naxçıvanlılara böyük məhəbbət bəsləyirlər. Rəsmi dairələr, əhali muxtar respublikanın ağır vəziyyətindən xəbərdardırlar və buradakı qardaşlarına köməyə tələsirlər. O demişdi: "Bu bizlərin sizlərə yardımı yox, könüldən gələn qardaşlıq payıdır".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev bütün Naxçıvan əhalisi adından minnətdarlığını bildirərək qeyd etmişdi ki, Quzey Kıbrıs Türk Cümhuriyyətinin müstəqillik uğrunda mübarizəsi azadlıq yolunda çalışan Azərbaycan türkləri üçün bir örnəkdir.

1991-ci il dekabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşları - səfirliyin ikinci katibləri Enn K.Breyter və Obri A.Karlsonu onların öz xahişləri ilə qəbul etmişdi. Amerikalı diplomatlar bildirmişdilər ki, onlar Zaqafqaziya problemləri ilə məşğul olurlar və Naxçıvana Heydər Əliyevlə görüşmək məqsədilə gəlmişlər. Xanım Enn K.Breyter demişdi: "Biz Azərbaycanda bir neçə dəfə olmuşuq. Naxçıvana gəlməyə çalışmışıq, lakin hər dəfə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində də, Bakıda da maneələrlə rastlaşmışıq".

Qonaqları səmimi salamlayan Heydər Əliyev ABŞ səfirliyi tərəfindən Naxçıvana göstərilən diqqətdən razı qaldığını bildirmiş və qeyd etmişdi ki, bu amerikalı diplomatların son 70 ildə Naxçıvana ilk gəlişidir. Ali Məclisin sədri Naxçıvanda baş verən demokratik dəyişikliklərə Muxtar Respublikanın mühüm siyasi məsələlər üzrə müstəqil və prinsipial mövqe tutduğuna görə iqtisadi, kommunikasiya və informasiya blokadasına salınması haqqında məlumat vermişdi.

Eyni zamanda Heydər Əliyev Qərb ölkələri ilə Naxçıvana yardım edilməsi haqqında danışıqlar aparırdı. O, Amerika Birləşmiş Ştatlarının prezidenti B.Klintonla əlaqə yaratmışdı. Amerika Birləşmiş Ştatlarının hökuməti Naxçıvana humanitar yardım göndərirdi. Bununla da blokada şəraitində Naxçıvanın yaşaması təmin olunurdu.

Heydər Əliyev 1992-ci il iyunun 11-də Belarus Respublikası Parlamentinin millət vəkilləri Kuçinski Viktor Franseviç və Naumov Sergey İosifoviçi qəbul etmişdi. O, millət vəkillərinə Muxtar Respublikada yaranmış vəziyyət, Ermənistanla həmsərhəd rayonlarında baş verən hadisələr və Naxçıvanda yerləşən MDB hərbi hissələri ilə yerli hökumət və əhali arasındakı münasibətlər haqqında məlumat verib, onlardan xahiş etmişdi ki, Belarus Respublikası Ali Sovetini və iyunun 23-də Minskdə keçiriləcək ATƏT-in növbəti yığıncağının iştirakçılarına Naxçıvan haqqında obyektiv məlumat versinlər.

1992-ci il iyulun 23-də Heydər Əliyev Bakıdan Naxçıvana gəlmiş Rusiya Federasiyasının xüsusi səlahiyyətli elçisi, Dağlıq Qarabağda sülhün bərqərar olunması üzrə Rusiyanın vasitəçilik missiyasının rəhbəri Vladimir Kazimirovu qəbul etmişdi. Ali Məclisin sədri Muxtar Respublikanın rəhbərliyi və əhalisinin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına tərəfdar olduqlarını bildirmiş və Rusiyanın vasitəçilik missiyasının səylərinin müvəffəqiyyətlə nəticələnməsini arzulamışdı.

Heydər Əliyev 1993-cü il fevralın 4-də Naxçıvana gəlmiş Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Riçard M. Maylısı qəbul etmişdi.

Mart ayının 10-da isə ABŞ-ın Naxçıvan MR-na humanitar yardımını gətirən inspeksiya qrupunun üzvləri - Robert Hovardi, Devid Robertsi və Cil Robitsonu qəbul etmişdi. Muxtar Respublikanın rəhbəri ABŞ-ın Naxçıvana göndərdiyi humanitar yardımın böyük siyasi əhəmiyyəti olduğunu bildirmişdi. Çünki ABŞ-ın konqresi bundan əvvəl Azərbaycana humanitar yardım göndərilməsini qadağan etmişdi. Amerika Birləşmiş Ştatlarının prezidenti Bil Klintonun Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına humanitar yardım etməsi xüsusi əhəmiyyət kəsb edirdi.

Amerika diplomatı Riçard M. Mayls Naxçıvanda ictimai-siyasi vəziyyətlə tanış olduqdan sonra "Həyat"ın müxbirinə demişdi: "Naxçıvan Muxtar Respublikası Azərbaycan ictimai-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynadığı üçün ilk tanışlığı buradan başlamağı qərara aldım. Bir də mən Heydər Əliyevin adını eşitmiş, böyük nüfuzundan xəbərdar idim, şəxsən tanış olmaq arzum vardı. Biz onunla faydalı söhbətlər apardıq. Məndə xoş təəssürat oyatdı".

Naxçıvan həqiqətləri dünyanın müxtəlif informasiya vasitələrinə çatdırılmışdı. Dünya ictimaiyyətində böyük bir ciddi rəy yaranmışdı ki, Naxçıvana, Azərbaycana hücum Ermənistan tərəfindən həyata keçirilən hərbi təcavüzdür. Bu dövrdə 57 dövlət rəsmi surətdə Ermənistan Respublikasının Naxçıvana hərbi hücumunu pisləmiş, öz etirazlarını bildirmişdilər. Muxtar Respublika dünya ictimaiyyətinin diqqət mərkəzinə çevrilmişdi. Xarici dövlətlərin Naxçıvana gələn nümayəndələri Heydər Əliyev tərəfindən qəbul edilir, onlara lazımi məlumatlar verilirdi.

Heydər Əliyev Naxçıvanda gördüyü işlərə yekun vuraraq "Российский фермер" qəzetinin müxbirləri ilə söhbətində qeyd edirdi ki, "Öz adıma artıq heç bir şey çıxmayaraq, deyə bilərəm və həyatda fəxr etməyə həqiqətən dəyər ki, mən həmin müddət ərzində Naxçıvanı müharibədən qorudum".

*Mənbə: İradə Hüseynova. Müstəqil Azərbaycanın qurucusu. Bakı, 2004, səh. 122-155.*

## Azərbaycan Respublikasının Prezidenti
## (1993-2003)

Heydər Əliyev böyük dövlətçilik təcrübəsini müstəqillik dövrünün yeni tələbləri ilə zənginləşdirməyə, Naxçıvanın tarixi inkişafında əvəzedilməz bir səhifə yazmağa nail oldu. Azərbaycan Respublikasının paytaxtında isə siyasi böhran dərinləşməkdə davam edirdi. Vətəndaş müharibəsi vəziyyəti yaranmışdı. Gəncədə bir qrup zabit "hərbi birlik" yaratmışdı, 709 saylı hərbi hissə isə Müdafiə Nazirliyinə tabe olmurdu. Cənub və şimal bölgələrində xalqa zidd separatçı qüvvələr fəallaşmışdılar. İqtidarın yaranmış vəziyyətdən çıxış üçün aydın fəaliyyət planı yox idi. 1993-cü il iyunun 4-də Gəncəyə hərbi texnika yeridilməsi vəziyyəti daha da gərginləşdirdi. Hökumət qüvvələri məğlub oldu. Qiyamçı hərbi hissələr siyasi tələblərlə Bakı üzərinə yönəldi. AXC-Müsavat iqtidarı ölkədə baş verən təhlükəli proseslərin (vətəndaş müharibəsi, yeni separatizm cəhdləri və s.) qarşısında aciz qalıb, kömək üçün Heydər Əliyevə müraciət etdi. Heydər Əliyev Azərbaycanın gələcəyi naminə, xalqın təkidli tələbi ilə iyunun 9-da Bakıya gəldi və fəal iş aparmağa başladı. İlk növbədə, vəziyyətlə yerində tanış olmaq üçün Gəncəyə yola düşdü. Bütün imkanlarından istifadə edərək silahlı qarşıdurmanın kəskinləşməsinin qarşısını aldı. Parlamentin sədri, baş nazir, güc nazirliklərinin başçıları istefa verməklə məsuliyyətdən yaxa qurtarmağa cəhd edirdilər. Bu ağır anda bütün nəzərlər Heydər Əliyevə dikilmişdi.

İyunun 15 -də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu hadisənin əhəmiyyətini nəzərə alan Azərbaycan parlamenti 1997-ci il iyunun 27-də həmin günü Milli Qurtuluş günü elan etdi. Lakin ölkəni bir tərəfdən erməni təcavüzü, digər tərəfdən səriştəsiz idarəçilik nəticəsində düçar olduğu ağır vəziyyətdən çıxarmaq üçün hələ xeyli iş görmək lazım idi.

1993-cü il iyunun 17-dən 18-nə keçən gecə Əbülfəz Elçibəyin Bakını tərk edərək Naxçıvana, Kələki kəndinə getməsi paytaxtda vəziyyəti daha da dramatikləşdirdi. Elçibəyin geriyə qayıtması üçün edilən çağırışlar heç bir nəticə vermədikdən sonra, Ali Sovetin iyulun 15-16-da keçirilən iclaslarında prezidentə etimadsızlıq məsələsi qaldırıldı. Belə bir şəraitdə Elçibəy səlahiyyətlərinin bir hissəsinin Ali Sovetin sədrinə verilməsi haqqında fərman imzaladı. Bunun vəziyyətdən çıxış yolu olmadığını nəzərə alan Ali Sovet bütün prezident səlahiyyətlərinin parlament sədrinə verilməsi haqqında qərar qəbul etdi. Heydər Əliyev prezident səlahiyyətlərini də öz üzərinə götürdü. Lakin hakimiyyət məsələsinin hüquqi yol ilə həlli xətti davam etdirildi. İyulun 29-da Elçibəyə etimad referendumu keçirilməsi qərara alındı. Avqustun 29-da keçirilən referendumda

xalq Elçibəyə etimadsızlıq göstərdi. Oktyabrın 3-də keçirilən yeni seçkilərdə isə Heydər Əliyev səslərin böyük əksəriyyətini toplayaraq prezident seçildi. Oktyabrın 10-da andiçmə mərasimi keçirildi.

Bütün bu dövr ərzində ölkədə vəziyyətin sabitləşməsinə mane olan qüvvələr hər cür pozuculuq fəaliyyətini davam etdirirdi. Orduda başıpozuqluq, hakimiyyət naminə satqınlıq və özbaşınalıq davam edirdi. Bunun nəticəsi idi ki, 1992-ci il iyulun 23-də Ağdam, avqustun 25-də Cəbrayıl və Füzuli, 31 -də Qubadlı, oktyabrın 27-də Zəngilan Ermənistan tərəfindən işğal edildi.

Bu cür çətin şəraitdə fəaliyyət göstərən Heydər Əliyev Azərbaycana ikinci rəhbərliyinin ilk günlərindən dövlət həyatının bütün sahələri üzrə fəal və düşünülmüş siyasət yeritməyə başladı.

Dövrün tələbinə görə ***dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, qanunçuluğun bərpa edilməsi, demokratik və hüquqi dövlət quruculuğu*** xüsusi əhəmiyyət kəsb edirdi. Bu sahədə həyata keçirilən tədbirlər böyük müqavimətlə qarşılaşırdı. Bu müqavimət güclənərək dövlət çevrilişi cəhdinə çevrilmişdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsinin imzalanmasından sonra Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş qüvvələr fəallaşdılar. Sentyabrın 29-da Azərbaycan Respublikası Milli Məclis sədrinin müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qətlə yetirildilər. Heydər Əliyevin fiziki cəhətdən məhv edilməsi planı hazırlanmışdı. Oktyabrın 3-4-də Baş nazir Surət Hüseynovun rəhbərliyi ilə dövlət çevrilişinin həyata keçirilməsinə başlanmışdı.

Heydər Əliyev oktyabrın 4-də televiziya ilə xalqa müraciət etdi. Oktyabrın 4-dən 5-nə keçən gecə onun çağırışı ilə Prezident Aparatı qarşısına minlərlə adam toplaşdı. Beləliklə, dövlət çevrilişi cəhdinin qarşısı alındı. Oktyabrın 5-də Azadlıq meydanında ümumrespublika mitinqi keçirildi. Heydər Əliyev mitinqdə çıxış edərək baş verən hadisələrin səbəblərini, gedişini, qarşısının alınması yolunda görülmüş bütün işləri ətraflı təhlil etdi. Heydər Əliyev mitinqdəki çıxışında dedi:

*"Son günlərdə baş vermiş hadisələr Azərbaycanın müstəqilliyini puça çıxarmağa, onu müstəqillik yolundan döndərməyə, bu yolla irəliləyişinin qarşısını almağa, ölkəmizin daxili ictimai-siyasi sabitliyini pozmağa yönəldilmiş əməllərdir. Onu da bilin ki, bu hadisələr, ümumiyyətlə, Azərbaycanı dağıtmaq, parçalamaq, ölkəmizi bir dövlət kimi məhv etmək üçün qurulan planların bir hissəsidir. Qoy, hamı bilsin və əmin olsun ki, bu bəd niyyətlərin və bu çirkin planların heç birisi həyata keçməyəcəkdir! Azərbaycan xalqı buna yol verməyəcəkdir! Azərbaycan müstəqil bir dövlət kimi yaşayacaqdır".*

1995-ci il martın 13-17-də yeni, ikinci dövlət çevrilişi cəhdi baş verdi. Çevrilişdə əsas rolu, Cavadov qardaşları başda olmaqla, Xüsusi Təyinatlı Polis Dəstəsi oynayırdı. Heydər Əliyevin dövlət çevrilişi cəhdinin qarşısını sülh yolu ilə almaq cəhdi onların günahı üzündən baş tutmadı. Qətiyyətli tədbirlərə əl atıldı və martın 17-də dövlət çevrilişi cəhdi aradan qaldırıldı. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanı müstəqil dövlət quruculuğu yolundan döndərmək mümkün olmadı. Dövlət çevrilişi tərəfdarları bir daha baş qaldıra bilmədi.

Azərbaycanda ***yeni Konstitusiyanın hazırlanması, qəbul edilməsi, konstitusion quruluşun yaradılması*** böyük uğur idi. Heydər Əliyevədək müstəqil dövlətin Konstitusiyasının hazırlanması sahəsində ciddi bir iş görülməmişdi. 1995-ci ilin iyulunda Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildikdən sonra işlər fəallaşdı. Heydər Əliyevin rəhbərliyi və əsas ideyaları ilə hazırlanmış Konstitusiya noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olundu. Lakin Heydər Əliyev bununla kifayətlənməmiş, Konstitusiyanın həyatiliyini təmin etmək üçün onun təkmilləşdirilməsində fəaliyyətini davam etdirmişdir. O, 2002-ci ildə Azərbaycan Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi haqqında qərar qəbul etmiş, avqust ayında bu məsələlər üzrə referendum keçirilmişdir.

Azərbaycanda ***hüquqi dövlət quruculuğu*** prosesində 1998-ci il dekabrın 29-da yaradılmış hüquqi islahat komissiyası da böyük iş görmüşdü. Heydər Əliyev yalnız qanunlar qəbul edilməsinə deyil, onların həyata keçirilməsinə də xüsusi qayğı göstərirdi. 1998-ci ildə respublikada ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradıldı. "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət proqramı" təsdiq edilmiş və reallaşdırılmağa başlamışdır.

Azərbaycan dövlətçiliyinin inkişafında bələdiyyələr haqqında qanun qəbul edilməsi və bələdiyyə institutunun fəaliyyətə başlaması da yeni hadisə idi. 1999-cu il dekabrın 12-də bələdiyyələrə ilk seçki keçirilmiş, 23 min şəxs bələdiyyə üzvü olmuşdur. 2002-ci il iyulun 2-də Heydər Əliyevin təqdimatı ilə Milli Məclis İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) seçmişdi. Azərbaycan Respublikasının beynəlxalq konvensiyalara qoşulması, yerli hüquqi sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması da mühüm əhəmiyyət kəsb etmişdir.

Heydər Əliyev ***iqtisadi siyasətin hazırlanıb həyata keçirilməsinə, iqtisadiyyatın dinamik inkişafına da daim qayğı göstərmişdir. Burada Heydər Əliyevin neft strategiyası*** başlıca yer tutur. Onun əsasını 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" təşkil edir. Heydər Əliyevin həyata keçirdiyi tədbirlər

nəticəsində respublikada neft çıxarılması artmağa başladı. Neft hasilatı 1993-cü ildəki 10,3 mln. tondan artaraq 2003-cü ildə 15,3 mln. ton olmuşdur.

Neft strategiyasının əsas tərkib hissələrindən biri də onun dünya bazarlarına çıxarılması idi. 1999-cu il aprelin 17-də Bakı-Supsa neft kəməri istifadəyə verildi. Noyabrın 18-də isə ATƏT-in İstanbul sammitində Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəməri ilə nəql edilməsinə dair saziş imzalandı. 2006-cı ilin yayında fəaliyyətə başlayan həmin kəmərə Heydər Əliyevin adı verilmişdir.

Neft Azərbaycan xalqının təbii sərvətidir. Ona görə də neftdən əldə olunan gəlir Azərbaycan xalqı və dövlətinin tərəqqisinə xidmət etməlidir. Bunu nəzərə alan Heydər Əliyev 1999-cu il dekabrın 29-da Dövlət Neft Fondunun yaradılması haqqında fərman imzalamışdır. Heydər Əliyev deyirdi: *"... mənim məqsədim... Neft Fondunu Azərbaycanın gələcək nəsilləri üçün saxlamaqdır"*.

Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası dünyanın əsas neft istehsalı mərkəzlərindən birinə çevrilmişdir.

Neftlə bərabər, ***sənayenin digər sahələri, xüsusilə qabaqcıl texnika və texnologiyaya əsaslanan sahələrin inkişafı*** diqqət mərkəzində olmuşdur. Bunun üçün sənayenin əsas göstəricilərinə və sahələr üzrə sənaye məhsullarının həcminə dair məlumatlara nəzər salmaq kifayətdir. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələrkən Azərbaycan Respublikasında olan sənaye müəssisələrinin sayı 2306 idisə, 2002-ci ildə bu rəqəm 5202, yaxud 2896 (55, 67%) müəssisə çox idi. Sənaye sahələri üzrə məhsulun həcmində də irəliləyişlər çox idi. Mədənçıxarma sənayesi üzrə bu göstərici 1993-cü ildəki 9,4 mlrd. manatdan artaraq 9569,4 mlrd. manata çatmışdı. Emal sənayesində bu göstərici müvafiq olaraq 99,2 və 8292 mlrd. manat olmuşdu.

Sənaye ilə birgə ***kənd təsərrüfatının*** ümumi məhsulunda da ciddi artım müşahidə edilmişdi. Əgər 1993-cü ildə kənd təsərrüfatında ümumi məhsul istehsalı 52,3 mlrd. manat idisə, 2002-ci ildə bu rəqəm 6355,7 mlrd. manata yüksəlmişdi.

Respublika iqtisadiyyatının ***əsaslı tikinti, rabitə-nəqliyyat və digər sahələri*** də sabit inkişaf yoluna qədəm qoymuşdu.

Heydər Əliyev iqtisadi siyasətinin ən uğurlu cəhətlərindən biri də ***planlı-sosialist təsərrüfatından azad bazar iqtisadiyyatına keçilməsinin təmin edilməsi*** olmuşdu. Özəlləşdirmə siyasəti uğurla həyata keçirilmiş, yeni sahibkarlar təbəqəsi təşəkkül tapmış, istehsalın strukturunda özəl bölmənin payı artmışdı.

Heydər Əliyevin idarəetmə siyasətində ***xalqın rifahının yüksəldilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması, bir sözlə, bütün tədbirlərin sosial yönümlü olması*** həmişə önəmli yerə malik olmuşdur. Bu, ilk növbədə, dövlət büdcəsindən sosial məsələlərin həlli üçün ayrılan vəsaitin ildən-ilə artırılmasında əksini tapmışdır. Digər tərəfdən, əhalinin pul gəlirləri də yüksələn xətlə çoxalmışdır. Əgər 1993-cü ildə hər nəfərə düşən pul gəlirləri 18,4 min manat olmuşdusa, 2002-ci ildə bu rəqəm 2629,2 min manat olmuşdur. Əhalinin pul gəlirlərinin əsasını təşkil edən əməkhaqqı, pensiya təminatı artırılmışdır. Bununla birgə pul gəlirlərinin yüksəlməsində sahibkarlığın rolu genişlənmişdir. Qaçqınların və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır. Bunun üçün 1998-ci il sentyabrın 17-də xüsusi Dövlət Proqramı qəbul edilmişdir.

Yoxsulluğun azaldılması da əsas istiqamətlərdən biri idi. Bunun üçün dövlətin sosial sahədə tədbirlərinin genişləndirilməsi ilə birgə, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə xüsusi fikir verilirdi.

Heydər Əliyevin səyi nəticəsində ***Azərbaycanda vətəndaş cəmiyyəti qurulması sahəsində*** uğurlu addımlar atılmışdır.

O, vətəndaş cəmiyyətinin tərkib hissəsi kimi çoxpartiyalı sistemin təşəkkülünə diqqət yetirirdi. Partiya quruculuğu sahəsində böyük təcrübəyə malik olan Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın cəmiyyətdə mövqe və nüfuzu artmağa başladı. YAP müxalifət partiyasından hakim partiyaya çevrildi. YAP-ın aparıcı qüvvə olduğu çoxpartiyalı sistem yarandı.

Azərbaycanda qeyri-hökumət təşkilatlarının yaranması və fəaliyyətinin genişlənməsində də yeniliklər özünü göstərmişdi. Ölkədə qeydiyyatdan keçmiş 1400-dən çox qeyri-hökumət təşkilatının fəaliyyət göstərməsi bunun bariz nümunəsidir.

Heydər Əliyev cəmiyyət həyatının inkişafında söz və mətbuat azadlığına böyük önəm vermişdir. Bu sahədə ardıcıl və kompleks tədbirlər həyata keçirilmişdir. Onların içərisində "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman xüsusi yer tutur. Bu fərmanla, faktiki olaraq, senzura rolunu oynayan Mətbuatda Dövlət Sirlərini Mühafizə edən Baş İdarə - "Qlavlit" ləğv olunmuşdur.

Heydər Əliyev ***Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsini*** daima diqqət mərkəzində saxlamışdır. Bu məqsədlə milli təhlükəsizlik orqanları möhkəmləndirilmiş, Azərbaycan xalqına

qarşı yönəlmiş terror və casusluq fəaliyyətinin üstünün açılması üzrə işlər gücləndirilmişdir. Azərbaycanda əsl ordu quruculuğu, bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin əməli fəaliyyəti nəticəsində ordudakı başıpozuqluq aradan qaldırıldı. 1993-cü il noyabrın ortalarından Ermənistanın yeni hücumlarının qarşısı alındı. 1994-cü il yanvarın 5-də Füzuli rayonunun Horadiz qəsəbəsilə birgə 22 kənd düşməndən təmizləndi. Cəbrayıl və Kəlbəcər rayonunun bir sıra yaşayış məskənləri azad edildi. Azərbaycana alçaldıcı müqaviləni qəbul etdirmək üçün düşmən aprelin 10-da güclü hücuma keçdi. Azərbaycan ordusu bunun qarşısını ləyaqətlə alıb, düşmənin planını boşa çıxardı. 1994-cü il mayın 8-də atəşkəs haqqında Bişkek (Qırğızıstan) protokolu imzalandı. Azərbaycan vəziyyətdən istifadə edərək nizami ordu hissələrini möhkəmləndirdi, onun professional zabit kadrları ilə möhkəmləndirilməsini, hərbi texnika ilə təchizatını yaxşılaşdırdı. Azərbaycan ordusunun beynəlxalq əlaqələri də fəallaşmağa başladı.

Heydər Əliyevin Azərbaycana ikinci rəhbərliyi dövründə ən böyük xidmətlərindən biri də ***müstəqil Azərbaycan Respublikasının xarici siyasət xəttini hazırlaması və həyata keçirməsi*** olmuşdur. Heydər Əliyev xarici siyasət xəttinin əsas istiqaməti haqqında demişdir: *".. lakin həm Avropa, həm Asiya, həm də Qərb ölkələri ilə, dünyanın bütün ölkələri ilə xoş münasibətlər yaratmağa çalışır. Bununla belə Azərbaycan qonşu ölkələrlə daha sıx əlaqələr yaradılmasına böyük əhəmiyyət verir. Şimal qonşumuz Rusiya ilə, habelə bizimlə həmsərhəd olan Türkiyə və İranla aramızda normal münasibətlər var. Biz Gürcüstanla normal münasibətlər yaratmışıq, lakin aramızda böyük sərhəd olan Ermənistanla müharibə vəziyyətindəyik".*

Xarici siyasətin mərkəzi məsələsini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki fəaliyyət təşkil edirdi. Ermənistan Azərbaycana qarşı elan edilməmiş müharibəyə başlamış, respublika ərazisinin 20%-ni işğal etmişdir. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması haqqında 822, 853, 874 və 884-cü qətnamələr qəbul etmişdir. ATƏM-in (sonralar ATƏT) Nazirlər Şurası isə problemi həll etmək məqsədilə Minsk qrupu yaratmışdır. Lakin bu, Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq planlarının qarşısını ala bilməmişdir. Heydər Əliyev vəziyyəti nəzarət altına almaq məqsədilə atəşkəs haqqında razılaşmaya nail oldu. ATƏM və onun Minsk qrupu çərçivəsində fəaliyyət gücləndirildi. Heydər Əliyevin səyi nəticəsində ATƏT-in Lissabon sammitində (1996-cı il) Ermənistan istisna olmaqla, 53 dövlət onun ərazi bütövlüyünü tanıdı. Bu sammitdə Minsk qrupu yeni formatda təşkil edildi. 1999-cu ilin aprelindən başlayaraq münaqişənin həlli üçün Azərbaycan və Ermənistan prezidentlərinin dialoqları keçirilməyə başladı. Heydər Əliyev bütün səviyyələrdə Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə müdafiə etmiş, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün var qüvvəsi ilə çalışmışdır. Azərbaycanın xarici siyasətinin sülh və mehriban dostluq prinsipinə əsaslanması digər qonşular

ilə münasibətdə özünü daha aydın göstərmişdir. Heydər Əliyev ilk xarici səfərini Rusiya Federasiyasına etmiş, şimal qonşusu ilə səmərəli münasibətlər yaratmağa nail olmuşdur.

Azərbaycanın strateji tərəfdaşı olan qardaş Türkiyə ilə münasibətlər Heydər Əliyev tərəfindən tarixdə analoqu olmayan bir səviyyəyə qaldırılmış, "bir millət, iki dövlət" aforizmi münasibətlərin sadə və aydın ifadəsinə çevrilmişdir.

Heydər Əliyev Gürcüstanla münasibətləri də strateji əməkdaşlıq səviyyəsinə qaldırmağa nail olmuşdur.

Azərbaycan dövlətinin xarici siyasət xəttində ABŞ-la əməkdaşlığa böyük diqqət verilirdi. Bunun nəticəsi idi ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etmiş, Azərbaycanın mühüm iqtisadi tərəfdaşlarından birinə çevrilmişdir.

Heydər Əliyev uğurlu diplomatik fəaliyyəti nəticəsində 1992-ci ildə ABŞ Konqresinin "Azadlığı Müdafiə Aktı"na 907-ci əlavənin fəaliyyətinin dayandırılmasına nail oldu.

Azərbaycan həm Avropa, həm də Asiyanın nüfuzlu dövlətləri ilə yüksək ikitərəfli münasibətlər yaratdı.

Heydər Əliyevin xarici siyasət xətti Azərbaycanın dünya birliyində nüfuzunu artırmış, beynəlxalq təşkilatlarla əlaqələrini yeni səviyyəyə yüksəltmişdir. Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasına (AŞ) üzvlüyə qəbul olunmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə olduğu kimi, bu dövrdə də ***milli-mənəvi inkişafa*** xüsusi qayğı göstərilmişdir. Elm və təhsil sahəsində yeni uğurlar əldə edilmişdir. Bazar iqtisadiyyatına keçidin elm və təhsil sahəsində yaratdığı problemlərin həllinə xüsusi diqqət yetirilmişdir. Yeni cəmiyyət formalaşması ***mədəniyyətin inkişafında*** daha dərin dəyişikliklərlə müşahidə edilmiş, mədəniyyətin bütün sahələrinə dövlət qayğısı artırılmışdır.

Heydər Əliyevin AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI milli-mənəvi inkişafın əsas zəmini olmuşdur. O bu barədə demişdir: *"Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər, ümumbəşəri dəyərlər-bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir...".*

Heydər Əliyev ***bütövlükdə Azərbaycan kimi onun hər bir bölgəsinə də böyük ehtiram bəsləmişdir.*** O, Azərbaycanın digər bölgələrinə, eləcə də Şəmkirə dəfələrlə səfər etmişdir. 2000-ci ilin may səfəri zamanı Heydər Əliyev Şəmkirdə Yenikənd Su - Elektrik Stansiyasının açılış mərasimində iştirak etmişdir. O bu mərasimdəki dərin məzmunlu çıxışında ölkənin elektrik enerjisi potensialını hərtərəfli təhlil etmiş və demişdir:

*"Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra Yenikənd Su-Elektrik Stansiyasının tikilib, bu gün istifadəyə verilməsi, demək olar ki, həqiqətən, birinci belə böyük tikintinin başa çatması və istifadəyə verilməsidir. Mən "böyük" deyəndə, əlbəttə, onun Azərbaycan üçün, dövlətimiz üçün, millətimiz, xalqımız üçün əhəmiyyətini nəzərdə tuturam. Əhəmiyyəti isə ondan ibarətdir ki, Azərbaycanın energetika sisteminə əlavə 112 meqavat elektrik enerjisi daxil oldu".*

Heydər Əliyevin unudulmaz dövlətçilik fəaliyyəti ona ölkə daxilində olduğu kimi, beynəlxalq aləmdə də böyük nüfuz qazandırmış, yüksək mükafatlara, orden və medallara layiq görülmüşdür. Bu dövr Heydər Əliyevlə birgə təqiblərə və ağır siyasi mübarizəyə sinə gərən İlham Əliyevin də həyatında dönüş mərhələsi olmuşdur. O, 1994-1996-cı illərdə Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində mühüm yer tutan Azərbaycan Respublikası Dövlət Neft Şirkətində xarici iqtisadi əlaqələr üzrə vitse-prezident, sonra isə birinci vitse-prezident olmuşdur. 1995-ci ildə Milli Məclisə deputat seçilmişdir. İlham Əliyevin 1997-ci ilin iyulunda Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbərliyə başlaması da razılıqla qarşılanmışdır. İlham Əliyevin fəal siyasi mövqeyi onun Yeni Azərbaycan Partiyasının birinci qurultayında sədr müavini, ikinci qurultayda isə birinci müavin seçilməsini təmin etmişdir. O, 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasında fəal iştirak etmiş və onun uğurlarına sanballı töhfə vermişdir. O, Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) daimi nümayəndə heyətinin başçısı təyin olunmuşdur. 2003-cü ilin yanvarında isə AŞPA sədrinin müavini və büro üzvü seçilmişdir.

Heydər Əliyevin dövlətçilik fəaliyyətinin bütün dövrlərindəki gərgin əməyi, ona qarşı yönəlmiş sui-qəsdlər, bunun müqabilində fəal işdən ayrılmaması səhhətinə mənfi təsir etmişdi. Bütün bunlara baxmayaraq, Heydər Əliyev Azərbaycan naminə misilsiz fəaliyyətini davam etdirir, həyatın bütün çətinlikləri qarşısında qeyri-adi mətinlik və dözüm nümayiş etdirirdi. Heydər Əliyev kursunun həyata keçirilməsində onun yaxın silahdaşı İlham Əliyevin rolu daha da artmışdır. Ona görə də Heydər Əliyev 2003-cü il avqustun 2-də İlham Əliyevin Baş nazir təyin edilməsi haqqında Milli Məclisə müraciət etmişdir. Avqustun 4-də İlham Əliyev Baş nazir təyin edilmişdir. Bu zaman prezident seçkiləri ilə əlaqədar olaraq respublikanın siyasi həyatında fəallıq artmışdı. Heydər Əliyev öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürmüşdü. İlham Əliyev prezident seçkilərinin gedişi zamanı Bakıda və Azərbaycanın bütün bölgələrində seçicilərlə görüşlər keçirdi, seçki platformasını ətraflı şəkildə izah etdi, siyasi rəqiblərinin qeyri-real və populist vədlərini alt-üst etdi, sadə və dərin məzmunlu nitqlərilə xalqı öz ətrafında birləşdirməyə nail oldu. O, seçki təbliğatı çərçivəsində Azərbaycanın bütün bölgələrinə səfərlər etdi. Seçicilərlə görüşlər zamanı respublikanın ən qiymətli sərvəti

olan insanlara qayğı, onların həyat şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirdi, müstəqil Azərbaycanın inkişafında hər bir bölgə vətəndaşlarının rolunu layiqincə qiymətləndirdi.

2003-cü il 15 oktyabr prezident seçkilərini böyük uğurla həyata keçirən İlham Əliyev seçicilərin 76%-nin səsini toplayaraq bu seçkilərdə qələbə qazandı. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası prezident seçkilərinə dair protokolu oktyabrın 20-də təsdiq etdi. Konstitusiya Məhkəməsi isə oktyabrın 28-də prezident seçkilərinin nəticələrini təsdiq etdi və İlham Əliyevin prezident seçilməsini rəsmən elan etdi. Oktyabrın 31 -də Heydər Əliyevin fərmanı ilə İlham Əliyev Baş nazir vəzifəsindən azad edildi. Elə həmin gün yeni prezidentin -İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi keçirildi. İlham Əliyev Heydər Əliyev kursunu davam etdirəcəyini rəsmən elan etdi. Beləliklə, Heydər Əliyevin Azərbaycan Respublikasına ikinci rəhbərliyi böyük dövlət xadiminin siyasi arzusuna uyğun şəkildə başa çatdı.

Ümummilli lider Heydər Əliyev 2003-cü il dekabrın 12-də vəfat etdi. Azərbaycan xalqı, Heydər Əliyev şəxsiyyətinə böyük hörmət əlaməti olaraq, müxtəlif dövlətlərdən dəfn mərasimində iştirak edən çoxsaylı nümayəndə heyəti dekabrın 15-də Heydər Əliyevi dərin hüznlə son mənzilə yola saldı.

*Mənbə: Mən fəxr edirəm ki, azərbaycanlıyam.- Regionların İnkişafı İctimai Birliyi Bakı, 2008, səh. 125-148.*